

# YENİ FİKİR

XÜSUSİ BURAXILIŞ

COP29 Baku Azerbaijan

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR.

TƏSİSÇİ: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

04 fevral 2025-ci il, çərşənbə axşamı №7 (63)


## COP29-un Azərbaycanda keçirilməsi 200-ə yaxın ölkə tərəfindən yekdilliklə qəbul edilmiş qərardır və bizim beynəlxalq nüfuzumuzu, hörmətimizi göstərən vacib amildir



"Azərbaycan bir ildən az müddət əvvəl beynəlxalq ictimaiyyətin yekdil dəstəyi ilə COP29-a ev sahibliyi etməkdən şərəf duydu.

Müddətin qısa olmasına baxmayaraq, Azərbaycan COP-un rahat və yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi hazırlıqları həyata keçirməyə nail oldu. Mübaliğəsiz deyə bilərik ki, Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək.

Biz 80 dövlət və hökumət başçısının, qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçının qatıldığı COP29-un çox yaxşı təşkil olunması ilə bağlı bütün qonaqlardan yüksək qiymət almaqdan qürur duyuruq.

Genişmiqyaslı və planlaşdırılmış böhtan və qarayaxma kampaniyasına baxmayaraq, Azərbaycan iqlim danışıqlarında tarixi nəticələr əldə etməyə müvəffəq oldu.

"Yaşıl dünya naminə həmrəylik" şüarını rəhbər tutan Azərbaycan bitərəf vasitəçi kimi çıxış edərək danışıqların qərəzsiz aparılması üçün bütün imkanları yaratdı. Bütün proses boyu biz inkişaf etməkdə olan ölkələrin, xüsusilə kiçik ada dövlətlərinin və ən az inkişaf etmiş dövlətlərin ehtiyaclarını nəzərə alan nəticə əldə etməyə çağırış etdik, çünki onlar iqlim dəyişmələrinin ağır yükünü daşıyırlar və ekzistensial təhlükə ilə üzləşirlər. Biz, həmçinin müstəmləkə idarəçiliyi ilə daha da ağırlaşan ekoloji problemlərdən əziyyət çəkən xalqlar və regionlar ilə həmrəylik nümayiş etdirdik.

Azərbaycan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpülərin qurulması üçün səylərini əsirgəmədi və bunun nəticəsində dünya tarixi Bakı nailiyyətinə şahid oldu.

Bakı COP-da İtki və Zərər Fondu tam işlək vəziyyətə gətirildi. Biz, həmçinin karbon bazarına dair çoxdan gözlənilən 6-cı maddənin tam işlək vəziyyətə gətirilməsinə nail olduq.

Ən əsası, Bakı COP 2035-ci ilə qədər inkişaf etməkdə olan ölkələrə 300 milyard ABŞ dolları təmin etmək üçün qarşıya yeni qlobal məqsəd qoyan Yeni Kollektiv Kəmiyyət Məqsədinin (NCQG) şahidi oldu. Bu razılaşma inkişaf etməkdə olan ölkələrə iqlim dəyişmələrinin fəsadları ilə mübarizədə kömək edəcək.

Mən Bakı nailiyyətini çoxtərəfliliyin təntənəsi kimi qiymətləndirirəm. COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir və mən inanıram ki, bu irs gələcək qlobal iqlim fəaliyyətinə müsbət təsir göstərəcək. Mən COP29-a gedən yolda Azərbaycana göstərdikləri dəstəyə görə bütün Tərəflərə, Birləşmiş Millətlər Təşkilatına və UNFCCC-yə minnətdarlığımı bildirirəm".

**İLHAM ƏLİYEV**
***Azərbaycan Respublikasının Prezidenti***

## "Azərbaycanda ətraf mühitin qorunmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda konfrans keçirilib

Batabat Astrofizika Rəsədxanasında Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin, Naxçıvan Dövlət Universitetinin, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Həmkarlar İttifaqları Şurasının təşkilatçılığı ilə "Azərbaycanda ətraf mühitin qorunmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda konfrans keçirilib.

Ümummilli Liderin anadan olmasının 101, Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinə, "Yaşıl dünya naminə həmrəylik ili"nə və BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-a həsr olunmuş konfransda əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli hər kəsi salamlayıb və konfransın işinə uğurlar arzulayıb. Səlahiyyətli nümayəndə bildirib ki, Ümummilli Lider Heydər Əliyev ölkəmizə hər iki rəhbərliyi dövründə ekoloji tarazlığın qorunması istiqamətində kompleks tədbirlər həyata keçirib, ətraf mühitin mühafizəsi sahəsində əsaslı dönüş yaradılıb. Görülən işlərin nəticəsi olaraq ölkəmizin zəngin flora və fauna müxtəlifliyi qorunub, təbii sərvətlərdən səmərəli istifadə prioritet məsələ kimi diqqətdə saxlanılıb. Ölkəmizdə bu sahədə fəaliyyəti tənzimləyən dövlət qurumları yaradılıb, eyni zamanda təkmil qanunvericilik bazası formalaşdırılıb. Azərbaycanın inkişaf konsepsiyasının müddəalarına uyğun olaraq iqtisadi inkişafın ekoloji tarazlıqla vəhdət təşkil etməsinə nail olunub. Bir sözlə, digər sahələrlə yanaşı, Ulu Öndərin ətraf mühitin mühafizəsi sahəsində formalaşdırdığı yeni ekoloji siyasət insanların sağlam ətraf mühitdə yaşamaq hüququnun tam təmin olunmasına zəmin yaradıb.

Görkəmli dövlət xadiminin "Təbiətə zərər vuranlar, ağac kəsənlər, təbiəti çirkləndirənlər, korlayanlar cəmiyyətimizin, hamımızın düşmənidir" fikirlərini xatırladan Fuad Nəcəfli diqqətə çatdırıb ki, Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti, o cümlədən ekologiya sahəsində verdiyi tövsiyələr bu gün ölkə Prezidenti tərəfindən uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2023-cü il 25 dekabr tarixli Sərəncamına əsasən 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Həmçinin qeyd edib ki, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafına dair beş milli prioritetindən biri də "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" yanaşmasıdır. Həmin prioritetə uyğun olaraq ölkəmizdə ətraf mühitin sağlamlaşdırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi əsas hədəfdir. Artıq ölkə Prezidenti işğaldan azad edilmiş Qarabağı və Şərqi Zəngəzuru, eləcə də Naxçıvan Muxtar Respublikasını yaşıl enerji zonası elan edib, ekosistemin bərpasına, "ağıllı şəhər" və "ağıllı kənd" kimi innovativ yanaşmaların tətbiqinə başlanılıb.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev konfransın əhəmiyyətini önə çəkib. Qeyd edib ki, dünyanın ən mötəbər tədbirlərindən biri olan COP29-un ölkəmizdə keçirilməsi siyasi və digər istiqamətlərlə yanaşı, Azərbaycanın iqtisadi və turizm cəhətdən də daha geniş inkişafına töhfə verdi. Rektor vurğulayıb ki, hazırda dünya ölkələrində sürətli şəhərləşmə prosesi gedir. Bu gün bu proses 50 faizdir. Aparılan müşahidələr göstərir ki, 2050-ci ildə şəhərləşmə 70 faizi ötəcək. Bu prosesin özü ilə gətirəcəyi fəsadların aradan qaldırılması üçün ekoloji tədbirlərin həcminin artırılması vacib əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda da ekosistemin qorunması və inkişafı prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Naxçıvanın ekoloji mühitinin daha geniş tədqiq olunmasının zəruriliyini irəli sürən Elbrus İsayev konfransın COP29 tədbirlərinə mühüm töhfə olduğunu bildirib.

Naxçıvan Muxtar Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini, nazir vəzifələrini icra edən Xanlar Mustafayev ətraf mühitin mühafizəsi istiqamətində görülən işlərdən bəhs edərək bildirib ki, Naxçıvanda 1 milli park, 3 dövlət təbiət yasaqlığı mövcuddur. Bu da muxtar respublika ərazisinin 149 min hektara yaxınını və ya 28 faizini təşkil edir. Azərbaycan Respublikasının "Qırmızı Kitab"ına salınmış Naxçıvan Muxtar Respublikası ərazisində mövcud olan 211 flora, 131 fauna növləri Xüsusi Mühafizə Olunan Təbiət ərazilərində mühafizə olunur. Xanlar Mustafayev diqqətə çatdırıb ki, bu gün dünyada iqlim dəyişikliyi, ətraf mühitin mühafizəsi və "yaşıl enerji"yə keçid ən mühüm prioritetlərdəndir. Azərbaycan baza ili ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürüb. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli", 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamlarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasında ağacəkmə aksiyaları keçirilib.







Sonra akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkının Batabat ərazisində yaşıllaşdırma aksiyası keçirilib. Səlahiyyətli nümayəndə universitetin könüllü tələbələri ilə ağac əkib. Əkin zamanı ərazinin iqlim şəraitinə uyğun olan kol bitkilərinin toxumlarından da istifadə edilib.

Fuad Nəcəfli könüllü tələbələrlə xatirə fotosu çəkdirib. Tələbələr "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş plakatlar nümayiş etdiriblər.

Konfrans çərçivəsində Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin müəllim və tələbələri Batabat yaylağının əsrarəngiz təbiətinə dair etüd təşkil ediblər.

Konfrans çərçivəsində könüllü tələbələrin iştirakı ilə Batabat ərazisində təmizlik aksiyası da keçirilib.

***Nardanə Əliyeva***
***Media və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# Naxçıvan Dövlət Universitetində Yaşıl dünya naminə “Orqanik Naxçıvan” I Respublika Elmi Konfransı keçirilib

Naxçıvan Dövlət Universitetində Yaşıl dünya naminə “Orqanik Naxçıvan” mövzusunda I Respublika Elmi Konfransı keçirilib. Konfransda NDU-nun rəhbər heyəti, müəllim və tələbələri ilə yanaşı, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Botanika İnstitutu, Bitki Mühafizəsi və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutu, Bioresurslar İnstitutunun əməkdaşları iştirak ediblər.

Konfransın girişində “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın icrasından söz açan rektor Elbrus İsayev müxtəlif sahələr üzrə tədbirlər planının hazırlandığını və icra edildiyini diqqətə çatdırıb. NDU üçün nəzərdə tutulan planlar, həyata keçirilmiş layihələr barədə danışan rektor universitetdə Kembric məktəbinin formalaşdırılması, tibb tələbələrindən ibarət SABAH qruplarının yaradılması və ikili diplom proqramlarının reallaşdırılması kimi nailiyyətləri də vurğulayıb. Qeyd edilib ki, yaxın keçmişdə Macarıstanda imzalanan ikili diplom proqramı da bu fəaliyyətin mühüm hissəsini təşkil edir”.

Elmin müxtəlif sahələrinə dair mülahizələrin dinlənildiyi konfranslarda məhz universiteti, o cümlədən cəmiyyəti inkişafa aparan ideyaların əsası qoyulur. Yaşıl dünya naminə “Orqanik Naxçıvan" mövzusunda keçirilən I Respublika Elmi Konfransını belə görüşlərdən biri hesab edən Elbrus İsayev konfransda qoyulmuş məsələlərin aktuallığını vurğulayaraq ekoloji dayanıqlılığın və kənd təsərrüfatının inkişafının ölkə daxilində orqanik istehsalın genişlənməsinə, ətraf mühitin qorunmasına və ekosistemin sağlamlaşdırılmasına dəstək verdiyini bildirib. Konfransın davamı olaraq Naxçıvan Dövlət Universitetində elmi-tədqiqat işləri ilə yanaşı, növbəti ildə muxtar respublika məhsullarını beynəlxalq səviyyədə tanıtmaq və onları brendə çevirmək istiqamətində ciddi addımların atılacağı vurğulanıb. Elmi tədbirin müxtəlif institutlar və təşkilatlarla birgə keçirilməsinin elmi əlaqələrin möhkəmlənməsi və qarşılıqlı bilik və təcrübə mübadiləsi baxımından faydalılığı qeyd olunub.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Botanika İnstitutunun direktoru, Botaniklər Cəmiyyəti İctimai Birliyinin sədri, professor Səyyarə İbadullayeva Naxçıvanın orqanik potensialını tanıtmaq, regionun təbii zənginliklərini qorumaq və orqanik məhsulların ekoloji dəyərlərini geniş ictimaiyyətə çatdırmaq baxımından keçirilən belə elmi müzakirələrin əhəmiyyətindən danışıb. Bu mərhələdə Naxçıvanda davamlı inkişaf və ekoloji dayanıqlığa dəstək olaraq aparılan tədqiqatların əhəmiyyəti xüsusi vurğulanıb.

Azərbaycanın COP29-a ev sahibliyi etməsini onun beynəlxalq miqyasda artan güc və nüfuzunun göstəricisi kimi qiymətləndirən Səyyarə İbadullayeva bu faktın ölkəmizin qlobal iqlim dəyişikliyi ilə mübarizə sahəsindəki liderliyini nümayiş etdirdiyini qeyd edib.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Bitki Mühafizəsi və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun direktoru, professor İbrahim Cəfərov Yaşıl dünya naminə “Orqanik Naxçıvan” konfransında yalnız orqanik kənd təsərrüfatının deyil, eyni zamanda qida təhlükəsizliyinin də vacib bir məsələ olduğunu vurğulayıb. O, qida təhlükəsizliyinin təmin edilməsi üçün düzgün bitki mühafizəsi və texniki bitkilərin yetişdirilməsi ilə bağlı aparılan elmi-tədqiqatlara diqqəti yönəldib. Professor ölkə daxilində qida istehsalının artması və ekoloji təmiz məhsulların istehsalının təmin edilməsi üçün müvafiq elmi əsasların yaradılmasının vacibliyini bildirərək, bu sahədəki davamlı təkmilləşdirmələrin həm daxili bazarda, həm də beynəlxalq ticarətdə Azərbaycanın rəqabət qabiliyyətini artıracağını ifadə edib.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Bioresurslar İnstitutunun direktoru, dosent İsmayıl Məmmədov Prezident İlham Əliyevin 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etməsinin ekoloji müstəvidə həyata keçiriləcək təşəbbüslər üçün böyük əhəmiyyət daşıdığını qeyd edib. O bu çərçivədə Yaşıl dünya naminə “Orqanik Naxçıvan” konfransının da xüsusi yer tutduğunu vurğulayıb. İsmayıl Məmmədov konfransın, həmrəylik ilinə uyğun olaraq ekosistemlərin qorunması, orqanik kənd təsərrüfatının inkişafı və təbii sərvətlərin səmərəli istifadəsi mövzusunda elmi müzakirələrə və praktiki addımlara dəstək verdiyini qeyd edib.

Naxçıvan Dövlət Universitetinin “Baytarlıq təbabəti” kafedrasının müdiri, dosent Mahir Məhərrəmov Naxçıvanın orqanik məhsullarının yüksək keyfiyyətini və bu məhsulların beynəlxalq bazarda tanıdılmasının vacibliyinə toxunub, elmi mülahizələrin mübadiləsinin bölmə iclaslarında davam edəcəyini diqqətə çatdırıb. Üz-üzə və onlayn davam edən konfrans 6 bölmədə ayrı-ayrı müəssisələrdən qoşulan 80-ə yaxın elm adamlarının iştirakı ilə 30-a yaxın mövzu ətrafında aparılıb.

Konfransın sonunda məruzəçilərə sertifikatlar təqdim olunub.







***Nardanə Əliyeva***

# “Biomüxtəlifliyin dayanıqlığının təmin edilməsində yeni çağırışlar (COP29)-Yaşıl dünya və insan sağlamlığı” mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirilib

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti, Elm və Təhsil Nazirliyi Botanika İnstitutu və Azərbaycan Botaniklər Cəmiyyəti İctimai Birliyinin birgə təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr edilən konfransın açılış tədbiri Nəbatat bağında baş tutub.

Tədbirdə çıxış edən ali təhsil müəssisəsinin rektoru Elbrus İsayev qonaqları və iştirakçıları salamlayaraq ölkəmizin COP29-a ev sahibliyi etməsini Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi olaraq vurğulayıb.

Elbrus İsayev qeyd edib ki, dünyanın ən mötəbər tədbirlərindən biri olan COP29-un ölkəmizdə keçirilməsi siyasi və digər istiqamətlərlə yanaşı, Azərbaycanın iqtisadi və turizm cəhətdən də daha geniş inkişafına töhfə verdi. Bu istiqamətdə universitetdə “Yaşıl dünya naminə həmrəylik ili” və “COP29” çərçivəsində bir sıra tədbirlər keçirildiyini vurğulayan rektor COP29 və “Yaşıl dünya naminə həmrəylik ili”nə həsr edilən “Biomüxtəlifliyin dayanıqlığının təmin edilməsində yeni çağırışlar (COP29)-Yaşıl dünya və insan sağlamlığı” elmi-praktiki konfransı dövlətimizin bu istiqamətdə apardığı siyasətə və elm sahəsində prioritet istiqamətlərin inkişafına təkan verdiyini bildirib.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Botanika İnstitutunun baş direktoru, professor Səyyarə İbadullayeva çıxışında qeyd edib ki, ölkəmizin təbii zənginliklərinin dövlət səviyyəsində mühafizə edilməsi işi XX əsrin ikinci yarısından etibarən sistemli şəkildə həyata keçirilib. Azərbaycanda təbii sərvətlərin qorunması, yaşıllaşdırma proqramlarının gerçəkləşdirilməsi sahəsində əhəmiyyətli addımlar atılıb.

Səyyarə İbadullayeva vurğulayıb ki, biomüxtəlifliyin qorunması və davamlı istifadəsi XXI əsrin ən mühüm və qlobal problemlərindən olmaqla, dövlətin həllini vacib hesab etdiyi prioritet məsələlərdəndir. Professor konfransa təqdim olunan məruzə və çıxışların xüsusən ekoloji problemlərin həlli üçün qarşıda duran məsələlərdə alim və tədqiqatçıları yeni ideyalara istiqamətləndirə biləcəyinə və tədbirin mühüm nəticələrlə yadda qalacağına əminliyini ifadə edib.

Konfransda AMEA-nın müxbir üzvü, Tibb fakültəsinin “Əczaçılıq və biokimya” kafedrasının professoru Tariyel Talıbov, Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun direktoru İbrahim Cəfərov, biologiya elmləri doktoru, professor Eldar Novruzov, Naxçıvan Dövlət Universitetinin prorektoru, biologiya üzrə fəlsəfə doktoru Elsevər Əsədov, biologiya elmləri doktoru, dosent İsmayıl Məmmədov və biologiya üzrə fəlsəfə doktoru, dosent Samirə Bağırova çıxış ediblər.

Daha sonra Naxçıvan Dövlət Universiteti ilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Botanika İnstitutu arasında birgə əməkdaşlığa dair memorandum imzalanıb. Memorandumda elmi-tədqiqat və kadr hazırlığı sahəsində tərəflərin maddi-texniki bazadan, kadr potensialından istifadəsi və birgə əməkdaşlıq sahələrinin müəyyən edilməsi, tədris prosesinin elmi-tədqiqatla əlaqələndirilməsi, elm və təhsilin inteqrasiyasının gücləndirilməsi, tələbə və magistrantlarda tədqiqatçılıq və peşə fəaliyyəti üçün zəruri olan praktiki bilik, bacarıq və vərdişlərin formalaşdırılması, biologiya sahəsində elmi yeniliklərin tədris prosesində tətbiq edilməsi və s. kimi maddələr öz əksini tapıb.

Konfransın plenar iclasının sonunda qarşılıqlı hədiyyələr təqdim olunub.

Elmi-praktiki konfransının plenar iclasına NDU Musiqi Kollecinin "Harmoniya" ansamblının möhtəşəm musiqi nömrələri ilə yekun vurulub.









***Nardanə Əliyeva***
***NDU, Media və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# Naxçıvan Dövlət Universiteti və Ərzurum Texniki Universitetinin birgə təşkilatçılığı ilə “COP 29”-a həsr olunan “Agrotech” Hakatonu təşkil edilib




Naxçıvan Dövlət Universiteti və Ərzurum Texniki Universitetinin birgə təşkilatçılığı ilə keçirilən hakatonun məqsədi gənc tədqiqatçılarda kənd təsərrüfatı texnologiyalarına yönəlmiş ideyaların inkişafına nail olmaqdır.

Proqram çərçivəsində Ərzurum Texniki Universiteti və Naxçıvan Dövlət Universiteti tələbələrinin iştirakı ilə problemlərlə bağlı qalıcı və əlavə dəyər yaradan texnologiyaya əsaslanan ideyaların inkişaf etdirilməsi hədəflənib. Bu çərçivədə iştirakçılar 72 saat ərzində müxtəlif onlayn vebinar, panel və təlimlərdə iştirak ediblər.

Daha sonra MVP mərhələsində fərdi və komanda



şəklində sözügedən problemin həll yollarına dair layihələr təqdim edilib. Ümumilikdə 250 iştirakçının qatıldığı hakatona fərdi və komanda şəklində olmaqla ümumilikdə 37 layihə təqdim edilib.

Layihənin son günü münsiflər heyəti tərəfindən hakatona təqdim edilən layihələr dəyərləndirilib və 10 ən yaxşı layihə seçilib.

Qeyd edək ki, qalib layihələrin komanda üzvlərinin Naxçıvan Dövlət Universiteti və Ərzurum Texniki Universitetinə qarşılıqlı olaraq bir həftə müddətində səfərləri təşkil ediləcək.

Hakaton prosesindən sonra layihələrin inkubasiya mərkəzləri, regional potensial əməkdaşlıq təşkilatları ilə uyğunlaşdırılması və kənd təsərrüfatı sektorunda tətbiq edilməsi nəzərdə tutulur.

Diqqətinizə çatdıraq ki, Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin tələbələri - Nadir Hacıyev, Nurlan Qurbanov və Nuray İsmayılovanın komanda olaraq irəli sürdükləri “SmartAgri” layihəsi hakatonda 3-cü yerə layiq görülüb. Kənd təsərrüfatında su və gübrə istifadəsini optimallaşdırmaqla səmərəli şəkildə resursları artırmaq və istifadə etmək sözügedən layihənin əsas hədəfidir.

***Nardanə Əliyeva***
***Media və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# Ağbulaq İstirahət Mərkəzində “COP29”-a həsr olunan“SDG kamp” ekoloji düşərgəsi təşkil edilib

Naxçıvan Dövlət Universiteti və Naxçıvan MR Həmkarlar İttifaqı Şurasının birgə təşkilatçılığı ilə Ağbulaq İstirahət Mərkəzində “COP29”-a həsr olunan “SDG kamp” ekoloji düşərgəsi təşkil edilib.

Düşərgənin əsas məqsədi Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyası tərəfindən qəbul edilmiş 17 məqsəd haqqında maarifləndirmə işini aparmaqdır.

Təlimin ilk günü "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də əks olunan Dayanıqlı İnkişaf Məqsədlərinin universallığı, qarşıdakı illər ərzində yoxsulluğun bütün formalarına son qoymaq, bərabərsizliklərə qarşı tədbirlər görmək və iqlim dəyişikliyi ilə mübarizə aparmaq kimi fəaliyyətlər düşərgə iştirakçılarının diqqətinə çatdırılıb.

Qeyd edək ki, düşərgə müddətində Naxçıvan Dövlət Universitetinin təlimçiləri "Karbon ayaq izi", "Ekoloji startapların tərtibi", "Sağlam yaşam", "Ərazinin ekoloji qiymətləndirilməsi simulyasiyası" və "Tullantıların idarə olunması" mövzularında təlimlər keçiblər.




# Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər, Gənclər və İdman, Təhsil nazirliklərinin və Naxçıvan Dövlət Universitetinin birgə əməkdaşlığı ilə “Yaşıl dünya könüllüləri” proqramı çərçivəsində görüş keçirilib

Bu münasibətlə Naxçıvan Biznes Mərkəzində həmin könüllü qrupuna qatılan gənclərlə görüş keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikasının gənclər və idman nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Məcid Seyidov, Naxçıvan Muxtar Respublika-



sının ekologiya və təbii sərvətlər nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Xanlar Mustafayev proqramın məqsəd və əhəmiyyəti barədə danışıb, gəncləri maraqlandıran sualları cavablandırıblar.

Qeyd olunub ki, Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2024-cü ilin Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili” elan olunması ilə əlaqədar olaraq, bütün ölkə ərazisində ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Azərbaycanın COP29 kimi mötəbər bir tədbirə ev sahibliyi etdiyini xatırladan rəsmilər ölkəmizin bu etimadı layiqincə doğruldacağına əminliyini ifadə edib,





eyni zamanda əlavə ediblər ki, muxtar respublikada da aidiyyəti qurumlar tərəfindən bu formata xidmət edən, eləcə də ümumilikdə ekosistemin mühafizəsinə, biomüxtəlifliyin qorunmasına, yaşıllıqların artırılmasına xidmət edən işlər həyata keçirilir.

Könüllü qrupu üzvlərinin bu işlərin bir parçasına çevriləcəyi, onların bilik və bacarıqlarının, ideyalarının bu mənada faydalı olacağına əminlik ifadə olunub.

# Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkına ekskursiya təşkil olunub

*Ekskursiya zamanı ekosistem, flora və fauna aləminin qorunmasından, Naxçıvan Muxtar Respublikasının zəngin bitki örtüyündən bəhs edilib.*








# Ağacəkmə aksiyası təşkil olunub

*Naxçıvan Dövlət Universitetinin rektoru və universitet əməkdaşları aksiyada iştirak edərək 245 ədəd meşə və meyvə tingləri əkiblər.*







## Azərbaycan Baş Prokurorluğunun dəvəti ilə COP29 çərçivəsində keçirilən "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiya keçirilib

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Azərbaycan Baş Prokurorluğunun dəvəti ilə COP29 çərçivəsində keçirilən "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksək səviyyəli sessiyada iştirak etmişdir. Tədbirə Baş prokuror Kamran Əliyev, COP29-un Prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Baş nazirinin müavini və daxili



işlər naziri Şeyx Saif bin Zayed əl-Nəhyan, həmçinin bir çox digər beynəlxalq rəsmilər qatılıblar. Bu sessiyada hüquq-mühafizə orqanlarının iqlim dəyişikliyi ilə mübarizədə birgə fəaliyyəti, ekoloji cinayətlərin qarşısının alınmasında beynəlxalq əməkdaşlığın vacibliyi bir daha önə çəkilib. COP29-un yüksək səviyyəli bu sessiyası ekoloji cinayətkarlığa qarşı qlobal səviyyədə koordinasiyalı fəaliyyətlərin zəruriliyini vurğulamaq baxımından




## İncəsənət fakültəsində COP29-a həsr edilmiş rəsm sərgisi keçirilib

21 noyabr 2024-cü il tarixdə universitetin İncəsənət fakültəsində COP29-a həsr edilmiş rəsm sərgisi keçirilmişdir. Sərgidə universitetin tələbə və müəllimlərinin təbiət və ekologiyanı özündə əks etdirən əl işləri nümayiş olunmuşdur. Sərginin məqsədi ətraf mühitin qorunması və Naxçıvan Muxtar Respublikasının flora və faunasına diqqət çəkməkdən ibarət idi. Sərgi 10 gün müddətində davam edib.







## Universitetin Elmi Kitabxanasında "Yaşıl dünya naminə həmrəylik ili" adlı kitab sərgisi açılıb







## Naxçıvan Dövlət Universitetinin tələbəsi Şəhriyar Quliyevin "Enterprise Azerbaijan"ın Top 5 startapda yer alan "AgroChat" layihəsi maraqla qarşılanıb

Naxçıvan Dövlət Universiteti COP29-da uğurla təmsil olunaraq qlobal ekoloji məsələlərə dair təşəbbüslərini nümayiş etdirib. Tədbir çərçivəsində universitetin tələbəsi Şəhriyar Quliyevin "Enterprise Azerbaijan"ın Top 5 startapı arasında yer alan "AgroChat" layihəsi "Green Zone" hissəsində keçirilən B2B görüşlərdə böyük maraqla qarşılanıb. Süni intellekt dəstəkli torpaq analizi və fermer-aqronom platformasını birləşdirən "AgroChat" layihəsi, dayanıqlılıq və innovativ ekoloji həlləri ilə tədbir iştirakçılarının diqqətini cəlb edib.






Tədbirdə həmçinin NDU-nun rektor köməkçisi Hüseyn Rəsulzadə hibrid formatda iştirak edərək universitetin ekoloji təşəbbüsləri, yaşıl layihələri və beynəlxalq əməkdaşlıqları haqqında ətraflı məlumat verib.

Hüseyn Rəsulzadə çıxışında "Bioçeşidlilik" mövzusuna xüsusi diqqət çəkərək, lokal təcrübələrdən danışıb və bu sahədə görülən işləri təqdim edib. Görüşlərdə universitetin yaşıl vizyonu yüksək qiymətləndirilib, AgroChat layihəsinin inkişafı və davamlılığı ilə bağlı gələcək perspektivlər müzakirə edilib. COP29 çərçivəsində keçirilən bu görüşlərdə universitetin innovativ yanaşmaları, ekoloji problemlərə həssas münasibəti və qlobal əməkdaşlıq təşəbbüsləri bir daha ön plana çıxıb. Bu uğurlu iştirak NDU-nun yalnız lokal səviyyədə deyil, həm də beynəlxalq arenada ekoloji şüurun formalaşmasına verdiyi töhfələrin əyani sübutudur. Universitet, təbiət və texnologiyanı birləşdirən layihələrlə yaşıl dünyanın qurulmasında fəal rol oynadığını bir daha göstərib.

## Memarlıq və mühəndislik fakültəsində "Azərbaycanın yaşıl enerji potensialı" mövzusunda seminar keçirilib

27 may 2024-cü il tarixdə "COP29"-un Azərbaycanda keçirilməsi ilə əlaqədar olaraq, Naxçıvan Dövlət Universiteti Memarlıq və mühəndislik fakültəsində "Azərbaycanın yaşıl enerji potensialı" mövzusunda seminar keşirilmişdir. Seminarı giriş sözü ilə fakültənin dekanı professor Cavanşir Zeynalov açaraq COP29, onun məqsədi və əhəmiyyəti haqqında məlumat vermiş, seminarın işinə uğurlar arzulamışdır. Sonra "Meliorasiya və ekologiya mühəndisliyi" kafedrasının müdiri dosent Cabbar Nəcəfovun "İqlim dəyişikliklərinin mənfi təsirinin azaldılmasında problemlərin peyk görüntüləri vasitəsilə həlli", "Elektroenergetika" kafedrasının müəllimləri Sevinc Novruzovanın "Azərbaycanın alternativ enerji mənbələri" və Gülşən Məmmədovanın "Alternativ enerji mənbələrinin hüquqi çərçivədə inkişafı və onun perspektiv imkanları", "Meliorasiya və ekologiya mühəndisliyi" kafedrasının müəllimi Akim Axundovun "İqlim dəyişikliyinin monito-rinqi və onunla mübarizədə kosmik texnologiyalardan istifadə: Azərbaycan Kosmik Agentliyinin strategiyası", "Elektronika və informasiya texnologiyaları" kafedrasının müəllimləri Səriyyə Qasımovanın "İqlim təsirinin azaldılması üçün ən müasir texnologiyalar", Şəfiqə İmanovanın "İqlim dayanıqlığında yeni texnologiyaların rolu" haqqında məruzələri dinlənilmişdir. Məruzələr ətrafında müzakirələr aparılmış, tələbələrin sualları cavablandırılmışdır. Seminarda, həmçinin Ekologiya mühəndisliyi ixtisasının tələbələri Turan Sadiqli "Neytron aktivləşmə enerjisi ilə havanın ekoloji təyini", Tamara Qurbanova "Peyk görüntüləri vasitəsi ilə iqlim dəyişməsinin kənd təsərrüfatına təsirlərinin öyrənilməsi", Südabə Əsgərova "Peyk görüntüləri vasitəsi ilə iqlim dəyişməsinin ekologiyaya təsirlərinin öyrənilməsi" mövzusunda tədqiqat xarakterli çıxışlar etmişlər.



# Azərbaycanın beynəlxalq miqyasda artan güc və nüfuzunun növbəti təzahürü

Bu gün Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik ölkələrdən biridir. Cənab İlham Əliyevin 2021-ci ilin 2 fevral tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri" əsasında ölkədə bərpaolunan enerji istehsalı siyasətinin strateji təməli də qoyuldu, 5 Milli Prioritetdən biri "təmiz ətraf mühit" və "yaşıl artım"la bağlı sənəd qəbul edildi. Bu isə "yaşıl iqtisadiyyat"a keçidlə bağlı qarşıya yeni hədəflər qoydu. Bu hədəfləri uğurla icra edən Azərbaycan ötən dövrdə ən böyük layihələrə evsahibliyi etdi.




COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərar ölkəmizə növbəti dəfə böyük etimad və inamın göstəricisidir. Dünya birliyinin Azərbaycana göstərdiyi inam və etimad isə Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin nəticəsidir. Ölkəmiz artıq dünyada söz sahibinə çevrilib. Faktlar da təsdiqləyir ki, son 20 ildə dövlətimizin başçısının həyata keçirdiyi müstəqil siyasət nəticəsində Azərbaycanın reytinqi artıb və dünya miqyasında çox güclü mövqelərə sahib olub. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və BMT Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Eyni zamanda son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə ən tutarlı cavabdır.

Bu reallıqdır ki, qələbədən qısa vaxt keçəndən sonra da ölkəmiz beynəlxalq tədbirlərin, eləcə də nüfuzlu idman yarışlarının keçirildiyi məkana çevrildi. Bunun nəticəsidir ki, mötəbər beynəlxalq təşkilatların rəhbərləri öz tədbirlərinin Azərbaycanda keçirilməsini təsadüfən müəyyənləşdirmirlər. Son illər Azərbaycanın dünyada sabit məkan kimi tanınması da buna imkan verir.

24 aprel 2024-cü ildə ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumda Prezident İlham Əliyev dərinməzmunlu çıxışında: "...Biz uğura uğur əlavə edirik və ən azı həm Azərbaycanda, həm də regionda hər kəs anlayır ki, bunlar təsadüfi hadisələr deyil. Bütün bu işlər düşünülmüş siyasətin, strategiyanın, düzgün taktikanın və siyasətimizin, diplomatiyamızın bir sıra digər aspektləri üzərində qurulub... Atdığımız addımların nəticələrinin daha bir nümunəsi sərhədin delimitasiyasıdır. Əlbəttə, iki ölkə, xüsusilə də iki xalq arasında daha çox etimadın artırılması üçün görüləcək işlər çoxdur. Lakin burada əsas məsələ tendensiyanın nədən ibarət olması, hansı istiqamətdə irəliləməyimizdir və söylədiklərimin bariz nümunələri var. COP29-un Azərbaycanda keçirilməsi münaqişənin həll olunmasının və sülh danışıqlarında irəliləyişin nəticəsidir" - deyə əsas reallıqları diqqətə çatdırdı. Dövlət başçısı eyni zamanda COP29-a Azərbaycanın evsahibliyi etməsini ölkəmizin ekoloji problemlərlə ciddi məşğul olmasının, 1994-cü ildən bəri bütün neft əməliyyatlarının, beynəlxalq ətraf mühit mühafizəsi standartlarına əsasən aparılmasının, investorların dünyanın aparıcı şirkətlərinin olması və ətraf mühitə diqqətlə yanaşmanın nəticəsində mümkün olduğunu bəyan etdi.

Beynəlxalq təşkilatlara rəhbərlik etməkdə zəngin təcrübə qazanan Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi müxtəlif vaxtlarda bu quruma iki dəfə sədrlik edib. Qoşulmama Hərəkatının sədri olduğu müddətdə həyata keçirilən tədbirlər qurumun üzv dövlətləri tərəfindən yüksək dəyərləndirilib. Mötəbər tədbirlərə uğurlu evsahibliyi etmək Azərbaycanın beynəlxalq aləmdə olan reytinqini getdikcə artırıb. Bütün bunlar, təbii ki, cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət və diplomatik məharət nəticəsində mümkün olmuşdur. Azərbaycanın iqlim dəyişiklikləri ilə mübarizə prosesinə ciddi töhfə verən ölkə kimi tanınması da onun COP29-a evsahibliyi etmək imkanını daha da gücləndirdi. Azərbaycanın bu sahədə uzun illərdir həyata keçirdiyi ardıcıl siyasət və layihələr, enerji mənbələrinin inkişaf etdirilməsi, o cümlədən külək və günəş enerji sistansiyalarının qurulması baxımından gördüyü böyük işlər bəhrəsini verdi.

### *"Yaşıl enerji"yə keçid əsas hədəf kimi*

Ölkəmizin bu tədbirə ev sahibi kimi seçilməsi həm də onu göstərdi ki, Azərbaycan qlobal səviyyədə iqlim dəyişiklikləri ilə mübarizə aparan dövlət kimi özünü tanıda bilib və beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilib. Tədbirin Azərbaycanda keçirilməsi isə onun bu istiqamətdə daha da tanınmasına və beynəlxalq mövqeyinin möhkəmlənməsinə geniş imkanlar açacaqdır. Azərbaycanın bərpaolunan enerji mənbələrinin inkişafı, "yaşıl enerji"yə keçid və iqlim dəyişiklikləri ilə mübarizədə qarşısına qoyduğu məqsədlər və bu istiqamətdə gördüyü işlər daha böyük qlobal auditoriyanın diqqətinə çatdırılacaq. Azərbaycan 2030-cu ilə qədər elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrinin payını 30 faizə çatdırmağı, əsrin ortasına qədər 1990-cı illə müqayisədə Azərbaycan karbon emissiyasını 40 faizə qədər azaldaraq beynəlxalq istiləşmənin təhlükəli nəticələrindən qorunmaq üçün dünya alimləri tərəfindən müəyyən edilən səviyyəyə endirməyi qarşısına məqsəd qoyub.

Bu gün Azərbaycanın "yaşıl enerji" təchizatçısına çevrilməyi də əsas hədəflərdəndir. Artıq Azərbaycan Gürcüstan, Macarıstan və Rumıniya ilə Qara dənizin dibi ilə sualtı kabel vasitəsilə "yaşıl enerji"nin Avropaya ixracı layihəsini icra etməkdədir. COP29-un Azərbaycanda keçirilməsi də bu prosesin davamıdır və ölkəmizin "yaşıl enerji"yə keçid və bərpaolunan enerji mənbələrinin inkişafı ilə bağlı qarşısına qoyduğu məqsədlərə çatmasında böyük rol oynayacaq.

COP29 beynəlxalq konfransında iştirak etmək üçün təqribən 100 min nəfərə qədər xarici qonağın ölkəmizə səfəri gözlənilir ki, bu da dövlətimizin, xalqımızın növbəti böyük uğuru, Azərbaycanın neft-qaz ölkəsi olmaqla yanaşı, "Yaşıl gündəliyimiz"in də mövcudluğunun dünyaya sübutudur. Ötən illər ərzində xarici tərəfdaşlar və sərmayədarlarla "yaşıl keçid" üzrə nəhəng layihələrə start verilməsi də bunun göstəricisidir.

Bu il 26 aprel tarixində Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində COP29-a ev sahibliyi edəcək ölkənin rəhbəri kimi Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı deyilənləri bir daha təsdiq etdi: "COP29-a evsahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən "yaşıl enerji" sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik. Nəhayət, bu, böyük məsuliyyətdir, çünki biz nəinki yaxşı tədbir təşkil etməli, o cümlədən yaxşı nəticələrə nail olmalıyıq. Hesab edirəm ki, Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla beynəlxalq əlaqələri və onlarda fəal iştirakı bizə müxtəlif qitələrin ölkələri arasında körpülər salmaq və ya onları gücləndirmək, eləcə də onların həmrəyliyini möhkəmləndirmək imkanını yaradacaq".

### *Gözləntilər, hədəflər*

Azərbaycan uzun illər ərzində neft və qaz ehtiyatlarının ixracından əldə etdiyi gəlirləri səmərəli istifadə etməklə öz iqtisadiyyatını inkişaf etdirib və iqtisadi müstəqillik əldə edib. İndi isə bu ehtiyatlar hesabına Azərbaycan qlobal səviyyədə iqlim dəyişiklikləri ilə mübarizəyə töhfə verməklə öz mövqeyini daha da möhkəmləndirə və təsir dairəsini daha da genişləndirə bilər. Bu baxımdan, COP29-un Azərbaycanda keçirilməsi onun bu mövqeyinin möhkəmlənməsi və bu istiqamətdə gördüyü işlərin, əldə etdiyi nəticələrin təbliği baxımından böyük əhəmiyyət daşıyır. Eyni zamanda sessiyanın Bakıda keçirilməsi Azərbaycanda özəl sektorun bu prosesə cəlb edilməsi baxımından da əhəmiyyətli oldu. Bu da azərbaycanlı sahibkarların qlobal səviyyədə dayanıqlı inkişaf məqsədlərinə nail olunmasına şərait yaradacaq. Eyni zamanda onu da nəzərə almaq lazımdır ki, son illərdə Azərbaycanın həyata keçirdiyi iqtisadi siyasətin əsas məqsədlərinə qeyri-neft sektorundan asılılığın azaldılması və enerji təhlükəsizliyinin təmin edilməsi ilə bərpa olunan enerji mənbələrinin rolunun artırılması da aiddir. Bu məqsədlərə nail olmaq üçün Azərbaycan "yaşıl enerji"yə keçidə hazırlaşmaqdadır. COP29 tədbiri həmin keçidin daha səmərəli icrası ilə bağlı strategiyaların və görülməsi zəruri olan tədbirlərin müəyyən edilməsi baxımından faydalı platformadır. Sessiya çərçivəsində dünyanın bu keçidlə bağlı daha çox təcrübəsi olan ölkələri ilə fikir mübadiləsinin aparılması və təcrübələrin bölüşülməsi Azərbaycanın "yaşıl enerji"yə keçid prosesinə öz töhfəsini verəcək.

Azərbaycanın iqlim dəyişiklikləri ilə mübarizə aparmasının və bu məsələyə böyük diqqət ayırmasının göstəricilərindən biri də 2030-cu ilə qədər müəyyən etdiyi beş istiqamətdən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" prioritetinin olmasıdır. Həmçinin Qarabağın sahib olduğu bərpaolunan enerji resursları Azərbaycanın "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" prioritetinin icrasına, qlobal "yaşıl enerji" çağırışlarına cavab verməyə və ətraf mühitin qorunmasına ciddi töhfə verəcək. Bu baxımdan, COP29 həm də işğaldan azad edilmiş ərazilərdə görülən işlər və bu ərazilərin sahib olduğu bərpaolunan enerji mənbələrinin dünya üçün əhəmiyyətinin təbliği baxımından da faydalı platformaya çevriləcək. Cənab İlham Əliyevin fikirləri ilə desək: "COP29-un əhəmiyyəti ondadır ki, biz dünyaya söyləyəcək sözlərimizi, həqiqət hekayəmizi olduğu kimi dünyaya çatdıra biləcəyik. On minlərlə qonağın gəlməsi, iki həftə Azərbaycanda olması imkan verəcək ki, hətta ilk dəfə Azərbaycana gələnlər belə vəziyyəti qiymətləndirmək imkanı əldə etsin, bizim planlarımızın nədən ibarət olduğunu bilsin... COP29 bunun gözəl nümunəsidir".

### *Reallıq*

Bəli, COP iqlim dəyişikliyi ilə mübarizədə vacib olmağı ilə yanaşı, həm də dünyanın ən əhəmiyyətli tədbirlərindən biri oldu. Azərbaycanın bu tədbirə Şərqi Avropa Qrupu ölkələri arasından yekdil qərarla ev sahibi seçilməsi ölkəmizə yüksək etimadın göstəricisi idi. Azərbaycanın qazandığı bütün bu uğurlar Prezident İlham Əliyevin şəxsi nüfuzu, yürütdüyü müdrik və uzaqgörən siyasətin nəticəsidir. Qazanılan uğurlar sayəsində bu gün Azərbaycan beynəlxalq proseslərə istiqamət verən, yeni və uğurlu təşəbbüslərlə çıxış edən, beynəlxalq aləmdə öz sözünü deyən ölkəyə çevrilib. Azərbaycanın artıq beynəlxalq tədbirlərə evsahibliyi etmək sahəsində böyük təcrübəsi var və bu da ölkəmizə yetərincə müsbət imic qazandırıb. Tədbirin Azərbaycanda keçirilməsi ilə bağlı qərar həm də ona görə əhəmiyyətlidir ki, bu, dünya ictimaiyyətinin Azərbaycanın atdığı addımlara dəstəyindən xəbər verir. Bu tədbir Azərbaycanın neft-qaz ölkəsi olmaqla yanaşı, "yaşıl iqtisadiyyat"ı nə dərəcədə prioritet sahə kimi gördüyünü bütün dünyaya sübut etdi.

*Arzu Abdullayev*
*Naxçıvan Dövlət Universitetinin əməkdaşı,*
*tarix üzrə fəlsəfə doktoru*

## QLOBAL İSTİLƏŞMƏNİN TƏBİƏTƏ VƏ İNSAN SAĞLAMLIĞINA TƏSİRLƏRİ

Məlumdur ki, son illər planetimizdə baş verən qlobal istiləşmə, tez-tez müşahidə edilən təbii fəlakətlər, istər təbiətə, istərsə də insan orqanizminə mənfi təsirini göstərməkdədir. Müasir dünyada ekologiya, ətraf mühit və insan münasibətlərində gərginliyin səbəblərinin araşdırılması və aradan qaldırılması insanlığın mühüm vəzifələrindəndir. Bu səbəblərdən müxtəlif dövlətlər arasında aparılan amansız müharibələri, soyqırımları, nüvə və kimyəvi silahlardan istifadə nəticəsində ekologiyaya və insan sağlamlığına dəyən zərərləri də göstərmək lazımdır. Nüvə silahlarının sınaqdan keçirilməsi atmosferə, quru və su mühitinə külli miqdarda ziyan vurmaqla flora və faunanın zənginliyinə xələl gətirir.

Təbiətə dəyən zərərli təsirlərə misal olaraq:
Ekosistemlərdəki dəyişikliklər – istiləşmənin meşə, dəniz və digər təbii mühitlərdəki təsirləri: Qlobal istiləşmə ekosistemlərin təbii balansını pozaraq bitki örtüyündə və heyvan növlərində dəyişikliklərə səbəb olur. Tropiklərdə istiləşmə daha sıx yaşıl örtüyün artmasına səbəb olsa da, Arktikada buzlaqların əriməsi ilə nəticələnir. Bu dəyişikliklərdən təsirlənənlər arasında tundra və boreal meşələr, eləcə də quraq bölgələrdəki bitki örtüyü də var. Həmçinin istiləşmə səbəbindən heyvanlar daha sərin ərazilərə köçməyə başlayır.

Biodiversitetə təsiri – bitki və heyvan növlərinin yox olması riski: Qlobal istiləşmə müxtəlif növlərin həyatda qalmasını çətinləşdirir. Temperatur dəyişikliyi ilə əlaqəli olaraq dənizlərdə oksigen səviyyəsinin azalması balıqların köç etməsinə səbəb olur, bitki və heyvan növlərinin yaşayış mühitləri isə azalır. Təzyiqlər nəticəsində bəzi növlər nəslin kəsilməsi təhlükəsi ilə üz-üzədir, bu isə ekosistemlərin davamlılığı üçün ciddi təhlükə yaradır. İstiləşmə səbəbindən bir çox növ fərqli ərazilərə köç edir və bəzi növlər artıq mühitə uyğunlaşa bilmədiyi üçün nəsli kəsilmə təhlükəsi ilə üzləşir ki, bu da biomüxtəlifliyin zəifləməsinə gətirib çıxarır.

Su hövzələrinə təsir – su çatışmazlığı, çayların və göllərin quruması və s. İqlim dəyişiklikləri su resurslarına da ciddi təsir edir. Daha isti temperatur su dövranında dəyişikliklərə səbəb olaraq çayların, göllərin və hətta yeraltı suların azalmasına səbəb olur. Bunun nəticəsində kənd təsərrüfatı sahələri susuzluq təhlükəsi ilə üzləşir. Əsasən isə dəniz səviyyəsinin yüksəlməsi sahilyanı ərazilərin su altında qalmasına səbəb ola bilər.

İnsan orqanizminə təsirinə gəldikdə isə buraya bir çox zərərli təsirləri misal göstərmək olar: Sağlamlıq problemləri – istilik dalğaları, hava keyfiyyətinin pisləşməsi: İstilik dalğalarının intensivliyi artdıqca, xüsusilə yaşlı insanlar, uşaqlar və zəif immunitetə malik şəxslər yüksək istilik şəraitindən təsirlənir. Bu istilik dalğaları bədənin normal fəaliyyətini pozaraq ürək-damar xəstəlikləri, isti vurma və hətta ölüm riskini artırır. Qlobal istiləşmə ilə bağlı artan istilik və quru hava şəraiti, meşə yanğınlarının sayını artırır ki, bu da atmosferdəki karbon-dioksid və zərərli qazların miqdarını artırır. Nəticədə tənəffüs sistemi xəstəlikləri, allergiya və astma kimi problemlər geniş yayılır.

Xəstəliklərin yayılması - isti hava şəraitində mikrob və virusların artması: İsti iqlim, bakteriya və virusların daha sürətli yayılmasına imkan verir. Məsələn, malyariya kimi xəstəliklərin daşıyıcıları olan həşəratlar daha geniş ərazilərə yayıla bilər. Bu isə xəstəliklərin (ürək-damar xəstəlikləri, tənəffüs sistemi problemləri) insanlar arasında daha tez və geniş şəkildə yayılmasına səbəb olur.

Psixoloji təsirlər – stres, depressiya və s.: Qlobal istiləşmənin yaratdığı stres və adaptasiya problemləri psixoloji təsirlər yaradır. Bu təsirlər insanlar arasında depressiya, qayğı və adaptasiya çətinliklərinə səbəb ola bilər.

İndi aktual problem olan qlobal istiləşmə və iqlim dəyişikliyi ilə mübarizə yollarının beynəlxalq səviyyədə həlli zərurət halını almışdır. Enerji səmərəliliyi, təmiz texnologiyalar, iqlim dəyişikliklərinə adaptasiya yollarının axtarılıb tapılmaması böyük fəlakətlərə gətirib çıxara bilər. Bəs “Qlobal istilik” deyəndə nə başa düşülməlidir?

Qlobal istiləşmə atmosferdəki istilik tutucu qazların (əsasən karbon-dioksid, metan və azot oksidi) artması nəticəsində Yer kürəsinin səth temperaturunun qalxması fenomenidir. Bu qazlar atmosferə buraxıldıqdan sonra istilik radiasiyasını tutaraq “istixana effekti” yaradır və nəticədə qlobal temperaturun artmasına səbəb olur. Əsas faktorlar insan fəaliyyəti, xüsusilə sənaye, nəqliyyat və enerji istehsalıdır. Bu istiləşmə dünya üzrə ekosistemlərdə, su dövranında, hava şəraitində və insan sağlamlığında ciddi dəyişikliklərə gətirib çıxarır.

Son illərdə müxtəlif ölkələrdə iqlim dəyişikliyi ilə bağlı yaşanmış fəlakətlərə nəzər salaq:

2021-ci ilin iyun ayında ABŞ-ın qərb sahillərində rekord dərəcədə yüksək temperatur qeydə alındı. Vaşinqton ştatının Sietl şəhərində temperatur 42°C, Oregon ştatının Portlend şəhərində isə 47°C-yə çatdı. Bu istilik dalğası nəticəsində təxminən 600 insan həyatını itirdi. İqlim dəyişikliyi bu cür ekstremal istilik dalğalarının tezliyini və şiddətini artıraraq bölgələrdəki yaşanmaz mühitə səbəb olur.

2019-2020-ci illərdə Avstraliyada baş verən genişmiqyaslı meşə yanğınları "Qara Yay" olaraq xatırlanır. Bu yanğınlarda təxminən 12 milyon hektar ərazi yandı, 3 milyarddan çox heyvan məhv oldu və ya məskunlaşma yerlərini tərk etməli oldu. Yanğınların çox hissəsi yüksək temperatur və uzunmüddətli quraqlıq nəticəsində baş verdi. İqlim dəyişikliyi ilə artan istilik və quraqlıq Avstraliyada meşə yanğınlarının daha da artmasına səbəb olur.

2022-ci ildə Pakistanda güclü yağışlar və daşqınlar ölkənin təxminən üçdə birini su altında qoydu. Daşqınlar 1700-dən çox insanın ölümünə, 2 milyondan çox evin dağılmasına səbəb oldu və ölkəyə təxminən 30 milyard dollar dəyərində ziyan vurdu. Ekspertlər bildirirlər ki, belə ekstremal hava hadisələri iqlim dəyişikliyinin təsirindən güclənib.

Afrikada Sahel bölgəsi (Niger, Mali, Çad və s.) quraqlıq səbəbindən ciddi ərzaq təhlükəsizliyi ilə üzüzə qalıb. 2012-ci ildən etibarən bu bölgədə ekstremal istilik və azalan yağışlar kənd təsərrüfatına zərbə vurub, milyonlarla insanın aclıqla qarşılaşmasına səbəb olub. Bu hadisələr nəticəsində 5 milyondan çox insan ərzaq yardımlarına möhtac vəziyyətə gəlib.

2019-cu ildə İslandiya "Okjokull" adlı buzlağın tamamilə əriməsini rəsmi şəkildə elan etdi. Bu, iqlim dəyişikliyi səbəbindən yox olan ilk buzlaq kimi tarixə keçdi. İslandiya hökuməti və elm adamları bu hadisəni iqlim dəyişikliyinin ciddi nəticələrini simvollaşdırmaq üçün xüsusi mərasimlə qeyd etdilər və "Buzlaq abidəsi" qoydular.

2020-ci ilin may ayında Hindistan və Banqladeş sahillərinə yaxınlaşan Amfan siklonu bölgəyə çox böyük ziyan vurdu. Siklon nəticəsində 4,5 milyondan çox insan evlərini tərk etmək məcburiyyətində qaldı və ölkə təxminən 13 milyard dollar maddi ziyanla üzləşdi. İqlim dəyişikliyi tropik siklonların intensivliyini artırır və bu cür ekstremal hava hadisələri Cənubi Asiya bölgəsi üçün daha təhlükəli olur.

Rusiyanın Sibir bölgəsində 2020-ci ildə rekord istilik dalğası baş verdi. İyun ayında Sibir şəhəri olan Verxoyanskda 38°C temperatur qeydə alındı. Bu, Arktikada qeydə alınan ən yüksək temperaturdur. Həmçinin bölgədəki meşə yanğınları 20 milyon hektar ərazini külə çevirdi. Bu hadisə iqlim dəyişikliyinin Arktika və onun ekosistemləri üzərində təsirinin gücləndiyini göstərir.

Maldiv adaları dəniz səviyyəsinin yüksəlməsi səbəbindən su altında qalmaq təhlükəsi ilə üzüzədir. Bu adalar okean səviyyəsinin hər il artması ilə bağlı olaraq XXI əsrin sonlarına qədər tamamilə yox olma riski altındadır. Dəniz səviyyəsinin yüksəlməsi Maldiv hökumətini başqa ölkələrə əhali köçürmə planlarını düşünməyə məcbur edib.

Bu faktlar və hadisələr, iqlim dəyişikliyinin təsirlərinin qlobal miqyasda nə qədər müxtəlif və ciddi olduğunu göstərir. Hər ölkə və bölgə iqlim dəyişikliyinə fərqli təsir göstərir və bu təsirlərin uzunmüddətli nəticələri də qaçınılmazdır.

İqlim dəyişikliyi və qlobal istilik problemlərinin həlli üçün bir neçə əsas amilə diqqət yetirilməlidir: Yenilənə bilən enerji mənbələrindən – Günəş, külək, hidroelektrik və biokütlə enerji mənbələrinin istifadəsi artırılmalıdır. Bu enerji növləri, fosil yanacaqlara nisbətən daha az karbon emissiyası yaradır. Enerji istehsalı və istehlakında səmərəli texnologiyaların tətbiqi, enerji israfını azaltmağa kömək edir. Karbon emissiyalarının azaldılmasına da fikir verilməlidir.

İctimaiyyəti iqlim dəyişikliyi ilə bağlı məlumatlandırmaq, insanların bu mövzuda daha aktiv və məsuliyyətli olmalarına kömək edir. Beynəlxalq əməkdaşlıq bu problemin həllində mühüm rol oynayır. Paris Sazişi kimi beynəlxalq razılaşmaların tətbiqi və qüvvədə saxlanılması, qlobal səviyyədə iqlim dəyişikliyi ilə mübarizədə əhəmiyyətlidir. İnkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliklərinə uyğunlaşma və mitiqasiya üçün maliyyə resurslarının təmin edilməsinə gəlincə isə meşələrin, su hövzələrinin və bioloji müxtəlifliyin qorunması iqlim dəyişikliklərinin təsirlərini azaltmaqda vacibdir. Zədələnmiş ekosistemlərin bərpası, karbon udulmasını artırır və ekosistem xidmətlərini bərpa edir. Cəmiyyətin iqlim dəyişikliyi ilə mübarizəyə cəlb edilməsi, yerli və regional səviyyələrdə təsirli təşəbbüslərin ortaya çıxmasına səbəb ola bilər. İctimaiyyətin daha dayanıqlı istehlak vərdişlərinə yönəldilməsi, resursların daha səmərəli istifadəsinə gətirib çıxarır. Bu amillərin birgə tətbiqi, iqlim dəyişikliyi və qlobal istilik problemlərinin həlli üçün əsasdır.

Hələlik insanın planentimizdən başqa gedəcək yeri yoxdur, təbiətə vurduğumuz zərərlər isə bizə təbii fəlakətlər şəklində qayıdır. Dünyamızın qorunması hər bir fərddən başlayır. Təbiəti qoruyaq ki, sığınmağa yerimiz olsun!!!

***Zərövşən Babayeva***
**“Biologiya” kafedrasının dosenti,**
**pedaqogika üzrə elmlər doktoru**

## COP29 -UN AZƏRBAYCAN ÜÇÜN SİYASİ, İQTİSADİ VƏ EKOLOJİ ƏHƏMİYYƏTİ

**Hər bir xalqın tarixində baş verən ictimai-siyasi hadisələr, keçirilən tədbirlər öz tarixi və siyasi əhəmiyyəti ilə yaddaşlarda özünəməxsus iz buraxır. Bu kontekstdə Azərbaycan xalqı ərazi bütövlüyünü və suverenliyini tam təmin etdikdən sonra ölkənin beynəlxalq arenada nüfuzunun əhəmiyyətli dərəcədə artması ilə fərqlənir. Ötən il Azərbaycan dünyanın diqqətini çəkərək COP29 kimi mühüm bir beynəlxalq tədbirə ev sahibliyi etdi. Bu həm ölkəmizin dünyada daha da tanınmasına, həm də böyük siyasi, iqtisadi və ekoloji əhəmiyyət daşımasına xidmət etdi. Bu, eyni zamanda BMT və dünya birliyinin Azərbaycana olan böyük etimadının göstəricisidir.**

**Bəşəriyyət üçün taleyüklü məsələlərin müzakirə olunduğu bu sabit və tolerant məkan - doğma Azərbaycanımız - multikultural dəyərləri ilə dünyaya bir daha özünü tanıtdırdı. 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer sammiti dünyanın ətraf mühitə münasibətində dönüş nöqtəsi oldu. Bu mühüm tədbirdə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası imzalandı. Sənədin əsas məqsədi bəşəriyyətin iqlim sisteminə təhlükəli müdaxilələrin qarşısını almaq idi. Beləliklə, dünya dövlətləri təcili tədbirlərin görülməli olduğunu anladı. Bu konvensiya qısaca COP adlanır, “Conference of Parties” ifadəsinin baş hərflərinin birləşməsindən yaranan bir termindir. Azərbaycan dilinə “Tərəflərin konfransı” kimi tərcümə edilən COP tədbirləri 1995-ci ildən bəri hər il keçirilir. İlk belə konfrans1995-ci ilin mart ayında Almaniyanın paytaxtı Berlində baş tutub. O vaxtdan etibarən hər ilin müəyyən bir ayında dünya liderləri və ekoloji məsələlər üzrə ekspertlər bir araya gəlir.**

**COP tədbirlərinin əsas məqsədi qlobal iqlim böhranı, su qıtlığı və digər təcili ekoloji problemləri müzakirə etmək, bu problemlərin həlli üçün real və təsirli strategiyalar hazırlamaqdır. Bütün bu görüşlər zamanı liderlər gələcək nəsilləri qorumaq məqsədilə müxtəlif layihələr və razılaşmalar üzərində işləyir, ətraf mühitin davamlı şəkildə qorunmasını təmin etmək üçün mühüm qərarlar qəbul edirlər. İllər keçdikcə COP tədbirləri dünya səviyyəsində ətraf mühit siyasətinin formalaşmasında əhəmiyyətli rol oynadı. Hər il toplanan dünya dövlətləri arasında iqlim dəyişikliyi ilə mübarizədə öhdəliklər daha da konkretləşdi. Bu konfransların gedişatında, bəşəriyyətin gələcəyini təhdid edən iqlim dəyişikliyi kimi qlobal problemlərə qarşı mübarizədə beynəlxalq əməkdaşlıq zərurəti daha aydın şəkildə ortaya çıxdı. Bu mühüm tədbirin Azərbaycanda keçirilməsi Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasətinin beynəlxalq aləmdə yüksək qiymətləndirilməsinin bariz göstəricisidir. Azərbaycanın dünya siyasətində öz sözünü deməsi, sabitlik və inkişaf yolunda atdığı ardıcıl addımlar ölkəmizin artan nüfuzunun göstəricisidir.**

**COP29 konfransı Azərbaycanın yalnız zəngin mədəni irsini və unikal təbii gözəlliklərini deyil, həm də ekoloji dayanıqlıq və yaşıl texnologiyalar sahəsində gördüyü işi dünya ictimaiyyətinə təqdim etmək imkanı yaratdı. Ölkəmiz qlobal ekoloji problemlərin həlli üçün göstərdiyi səyləri nümayiş etdirək, bəşəriyyətin gələcəyi üçün müasir və səmərəli həll yolları təklif etdi.**

***İlhamə Məmmədova***
***“İngilis dili və tərcümə” kafedrasının dosenti,***
***filologiya üzrə fəlsəfə doktoru***

## Araz çayının çirkləndirilməsinin qarşısının alınmasında beynəlxalq hüququn rolu artırılmalıdır

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası qonşu Ermənistan tərəfindən bu gün də ekoloji təsirlərə məruz qalır. Bu ekoloji təhdidlərin əsasında isə Araz çayının Ermənistan tərəfindən çirkləndirilməsi xüsusilə diqqət çəkir. Təsadüfi deyil ki, artıq illərdir ki, Araz çayı Ermənistan ərazisində həm kimyəvi sənaye qalıqlarının tullantılarına məruz qalır. Eyni zamanda "Metsamor" AES-in soyudulmasında da bu çayın suyundan istifadə edilərək çirklənmiş su sonra yenidən çaya axıdılır. Çayın bu cür çirkləndirilməsi Ermənistanın özü ilə bərabər, Araz çayının axdığı digər ölkələrin də ekologiyasını ciddi təhdid edir.



Məlumdur ki, Araz çayı öz başlanğıcını qardaş Türkiyə Respublikasının Bingöl dağlarından götürür və Naxçıvan Muxtar Respublikasının İranla, Naxçıvandan sonra isə Ermənistanla sərhədinə çevrilir, sonra Azərbaycan Respublikasının ərazisinə daxil olana qədər İranın Azərbaycan Respublikası ilə sərhədi boyunca axır və nəhayət, Xəzər dənizinə tökülmək üçün Suqovuşanda Kür çayına qoşulur. Suyu zəhərlənmiş Araz çayı, eyni zamanda töküldüyü Xəzər dənizinə də mənfi təsir edir. Beləliklə, Xəzər sahilində yerləşən ölkələrə də öz mənfi təsirini göstərir. Digər tərəfdən Türkiyə, Azərbaycan Respublikası və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası, Ermənistan və İran respublikaları bu çaydan bəhrələnirlər və bu çayın ekoloji təmizliyinin mühafizəsində bu ölkələrin hər biri məsuliyyət daşıyır. Lakin təəssüflər olsun ki, bu ölkələr arasında Araz çayının mühafizəsi ilə bağlı əməkdaşlıq müqaviləsi hələ də yoxdur.

Hazırda Araz çayının suyundan 4 ölkə istifadə edir və dünyadakı su problemini nəzərə alsaq, Araz çayının çirklənməsi və bu sərhəd çayının istifadəyə yararsızlığı gələcəkdə daha kəskin vəziyyətə gətirib çıxara bilər. Bu gün mütəxəssislər də həyəcan təbili çalırlar ki, ermənilər Araz çayını ekoloji fəlakətin qurbanına çeviriblər. Çay Ermənistanın dağ-mədən sənayesi müəssisələrinin kollektoruna çevrilib. Araşdırmalar göstərir ki, hər il Ermənistan ərazisindən keçən 350 milyon kubmetr su kimyəvi, radioaktiv maddələrlə və ağır metallarla çirkləndirilir. Gümrüdən Sədərəyə qədər götürülmüş nümunələrə əsasən Araz çayındakı ekoloji göstəricilər dünyada təyin olunmuş normalardan dəfələrlə artıqdır. Bu çaya atılan ağır metalların, fenolların, ağır fosfor duzlarının və radioaktiv tullantıların miqdarı normalardan dəfələrlə çoxdur.

2022-ci ildə "Research Journal of Border Studies" jurnalı özünün dördüncü sayında bu məsələyə toxunaraq "İçməli suyun çirklənməsi nəticəsində sərhədyanı ərazilərdəki sakinlərinin əksəriyyətində xəstəliklərin sayı artmaqdadır" yazmışdır. Və yaxud "Xalq qəzeti"nin 17 iyul 2024-cü il tarixli sayında dərc olunmuş "Ermənistanın ekoloji terroru davam edir" adlı yazıda türkiyəli jurnalistlər həyəcan təbili çalaraq bildirirlər ki, İğdıra 16 km, Naxçıvan Muxtar Respublikasına isə 50 km məsafədə yerləşən "Metsamor" AES-in fəsadları sərhəd bölgələrinə yaxın ərazilərə öz mənfi təsirlərini göstərməkdə davam edir. Yazıda qeyd olunur ki, son illərdə İğdır vilayətində hamilə qadınlarda rast gəlinən bir çox xəstəliklər, eləcə də heyvanlar arasında geniş yayılmış anormal doğuş hallarının (iki və üçayaqlı doğulan heyvanlar) sayı xeyli artıb. Eyni zamanda tərəvəz və bostançılıq məhsullarında da müxtəlif xəstəliklərin geniş yayılması "Metsamor" AES tərəfindən havanın və su mənbələrinin çirklənməsinin nəticəsi kimi qəbul edilir. Atom Elektrik Stansiyasının soyutma sistemində Araz çayının suyundan istifadə olunaraq sonra yenidən həmin suyun Araza axıdılması təbii ki, öz mənfi təsirlərini göstərməkdədir. Bütün bunlar isə nəinki yaxın bölgələrdə məhsuldarlığı dəfələrlə aşağı salır, qeyd etdiyimiz kimi, əhali arasında onkoloji xəstəliklərin artmasına da səbəb olur.

Qeyd edək ki, Ermənistandakı "Metsamor" AES 1970-ci illərdə sovetlər birliyi tərəfindən İrəvanın 36 kilometrliyindəki Metsamor məntəqəsində tikilib və vaxtilə partlamış Çernobıl Elektrik Stansiyasının modelindədir. 7 dekabr 1988-ci ildə Ermənistanda 6,8 bal gücündə güclü zəlzələ baş verəndə "Metsamor" da zədələndi və o vaxtdan radioaktiv maddələr sızmağa başladı, lakin elektrik stansiyası cəmi 6 həftə təmirə bağland. Ermənistan "Metsamor" AES-in yeniləndiyini iddia etsə də, Avropa Birliyi bu elektrik stansiyasını çox təhlükəli adlandırıb və onu bağlamaq istəyir, xüsusən də bu elektrik stansiyası dünyanın ən böyük zəlzələ qırağı olan "Alpa" qırağı üzərində tikilib. Atom elektrik stansiyalarının sənaye müddəti 30 il hesab edilir, lakin "Metsamor" Atom Elektrik Stansiyası 50 ildən artıqdır ki, işləyir və etibarlı nəşrlərə görə, 2036-cı ilə qədər fəaliyyətini davam etdirməsi nəzərdə tutulur.

"Border Studies Research Paper" jurnalı ("Sərhəd Araşdırmaları") yazır ki, Ermənistanın sərhədyanı Əkərək şəhərinin şimalında və şərqində, Araz çayının yatağından 5,2 kilometr aralıda 5 mis və molibden mədəni yerləşir. Bu mədənlərdən hər il milyonlarla kubmetr zəhərli tullantılar çaya axıdılır. Nəticədə çay suyunda kimyəvi çirkləndiricilərin və ağır metalların konsentrasiyası artır. Köhnəlmiş və qeyri-standart "Metsamor" AES-in hissələrinin istismar müddətinin bitməsi səbəbindən radioaktiv materialların Araz çayına sızması regional və beynəlxalq ekspertlər və Avropa İttifaqı tərəfindən təsdiqlənib. Bütün beynəlxalq araşdırmalar göstərir ki, Araz çayında iki növ güclü çirklənmə var. Biri köhnəlmiş "Metsamor" AES-dən sızan radioaktiv materiallardan, digəri isə ağır metallardan qaynaqlanır. Onlar, əsasən, Ermənistanın mis, qızıl və alüminium mədənlərindən və Ermənistanın sərhəd sənaye şəhərinin, yəni Əkərək (Aqarak) şəhərinin sənaye müəssisələrindən Araz çayına axır.

Ermənistanın Araz çayının çirkləndirməsi məsələsi daim bölgə dövlətləri tərəfindən gündəliyə çıxarılır. Bu məsələ Azərbaycan tərəfindən dəfələrlə beynəlxalq təşkilatların diqqətinə çatdırılsa da, indiyədək buna qarşı heç bir tədbir görülməyib. Hətta bu ilin mart ayında bizim vətəndaş cəmiyyətinin üzvləri Brüsseldə keçirilən Nüvə Enerjisi Sammitinin həmsədrlərinə də bununla bağlı məktub yazaraq stansiyanın fəaliyyətinin dayandırılması üçün Ermənistan hökuməti qarşısında məsələ qaldırmağa çağırmışdı.

Bunu da əlavə edək ki, Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Monitorinq Departamentinin məlumatına əsasən Mehri, Qacaran, Qafan və Dəstəkert dağ-mədən kombinatlarının yüz min tonlarla qatı turş suları, ağır metal duzları və başqa tullantıları da Arazın qolu olan Oxçuçaya axıdılır. Ayrı-ayrı vaxtlarda suyun tərkibində misin miqdarı normadan 25-50 dəfə, fenolların miqdarı isə mütəmadi olaraq normadan 6-15 dəfə artıq olmuşdur. Mütəxəssislər qeyd edirlər ki, "Metsomor" AES-in fəaliyyəti nəticəsində hər sutka ərzində Araz çayına 12-16 min kubmetr radioaktiv tullantı axıdılır. Bu isə çayın suyunun Azərbaycan ərazisində həm içməli, həm də suvarma mənbəyi kimi istifadəsini təhlükə altına salır.

2021-ci ilin əvvəlində Avropa Komissiyası Ermənistanla tərəfdaşlıq sazişinin 2020-ci ildə icra olunmasına dair hesabatında qeyd edib ki, "Metsamor" AES quruluşuna görə nüvə təhlükəsizliyinə dair beynəlxalq standartlara uyğun yenidən qurula bilmədiyinə görə ən tez bir vaxtda bağlanılmalıdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu barədə Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "İqlim və enerji təhlükəsizliyi. İstiləşmə hələ də davam edirmi?" mövzusunda keçirilən panel-müzakirə zamanı demişdir: "Bizim üçün əsas təhlükə ondan ibarətdir ki, bizi su ilə təchiz edən əsas çaylarımız mənbəyini qonşu ölkələrdən götürür və xüsusilə Ermənistanda Araz çayının çox ciddi çirklənməsi müşahidə olunur. Bu da bizim hamımız üçün təhlükədir. Çayın çirklənməsinin dayandırılması ilə bağlı etdiyimiz bütün müraciətlərimizə baxmayaraq, əfsuslar olsun ki, Ermənistan bu siyasəti davam etdirir".

AMEA-nın Radiasiya Problemləri İnstitutunun əməkdaşları tərəfindən 2015-ci ildə beynəlxalq layihə çərçivəsində (UETM) təbii fəlakət nəticəsində daşqınlara məruz qalmış və əkin üçün istifadə olunan İmişli və Saatlı rayonunun ərazilərində yetişdirilən və əhali tərəfindən istifadə olunan kənd təsərrüfatı bitkiləri ekogenetik tədqiq olunmuşdur. Tədqiqatların nəticəsində Araz boyu yerləşən bəzi kəndlərdə torpağın və suyun fiziki-kimyəvi analizləri aparılmışdır. Bu analizlərin nəticəsində torpaq və bəzi kənd təsərrüfatı bitkilərində çirklənmə dərəcəsi müəyyən olunmuşdur. Tədqiqatların aparıldığı bəzi kəndlərdə yerli əhali ilə söhbətlərdən məlum olmuşdur ki, bu kəndlərdə son illər bir çox xəstəliklərin, o cümlədən mədə-bağırsaq, ürək-damar, xərçəng və sair xəstəliklərin artması müşahidə olunur. Bu baxımdan Araz çayının suyunun həm suvarma, həm də içməli su kimi istifadə olunmasının əhalinin sağlamlığına təsirinin araşdırılması, statistik məlumatların toplanılıb analiz olunması və mübarizə tədbirlərinin aparılması bu günün aktual problemi hesab oluna bilər.

Azərbaycan Respublikasının 14 mart 2000-ci il tarixdə qoşulduğu "Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi üzrə Konvensiya"da (Helsinkidə 17 mart 1992-ci ildə icra edilmişdir) qeyd olunur ki, bu Konvensiyanın tərəfləri sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsini təxirəsalınmaz və vacib vəzifə hesab edir.

Konvensiyanın digər müddəalarında da tərəflərin bununla bağlı məsuliyyəti, ortaya çıxan fəsadların aradan qaldırılması üçün birgə fəaliyyətin göstərilməsi yollarından bəhs edilir. Bütün bunları nəzərə alaraq bu gün regionumuz üçün böyük təhlükə ocağının istismar müddətinin uzadılmasına etiraz edərək region dövlətlərini, xalqlarını, beynəlxalq təşkilatları, dünya dövlətlərini gələcəkdə baş verə biləcək ağır faciənin qarşısını almaq üçün indidən vahid və rasional mövqe və qətiyyət nümayiş etdirməyə çağırırıq.

Sonda bunu da qeyd edək ki, Azərbaycan Respublikası 2006-cı il tarixdə "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasına qoşulub. Arazın çirklənməsindən ən böyük zərəri Azərbaycan Respublikası, qonşu İran İslam Respublikası və Xəzər dənizi hövzəsi dövlətləri görür. Düşünürük ki, Araz çayını xilas etmək üçün çayın keçdiyi ölkələr və Xəzər dənizi hövzəsi dövlətləri Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Departamenti və Ümumdünya Səhiyyə Təşkilatının nəzarəti altında "Beynəlxalq Araz Konvensiyası" hazırlamaları daha məqsədəuyğun olardı. Bu həm də zamanın tələbidir.

**Faiq Səfərov**
**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri, prokurorluğun fəxri işçisi**

## COP29: AZƏRBAYCANDA KEÇİRİLƏN BEYNƏLXALQ İQLİM DƏYİŞİKLİYİ KONFRANSININ ƏHƏMİYYƏTİ

2024-cü ilin noyabr ayında Bakı şəhəri, iqlim dəyişikliyi ilə mübarizə və ətraf mühitin qorunması istiqamətində dünyanın ən böyük beynəlxalq tədbirlərindən birinə ev sahibliyi etdi. COP29 Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi Konfransı çərçivəsində, dünya ölkələrinin hökumətləri, biznes sektoru, qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyəti nümayəndələrinin qatıldığı əhəmiyyətli bir toplantı oldu.

Bu tədbir Azərbaycanın qlobal iqlim siyasətindəki mövqeyini daha da gücləndirdi və ölkənin regional və beynəlxalq arenada ətraf mühitin qorunmasına dair strateji rolunu ortaya qoydu. Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizə üzrə gördüyü tədbirlər və Paris Sazişinə bağlılıq, ölkənin yaşıl enerji və davamlı inkişaf sahəsindəki müsbət addımlarını əks etdirir.

Konfransda Azərbaycanın qazandığı təcrübə və inkişaf etdiyi iqlim dəyişikliklərinə qarşı mübarizə sahəsindəki strategiyalar dünya ölkələri ilə paylaşıldı. Həmçinin Azərbaycanın 2030-cu ilədək karbon emissiyalarının azaldılmasına dair qəbul etdiyi öhdəliklər diqqət mərkəzində oldu.

Konfransda, dünya ölkələrinin iqlim dəyişikliyinə qarşı tədbirlərini daha da sürətləndirməsi, yaşıl enerji mənbələrinin və karbonun təmizlənməsi texnologiyalarının inkişafı kimi əsas mövzular müzakirə olundu. Tərəflər Paris Sazişi çərçivəsindəki məqsədlərə çatmaq üçün daha konkret tədbirlərin həyata keçirilməsi üçün ortaq addımlar atmağa razılaşdılar.

Yaşıl iqtisadiyyat, yenilənən enerji mənbələrinin artırılması, enerji səmərəliliyi, sosial və iqtisadi ədalət, maliyyə dəstəyi və beynəlxalq əməkdaşlıq kimi məsələlər konfransda xüsusi yer aldı. Azərbaycanda keçirilən COP29 qlobal iqlim məsələlərinə dair daha geniş və genişmiqyaslı bir müzakirə platforması yaradılmasına şərait verdi.

COP29-da dünya ölkələri bir araya gələrək iqlim dəyişikliyinin təsirlərini azaltmaq üçün daha konkret fəaliyyət planları qəbul etdilər. İqlim hədəflərinin sürətləndirilməsi, iqtisadi modellərin ekoloji davamlılıqla uyğunlaşdırılması və inkişaf etməkdə olan ölkələrə daha çox maliyyə və texnoloji dəstəyin göstərilməsi məsələləri əsas müzakirə mövzularından biri oldu.

Azərbaycanda keçirilən COP29, ölkənin yaşıl enerji sektorunu gücləndirmək, yenilənən enerji sahəsindəki təşəbbüsləri artırmaq və dünya ölkələri ilə bu istiqamətdə daha sıx əməkdaşlıq etmək üçün yeni imkanlar yaratdı.

Bu cür mühüm beynəlxalq tədbirin Azərbaycanda keçirilməsi, ölkənin iqlim dəyişikliyi və ətraf mühitin qorunması sahəsindəki imicini möhkəmləndirdi və dünya iqtisadiyyatına inteqrasiya baxımından yeni fürsətlər açdı. Azərbaycanın yeni iqtisadi modellər və yaşıl texnologiyaların inkişafına yönəlmiş addımları, gələcəkdə bu sahədə beynəlxalq bazarlarda mövqeyini gücləndirəcək.

Bakı şəhərində keçirilən COP29 yalnız Azərbaycan üçün deyil, bütün dünyada iqlim dəyişikliyinə qarşı mübarizənin intensivləşdirilməsində yeni bir mərhələnin başlanğıcı oldu. Bu tədbir həm də Azərbaycanın ətraf mühitin qorunması və yaşıl iqtisadiyyat sahəsindəki öhdəliklərini bir daha dünyaya tanıtdı. COP29-un yekun nəticələri, iqlim dəyişikliyinin təsirlərini azaltmaq və daha davamlı bir gələcək qurmaq üçün qlobal səviyyədə əməkdaşlığın vacibliyini bir daha ortaya qoydu.

**Şəhla Şirəliyeva**
**"Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedrasının müdiri**

# Yaşıllıqların insanların psixoloji sağlamlığına təsiri məsələləri

İndi bütün dünyada, o cümlədən ölkəmizdə insanların psixoloji sağlamlığının təmin edilməsi qarşıda duran ən aktual problemlərdəndir. Çünki hər bir cəmiyyətin ümumi sağlamlığı və sabitliyi onun hər bir fərdinin psixi sağlamlığından asılıdır. Müasir dövrdə psixi pozğunluqlar və onların səbəbləri araşdırılaraq reabilitasiyası məsələləri daha geniş tədqiqata cəlb edilir. Bu mənada psixi sağlamlığın qorunması və davamlılığını təmin edən amillərin öyrənilməsi daha əhəmiyyətlidir. Çünki psixi pozuntular psixi sağlamlığın itirilməsindən sonra başlayır. Hər bir insanın formalaşması və psixi sağlamlığının qorunmasında isə bir sıra amillər rol oynayır ki, bunlardan biri də onun yaşadığı mühit, həmin mühitin ekoloji təmizliyi və insan sağlamlığına təsir imkanlarıdır. Şəxsiyyətin psixoloji sağlamlığının təmin olunmasına təsir edən təbii amillər içərisində yaşıllaşdırma işləri xüsusilə mühüm əhəmiyyət kəsb edir.

Təsadüfi deyil ki, hər il Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP) keçirilir və bütün dünyaya iqlim dəyişikliyinin əsas səbəblərindən biri olan yaşıllıqların qorunması və artırılması mesajını verir. Bu il Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransına ekoloji mühitin və yaşıllıqların qorunmasında dünyaya nümunə olan ölkəmiz ev sahibliyi etdi.

Ekoloji tarazlığın qorunması və yaşıllıqların artırılması istiqamətində ölkəmizin hər yerində, o cümlədən muxtar respublikamızda fasiləsiz olaraq mühüm işlər həyata keçirilir. Bu işlərin nəticəsi sakinlərin psixoloji sağlamlığına olduqca müsbət təsir edir.

Psixi sağlamlıq insanın psixi durumu, onun davranışlarının tənzimlənməsi, eyni zamanda sosial və bioloji amillərin təsiri əsasında xarakterinin düzgün formalaşması ilə xarakterizə olunur. Psixi sağlamlıq insanın özünə və ətrafdakı insanlara, bütün həyatı boyu müxtəlif hadisələrə, sosial və iqtisadi çətinliklərə qarşı olan münasibətində özünü büruzə verir. Müasir dövrdə insanların psixoloji sağlamlığının öyrənilməsi və qorunması şəxsiyyətlərarası münasibətlərin tənzimlənməsində ən mühüm amillərdən biri kimi qəbul edilir.

Psixikanın təbii qanunauyğunluğu deməyə əsas verir ki, insanın psixoloji vəziyyəti normal halda tarazlıqda olur. Lakin insanın psixikası, yaxud şəxsiyyəti, fəaliyyəti və davranışı heç də həmişə normal vəziyyətdə olmur. Bu və ya digər səbəblərdən tarazlıq pozulur. Hələ qədim dövrlərdən psixoloji tarazlığın pozulması psixoloji gərginlik yaradan səbəblərdən biri kimi insanlara bəlli olub. Hind, çin, misir, türk mənbələrində bu barədə geniş bəhs olunur. Həmin mənbələrdə psixoloji vəziyyətin dəyişməsi "həyat gücü"nün azalması kimi izah edilir.

Qədim mənbələrin araşdırmalarından da bəlli olur ki, insanların psixoloji sağlamlığı və bu sağlamlığın əhəmiyyəti məsələsi bütün dövrlərdə aktuallıq kəsb edən problemlərdən olmuşdur.

Psixoloji sağlamlığın itirilməsi ümumilikdə hər bir



şəxsiyyətin istər sosial, istərsə də ekoloji münasibətlərinin formalaşması və tənzimlənməsi prosesinin həyata keçirilməsini çətinləşdirir.

Klassik ekologiya nümayəndələri Robert Park, Ernest Burges ilk dəfə olaraq elmə insan ekologiyası anlayışını gətirmişlər. İnsan ekologiyası bəlli bir ərazidə yaşayan insanların və müəssisələrin mənfi təsirini və bu mənfi təsirə səbəb olan amilləri öyrənən bir elmi istiqamət üzrə yaranmışdır.

İstər psixi sağlamlıq və onun formalaşmasına təsir edən amillərin öyrənilməsi, istərsə də insan ekologiyası və yaşıllıqların insan həyatındakı rolu istiqamətində aparılan tədqiqatların araşdırılması bizə bunu deməyə əsas verir ki, şəxsiyyətin psixoloji sağlamlığı məsələsi və yaşıllıqların əhəmiyyətinin tədqiqi müxtəlif dövrlərdə elmi tədqiqatçıların tədqiqat obyekti olmuş və araşdırılmışdır. Çoxlarını belə bir sual düşündürə bilər ki, yaşıllaşdırma işlərinin insanın psixoloji sağlamlığı ilə nə əlaqəsi var?

Fizika elmindən məlumdur ki, təsir əks təsirə bərabərdir. Bu mənada insanlar ekologiyaya nə qədər mənfi və ya müsbət təsir etsələr, bu onların ümumilikdə yaşamına və psixoloji sağlamlıqlarına təsir edəcəkdir.

Sənayeləşmənin təsiri təbiətdə ekoloji tarazlığın pozulmasına ciddi şəkildə öz təsirini göstərməkdədir. Ekoloji tarazlığın pozulması içərisində yaşıllıqların məhvi ciddi təhlükədir. Böyük şəhərlərin salınması artıq təbii deyil, süni beton təbiətin yaranmasına səbəb olmuşdur. Bütün bunlar isə təbiətin əsas rənglərindən biri olan yaşıl rəngin azalmasına, eyni zamanda bu yaşıllıqların əsas funksiyalarından biri olan fotosintez prosesini həyata keçirməklə havanın oksigenlə zənginləşməsini təmin etməsinə öz mənfi təsirini göstərmişdir.

İnsan psixologiyası ilə fiziologiyası qırılmaz vəhdət təşkil edir. Daha dəqiq ifadə etsək, bütün psixi proseslərin əsasını sinir sistemi təşkil edir. Elə bu səbəbdəndir ki, insan sağlamlığında baş verən bu və ya digər dəyişiklik onun psixologiyasına da əsaslı təsir göstərir. Deməli, oksigen zənginliyi beyin fəaliyyətini artırdığı üçün sağlam sinir sisteminin formalaşmasına müsbət təsir edir. Sağlam fiziologiyanın formalaşması isə ümumilikdə insan psixikasının daha yaxşı bərpa olunmasını təmin edir, psixi proseslərin sürətini artırır.

Deməli, yaşıllıqlar insanların tibbi və fizioloji sağlamlığını müxtəlif təbii imkanları ilə bərpa etməklə psixoloji sağlamlığını təmin edir. Yaşıllıqların salınmasında təbiətin rəng harmoniyasının qorunmasının şahidi oluruq. Psixologiyadan məlumdur ki, hər bir rəngin insan psixologiyasına öz təsiri var. Belə ki, yaşıllıqların salınması təmiz hava ilə yanaşı, məhz təbiətin əsas və rahatladıcı rənglərindən olan yaşıl rəngin ətrafımızda çoxalmasına səbəb olur ki, bu da sakinlərin özlərini rahat hiss etmələrinə, sinir sisteminin sağlamlığına və bunun əsasında isə sağlam psixologiyaya malik olmalarına təsir edir. Ağaclar arasında əkilmiş müxtəlif dekorativ bitkilər, rəngarəng güllər isə insana ayrıca bir psixoloji rahatlıq bəxş edir.

Sağlam insan isə sağlam cəmiyyət deməkdir.

**Çapay Quliyev**
**Psixologiya üzrə fəlsəfə doktoru,**
**Magistratura və doktorantura**
**mərkəzinin direktoru**

## QLOBAL İQLİM DƏYİŞİKLİYİ: SƏBƏBLƏR, BƏHANƏLƏR VƏ REALLIQ

Dünya düzəninin pozulduğu, beynəlxalq təhlükəsizlik qaydalarının işləmədiyi və qlobal sərmayənin də sərt üzünün getdikcə daha çox ifşa olunduğu müasir dövrdə bəşəriyyətin qarşı-qarşıya qaldığı reallıqlardan ən acısı qlobal iqlim dəyişikliyi və onun törətdiyi fəsadlardır. Güclü, sənayeləşmiş ölkələrin daha da varlanmaq istəyi və planetin nisbətən zəif və inkişaf etməkdə olan ölkələrinin təbii resursları hesabına iqtisadi artımlarını davamlı etdirmək planları onların tam yüz il əvvəlki müstəmləkə dövründən qalma iştahlarının eynisindən başqa bir şey deyildir.

Asiya, Cənubi Amerika, Afrika və Okeaniyada yürütdükləri xalqları parçalama siyasəti ilə yüz illər boyunca əldə etdikləri havayı renta ilə varlanıb bu gün iqtisadi inkişaf səviyyələri ilə öyünən bu dövlətlər bu dəfə Uca Tanrının iqlim sınağı ilə üz-üzə qalmışlar. Qlobal bazarların ələ keçirilməsi uğrunda amansız rəqabət və ifrat istehsal yolu ilə sənayeləşmənin son həddə çatması və bununla da karbohidrogen enerji ehtiyatlarından plansız və miqyassız istifadə nəticəsində bu gün Yer kürəsinin düşdüyü istixana vəziyyəti heç kimə xoşbəxt gələcək vəd etmir.

Hələ ötən əsrin sonlarında alimlərin yaydığı həyəcan siqnalları, ardınca da BMT-nin iqlim dəyişikliyi məsələsini ən əsas gündəliyə çıxarması bu istiqamətdə qlobal səyləri zəruri etsə də, görünən odur ki, problemin ən böyük səbəbkarları nədənsə hələ də gündəmi yayındırmaq və öz yaxalarını kənara çəkmək üçün müxtəlif bəhanələr tapmaqla məşğuldurlar. Bu ilin noyabr ayında ölkəmizdə keçirilən COP29 sammiti ərəfəsində yenidən bu meyillərin müşahidə olunması az qala 50 ilə yaxın bir müddətdə qaynar gündəm maddəsi olan bu probleme böyük dövlətlərin münasibətini bir daha ortaya qoyur.

Hələ 1990-cı illərin əvvələrində elm ictimaiyyəti və ardınca da "yaşıl" gələcək naminə düşünən siyasi liderlər atmosferə atılan tullantı qazlarının həcminin azaldılması üçün məsuliyyətlərini bütün dünyaya bəyan edəndə bunun heç də hamı tərəfindən razılıqla qarşılanmadığı dərhal üzə çıxmışdı. Belə ki, o zaman iqlim dəyişikliyinə qarşı qəbul olunan Çərçivə Konvensiyasının ardınca 1997-ci ildə qəbul olunmuş və dünyanın 200-ə yaxın dövlətinin qəbul etdiyi Kyoto Protokoluna tam şəkildə qoşulmayan, başqa sözlə, heç bir öhdəlik götürməyən ölkələr arasında Əfqanıstan, Vatikan, Andorra ilə yanaşı, ABŞ-nin da olduğunu görürük. Çin, Hindistan və Almaniya ilə birgə ən çox atmofseri çirkləndirən ölkələrdən biri olan ABŞ-nin demək olar ki, heç bir tullantılı sənayesi olmayan Əfqanıstanla həmin siyahıda bir yerdə olması, bu mənada çox ədalətsiz



bir faktdır. Yaxud 2015-ci ildə qlobal iqlim probleminin həlli üçün ilk olaraq qəbul olunmuş və ölkəmizin də Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə tam şəkildə dəstək verdiyi Paris Sazişinə qoşulmaqda yenə də oyun pozuculuğu edən ABŞ-nin davranışları sözün əsl mənasında bir dəniz quldurluğuna bənzəməklə özünə sərf etməyən heç bir qanun və qaydaya hörmət etmədiyini bir daha göstərir.

Halbuki, 2005-ci illə müqayisədə 2025-ci ildədək atmosferə atdığı istixana qazlarının həcmini 26-28 faiz azaltmaq öhdəliyi götürməklə ABŞ dünyanın gələcəyi qarşısında öz məsuliyyətini də dərk etmiş olmalıdır. Bunun baş verəcəyi təqdirdə isə ABŞ-nin sərvətlərinin azalacağını, bununla da qlobal sərmayənin də təhlükə altına düşəcəyini müdafiə edənlər heç bir halda qlobal iqlim dəyişikliyinə görə zəif və inkişaf etməkdə olan ölkələrin haqqı olduğu maliyyə yardımını etmək istəmirlər. Bu yardımın məbləği isə yüz milyardlarla dollar həcmində qiymətləndirilir.

Hazırda qlobal rəqabətdə ABŞ-nin tək rəqibi halına gəlmiş Çinin iqlim dəyişikliyinə qarşı mübarizədə tutduğu mövqe ənənəvi olaraq daha konstruktiv olması ilə yanaşı, bu problemin həllində tələb olunan "yaşıl" iqtisadiyyata keçid və "yaşıl" texnologyanın də tətbiqini bir innovativ bazar imkanları halına gətirməklə daha maraqlıdır. Təkcə ölkəmizin də yaxından dəstəklədiyi və Orta dəhliz üzərində hazır məhsul, "yaşıl" enerji və turist transferində Çinin tutduğu mövqeyə, buradakı "yaşıl" logistikanın təmin olunması üçün ayırdığı milyardlarla dollar investisiyalara baxsaq, birbaşa olmasa da, dolayısı ilə qlobal iqlim dəyişikliyindən əziyyət çəkən digər ölkələrin iqtisadiyyatına dəstək baxımından bu ölkənin yanaşmasının fərqli şəkildə görə biləri̇k. Lakin bununla yanaşı, iqlim dəyişikliyinin heç bir sərhəd tanımadığını, planetin buzlaqlarından tutmuş ekvatorial səhralara qədər hər yerdə öz fəsadlarını göstərdiyini nəzərə aldıqda ABŞ, Çin, Hindistan və Avropa İttifaqı dövlətləri kimi sənayeləşmiş ölkələrin bu sahədə hələ çox iş görməsi, əllərini ciblərinə salmalı olduqlarını deyə bilərik. Ancaq görünən odur ki, bu məsələdə Çinin bir addım öndə olduğunu həzm edə bilməyən ABŞ burada siyasi gedişlər etməklə öz maraqları naminə təkcə böyük rəqiblərini deyil, dünyada hər kəsi güdaza verməyə hazırdır.

Beləliklə, sözdə demokratiya, insan hüquqları və ekoloji məsuliyyətdən danışan və bunun üçün yeri gəldi-gəlmədi dünyada hər kəsə təzyiq etməkdən belə çəkinməyən Qərb, xüsusən də ABŞ iqlim böhranı kimi məsələlərlə üzləşəndə gündəmi dəyişmək üçün min bir bəhanələr uydurmaqda da, necə deyərlər, dünya üzrə liderliyini ortaya qoyur. Təkcə dünyada apardığı müharibələr və genişmiqyaslı hərbi təlimlər və silah sınaqları ilə belə atmosferə atdığı tullantı qazlarına görə bütün inkişaf etməkdə olan ölkələrin hamısını qabaqlayan ABŞ COP29 ərəfəsində ölkəmizə qarşı əsassız ittihamlar irəli sürürdü. Gah Azərbaycanın neft-qaz ixracatçısı olmasını bəhanə edib burada ölkəmizə çatacaq maliyyə yardımını azaltmaq, gah da Ermənistanla yarımçıq sülh müqaviləsi bağlayıb gələcəkdə ona güzəştə getməyə məcbur etməkdə bərk israrlı görünürdü. Ölkəizə qarşı səslənən sanksiyayönümlü çıxışların və açıq təhdidlərin məqsədi isə ayıdındır: Azərbaycanın Cənubi Qafqazın lider dövləti olmasına yol verməmək, ölkəmizin qlobal mərkəzlər arasında sərbəst siyasi addımlarına əngəl yaratmaq və son nəticədə bu bölgədə öz hakim mövqeyini yenidən bərpa etmək! Göründüyü kimi, dünya nə qədər müasirləşsə də, nə qədər yeniliklər yaransa da, kollektiv Qərb maşını yenə də ümumi havanı çirkləndirməkdə, ətrafı dumana bürüyüb öz gizli planlarını həyata keçirməkdədir.

Lakin artıq mütərəqqi dünyanın gözü açılmış, bəşəriyyət kimin hansı hava ilə nəfəs alıb, kimlərin sözündə və əməlində fərqli xislət daşıdığını açıq görməkdədir. Bu mənada, Azərbaycan kimi otuz il ərzində işğaldan əziyyət çəkib sonda torpaqlarını cəmi 44 günlük müharibədəki nöqtə vuruşları ilə azad edən, iqtisadiyyatı ilə qlobal iqlim dəyişikliyinə 44 günlük müharibədəki nöqtə vuruşları azad edən, amma əvəzində problemin həlli üçün yaşıl dünya naminə başlatdığı hərəkatla bundan 10 dəfələrlə artıq töhfə verən bir ölkə COP29 zamanı dünyaya, xüsusən də Qərbə bir çox mesajlar verdi.

**Əli Cabbarov**
**"Bələdiyyə və turizm"**
**kafedrasının dosenti**

# MÜHARİBƏNİN İQLİM DƏYİŞMƏLƏRİNƏ TƏSİRİ

İqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2023-cü il tarixli 4233 nömrəli Sərəncamı ilə respublikamızda 2024-cü il “Yaşıl dünya naminə həmrəylik ili” elan edilmişdi. Bu Sərəncama uyğun olaraq bütün dövlət və ictimai qurumlar müvafiq silsilə tədbirlər həyata keçirdilər. 2009-cu ildə dünya ölkələri razılaşıblar ki, inkişaf etmiş ölkələrdən inkişafda olan ölkələrə iqlim fəaliyyətinə dəstək üçün hər il 100 milyard dollar vəsait ayrılsın. 2015-ci ildə bu məbləğin “Paris”



sazişi çərçivəsində 2020-2025-ci illər üçün etibarlı olacağı təsdiqlənib. Beynəlxalq təşkilatların hesabatına görə, 100 milyard dollarlıq hədəfə ilk dəfə 2022-ci ildə nail olunub. 2025-ci ildən sonra isə “Yeni Kollektiv Kəmiyyət Hədəfi” (NCQG) müəyyən edilməlidir. Bu maliyyə hədəfi noyabrda Bakıda keçirilən COP29-da əsas mövzualardan biri olmuşdur. Hər il fərqli bir ölkənin ev sahibliyi etdiyi COP “Conference of the Parties”, yəni 29-cu “Tərəflərin Konfransı (COP)” adındakı 29 rəqəmi tədbirin sayca 29-cu olduğuna işarə edir. Bundan əvvəlki COP28 tədbiri 2023-cü ildə Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində baş tutub. Nəşrin məlumatına görə, Bakıda keçirilən COP29 tədbirində inkişaf etməkdə olan ölkələrə iqlimlə bağlı vəsait vermək, onlara istixana qazı emissiyalarını azaltmaq və ekstremal havanın təsirlərinə uyğunlaşmaqda kömək etmək üçün inkişaf etmiş ölkələrdən yeni qlobal hədəflərə doğru gəlmək gözlənilir.

30 ildir torpaqları işğal altında olan bir ölkə üçün bu səpkili tədbirlərin keçirilməsi cox əhəmiyyətlidir. Dünya əhalisinin istifadə etdiyi qida məhsullarının 80%-i, insanların tənəffüs etdiyi oksigenin isə 95% bitkilər aləmi tərəfindən ödənilir ki, bu da bitki sağlamlığının və ehtiyatının qorunmasının zəruriliyinin ifadəsidir. Planetin çirklənməsinə, ekologiyanın korlanmasına müharibələr, hərbi təlimlər, sınaqlar daha çox mənfi təsir göstərir. Mütəxəssislərin fikrincə, qədim dövrlərdə baş vermiş müharibələr planetimizin ekosistеminə o qədər də mənfi təsir etməyib. Lakin sonrakı müharibələr təbiətə, ətraf mühitə amansız divanlar tutub. Hesablamalara görə, son 600 ildə dünyada 14 min 513 müharibə baş verib. Belə ki, müharibə vaxtı təkcə canlı qüvvə deyil, bir çox flora və fauna növləri məhv olur. Müharibə aparılması vasitələri inkişaf etdikcə isə təbiətə daha ciddi və daha geniş sahədə təsir göstərir.

Qeyd edək ki, 30 ilə yaxın Azərbaycanın 17,3 min km2-lik bir ərazisi işğal altında olduğundan, həmin ərazilərdə 40 faiz mineral sularımız, 23,8 faiz meşə fondu (247,352 hektar meşə sahəsi), 152 dövlət təbiət abidəsi, 13197,5 hektarlıq qiymətli meşə sahəsi, 5 ədəd geoloji obyekt, 155 növ faydalı qazıntı yatağı ermənilər tərəfindən vəhşicəsinə istismar edilib.

İşğal nəticəsində ölkəmizə dəyən ən böyük zərərlərdən biri də meşələrimizin kütləvi şəkildə qırılmasıdır. Çoxillik yaşı olan nadir ağac növləri qazanc götürmək məqsədilə məhv edilir. Bir fakta diqqət yetirmək lazımdır ki, son illər ərzində Ermənistan Qərb ölkələrinin şirkətlərinin köməyi ilə meşəçilik sahəsində öz istehsalını 10 dəfə artırıb. Aydındır ki, onlar buna Azərbaycan meşələrinin qırılması hesabına nail olublar.

Elmi araşdırmalara görə, bir tank tırtılının səsindən 50-100 metr məsafədə kolların 70-i, kiçik çay yataqlarından 2-si, bulaqlardan 5-i, davamlı immunitetli ağaclardan 20-si quruyub məhv olur. Havadan atılan kiçik ölçülü bombaların təsiri ilə ətraf mühitin normal iqlim şəraiti 16 gündə pozulur, bir hərbi vertolyotun atdığı mərmilərin nəticəsində həmin ərazinin torpaq qatı çat verir və həmin qat bir daha bərpa olunmur, yağış yağarsa 15, yağmazsa 9 gün sonra mərmi düşən zolaq “ölü zona”ya çevrilir, 30 il o yerlərdə heç nə bitmir, ətrafdakı yaşayış məntəqələrində “vərəm sindromu” 2,5 dəfə artır. Bu isə o deməkdir ki, silahlar təbiəti də insan kimi həmişə “qorxu” içində saxlayır. Onu da qeyd edək ki, saydıqlarımız müharibənin ekologiyaya vura biləcəyi zərərlərin cüzi bir hissəsidir. Lokal müharibələr zamanı bir sıra mühafizə olunan təbii ərazilər hərbi əməliyyatların bir hissəsinə çevrilir, nəticədə onların fəaliyyəti pozulur, planetin bioloji və mədəni müxtəlifliyi azalır, həm də ətraf mühitin məhvinə, yaralanmasına gətirib çıxarır. Qeyd etdiklərimiz yalnız quru üçün deyil, su hövzələrinə və çaylara da aiddir.

Azərbaycan təbiətinə dəyən zərər onilliklər ərzində bərpa olunmayacaq. 30 il işğal altında qalmış ərazilərdə torpağın münbit qatı məhv edilib, flora və faunamız ciddi itkilər verib. Bir çox bitki və heyvan növləri müasir silahlı erməni quldurları tərəfindən tamamilə məhv edilib və yaxud məhv olmaq təhlükəsi ilə üzləşib. Azərbaycanın yüz illər boyu ekoloji tarazlıq naminə qoruyub bəslədiyi meşə örtüyü, habelə qiymətli, nadir ağaclardan ibarət yaşıllıq zolaqları qəddarlıqla məhv edilib. Azərbaycan hidrobioloji mühiti zəhərlənib və ekoloji böhran həddinə çatıb. Planetin mühafizəsində duran 300-dən çox beynəlxalq konvensiya müddəaları aşkar kobudluqla pozulub.

İndi 1992-2020-ci ilə qədər olan dövrdə ermənilər tərəfindən təbiətimizə vurulan ziyanla bağlı yeni bir hesabatın hazırlanaraq ictimaiyyətə təqdim olunması ən vacib məsələ olmalıdır. Burada əsas məqsəd tarixi faktları bir yerə toplamaqla ermənilərin xalqımızın başına gətirdiyi müsibətləri, təbiətimizə vurduğu zərərləri dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdır.

Ümidvarıq ki, tezliklə Ali Baş Komandan İlham Əliyevin apardığı düzgün siyasətlə, işğaldan azad olunan ərazilərin ekologiyasının yaxşılaşdırılması yolunda mühüm işlər görüləcək, eyni zamanda vurulan ziyanın bərpası işğalçı tərəfin hesabına aparılacaq.

**Fəridə Səfərova**
**Biologiya üzrə fəlsəfə doktoru, dosent**

# COP29: İqlim dəyişiklikləri ilə mübarizənin yeni mərhələsinə töhfələr

Hər kəsə məlumdur ki, 1995-ci ildən etibarən hər il iqlim dəyişikliyi ilə mübarizədə irəliləyişi qiymətləndirmək üçün konvensiyaya üzv ölkələrin nümayəndələri müxtəlif ölkələrdə COP- Tərəflər Konfransına toplanır və bu istiqamətdə bir sıra mühüm işlər həyata keçirilir. Bildiyiniz kimi, bu ilin noyabr ayında Azərbaycan COP 29-a ev sahibliyi etdi və bu hadisə hər bir Azərbaycan vətəndaşı kimi, biz naxçıvanlıları da qürurlandırdı. Biz bu əlamətdar hadisəni beynəlxalq ictimaiyyətin Azərbaycana və Azərbaycanın gördüyü işlərə, o cümlədən yaşıl enerji sahəsindəki fəaliyyətinə ən böyük qiymət hesab edirik.

Azərbaycanın ayrı-ayrı şəhərləri kimi, Naxçıvan da COP 29-a öz töhfələrini verdi. Bu sahədə görülən işlərə nəzər salarkən öncə Naxçıvanın bərpa olunan enerji sahəsində həyata keçirdiyi işlər göz önünə gəlir. Təsadüfi deyildir ki, muxtar respublikamızda enerji təhlükəsizliyi ilə bağlı həyata keçirilən tədbirləri yüksək qiymətləndirən ölkə başçısı cənab İlham Əliyev vaxtilə Naxçıvanda işığın, enerjinin olmamasını və Azərbaycandan gələn xətlərin də Ermənistan tərəfindən kəsildiyi Naxçıvanın indi artıq özünü elektrik enerjisi ilə tam təmin etməsini və bu işlərin bərpa olunan mənbələr hesabına olmasını qürurverici bir hal kimi yüksək qiymətləndirmişdir. Dövlət başçımız haqlı olaraq qeyd etmişdir ki, bu Naxçıvanın gözəl təbiətinə və ekoloji şəraitinə töhfə kimi qəbul edilməlidir.

Muxtar respublikanın iqlim şəraiti alternativ və bərpa olunan enerjidən istifadə üçün geniş imkanlar açdığından müasir energetika infrastrukturu yaratmaqla enerji təhlükəsizliyinin təmin olunması və muxtar respublikamızın ayrı-ayrı bölgələrində külək, Günəş elektrik stansiyaları tikilərək istifadəyə verilməsi bunun bariz nümunəsidir. Sevindirici haldır ki, Naxçıvanın ayrı-ayrı bölgələrində iqlim dəyişikliyinə dəstək məqsədilə bir sıra külək və enerji elektrik stansiyaları yaradılmışdır. Culfa rayonunda Külək-Günəş Hibrid Elektrik Stansiyasının istifadəyə verilməsi bu əməli işlərdən hesab olunur. Digər bir stansiya Şərur Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi muxtar respublikanın tam elektrik enerjisi ilə təmin olunması və bərpa olunan mənbələrdən istifadə edilməsi istiqamətində atılan mühüm addımlardandır.

Naxçıvanda əlverişli coğrafi mövqeyin və iqlim şəraitinin alternativ enerji mənbələrindən istifadəyə geniş imkanlar açdığını nəzərə alaraq Zeyvə kəndində yaradılan 5 meqavat gücə malik olan Günəş Elektrik Stansiyası da Naxçıvan Muxtar Respublikasında enerji təchizatının yaxşılaşdırılmasına xidmət edir.



Hal-hazırda Naxçıvanda 9 yeni elektrik stansiyası inşa edilmiş, bunlardan 5-i su, 3-ü isə günəş stansiyasıdır. Bərpa olunan enerji istifadəsinin ölkənin inkişaf göstəricisi olduğundan gələcəkdə muxtar respublikada su, günəş və külək enerjisindən istifadə edərək yeni stansiyaların tikilməsinin planlaşdırılması, fikrimizcə, “Yaşıl Dünya naminə həmrəylik ili”nə ən gözəl töhfədir.

Sevindirici haldır ki, muxtar respublikamızın ayrı-ayrı təşkilatları ilə yanaşı, Naxçıvan Dövlət Universiteti də bu istiqamətdə bir sıra işlər həyata keçirməkdədir. Külək və günəş hibrid qida qurğusu muxtar respublikada ilk dəfə məhz Naxçıvan Dövlət Universitetində Memarlıq və mühəndislik fakültəsində qurulmuşdur.

Qeyd etməliyik ki, bu əlamətdar hadisə Naxçıvanda bu ixtisas üzrə peşəkar kadrların formalaşması üçün mühüm əhəmiyyət kəsb edir. Bu qurğunun burada qurulmasındakı məqsəd təkcə fakültələri elektrik enerjisi ilə təmin etmək yox, eyni zamanda onun tədris laboratoriyası kimi tətbiq edilməsidir. Bu qurğu 10 kilovolt enerji vermək qabiliyyətinə malikdir. Bundan əlavə, 12 günəş panelinin hər biri 280 volt olmaqla 3,3 kilovolt enerji vermək qabiliyyətinə malikdir. Qurulan günəş batareyası korpusun isti su ilə təmin olunmasında xüsusi rol oynayır. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti tərəfindən Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin həyətində quraşdırılan külək turbinində cari texniki qulluq və sazlama işləri aparılır. Ərazidə quraşdırılan günəş panelləri və külək turbini Memarlıq və mühəndislik fakültəsinin elektrik enerjisi ilə təminatının ödənilməsində böyük rol oynayır. Eyni zamanda Naxçıvan Dövlət Universitetində külək və Günəş hibrid qida qurğusunun istifadəyə verilməsi, muxtar respublikanın enerji sahəsində kadrların hazırlanmasına böyük töhfədir.

Naxçıvan Dövlət Universiteti “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində bir sıra tədbirlər keçirməklə yanaşı, təşkil olunmuş respublika miqyaslı tədbirlərdə də yaxından iştirak etmişdir.

Yaşıl enerji zonası elan edilmiş Naxçıvan Muxtar Respublikasında da iqlim dəyişikliyi ilə mübarizə və dayanıqlı enerji mənbələrinin səmərəli istifadəsi üçün mütəmadi olaraq innovativ layihələr həyata keçirilir. COP29 və “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində Naxçıvan Muxtar Respublikasında keçirilən “GreenFest” festivalı da ətraf mühitin mühafizəsi və bərpa olunan enerji istifadəsinə dair tədbirlərin davamı kimi qiymətləndirilməlidir. Burada ekoloji problemlərin həllinə yönəlik müasir yanaşmalar, startap layihələrinin təqdimatı və müxtəlif stendləri ictimaiyyətə təqdim olunması bu festivalın diqqətəlayiq tərəfləridir.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetinin Tibb Kollecində “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində “Yaşıl dünya yaşıl təfəkkürdən başlayır” mövzusunda maarifləndirici tədbirin eyni zamanda Naxçıvan Dövlət Universitetinin Texniki Kollecində də eyni mövzuda tədbirin keçirilməsi, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə “İqlim dəyişikliyi hüquqi kontekstdə” mövzusunda infosessiya keçirilməsi, Naxçıvan Dövlət Televiziyasının hazırladığı “Birlikdə dünyamızı qoruyaq” adlı videoçarxın izlənilməsi də bu kimi işlərin davamı olmuşdur.

Nəticə olaraq qeyd edək ki, COP29 Naxçıvan üçün iqlim dəyişikliyi ilə mübarizədə yeni bir mərhələ açdı. Azərbaycanın bu konfransdan əldə etdiyi nəticələr, yalnız milli səviyyədə deyil, eyni zamanda regional və qlobal iqlim siyasətində də müsbət dəyişikliklərə səbəb olacaq. İqlim dəyişikliyi ilə mübarizədə atılacaq addımlar, Naxçıvanın ekologiyası, iqtisadiyyatı və sosial rifahı üçün böyük əhəmiyyət kəsb edir. COP29-un nəticələri, bu bölgənin insanları üçün daha sağlam və dayanıqlı bir mühitin qorunmasına xidmət edəcəkdir.

**Tehranə Xudaverdiyeva**
***“İngilis dili və tərcümə” kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru***

# Xarici siyasətin böyük uğuru-Cop29

Ölkəmizin dünyanın ən mühüm və dövlətlərarası tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi Konfransına ev sahibliyi etməsi dövlət başçısı, Prezident İlham Əliyevin növbəti təntənəli, parlaq qələbələrindən biridir. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurlarındandır. Ölkə başçısı cənab İlham Əliyev Berlində "15-ci Petersberq iqlim dialoqu"nun yüksək səviyyəli seqmentində olan çıxışında demişdir: "Bu beynəlxalq ictimaiyyətin Azərbaycana olan etimadıdır, o cümlədən də yaşıl enerji sahəsində gördüyümüz işlərin tanınmasıdır".

Yaşadığımız dövrdə iqlim məsələləri ölkəmizin gündəliyində öz əksini tapan əsas prioritetlərdən biridir. Dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ölkəmizin iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə, eyni zamanda bu yöndə beynəlxalq həmrəyliyin daha da gücləndirilməsinə adekvat çağırışlarındandır. Ümumiyyətlə, ölkəmiz hər zaman qlobal problemlərin həllində birlik, həmrəylik platformasında irəliləmişdir.

Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq əhəmiyyətli mötəbər tədbir olan COP29-a ev sahibliyi edən Azərbaycanda bütün zəruri tədbirlər həyata keçirilmiş, ölkəmizdə lazımi infrastruktur yaradılmışdır. Dövlət başçısı tərəfindən yaşıl enerji zonası elan edilən Naxçıvan Muxtar Respublikasında da həmçinin iqlim dəyişikliyi ilə mübarizə, təhlükəsiz və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə sahəsində innovativ layihələr icra olunaraq müxtəlif tədbirlər həyata keçirilmişdir.

Ötən ilin noyabr ayında böyük uğurla ölkəmizdə reallaşdırılan bu mötəbər tədbir məhz dövlət başçısı İlham Əliyevin uğurlu xarici siyasətinin təcəssümüdür. Əminik ki, Bakı şəhərində keçirilən nüfuzlu beynəlxalq konfrans iqlim dəyişiklikləri ilə mübarizə və bu sahədə mövcud problemlərin həlli istiqamətində dönüş nöqtəsi olacaq.

***Xumar Məmmədova***
***Naxçıvan Muxtar Respublikası***
***Ali Məclisinin deputatı***

# Gələcəyimiz üçün birgə addımlayaq: İqlimə dəstək, həyatımıza sərmayə!

İqlim dəyişməsi, müasir dövrün ən ciddi ekoloji problemlərindən biri olmaqla, bəşəriyyətin gələcəyi üçün təhdid təşkil edir. Bu problemə beynəlxalq səviyyədə yanaşma, 1988-ci ildən etibarən başlamışdır. Həmin il Ümumdünya Meteoroloji Təşkilatı (ÜMT) və BMT-nin Ətraf Mühit Proqramı (YUNEP) tərəfindən Beynəlxalq ekspert qrupu yaradılmışdır. 21 Mart 1994-cü ildən fəaliyyət göstərən Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyası (UNFCCC) 198 ölkə tərəfindən ratifikasiya edilmiş və bu ölkələr Konvensiya Tərəfləri adlanır. UNFCCC-nin əsas məqsədi iqlim sistemində "təhlükəli" insan müdaxiləsinin qarşısını almaqdır. Hər il bu konvensiyaya üzv olan ölkələr, iqlim dəyişikliklərinə qarşı mübarizədə irəliləyişi ölçmək və müzakirələr aparmaq üçün toplanır.

Qüvvəyə mindiyi 1994-cü ildən bəri UNFCCC beynəlxalq iqlim müzakirələrinin əsasını qoymuş, o cümlədən Kioto Protokolu (1997) və Paris Razılaşması (2015) kimi əlamətdar müqavilələri əhatə edir. 1997-ci ildə qəbul edilmiş Kioto Protokolu inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında istixana qazlarının emissiyalarını azaltmaq üçün konkret hədəflər müəyyən edir. Kioto Protokolu, 2005-ci ildən etibarən qüvvəyə minmiş və hazırda 192 tərəfdaş ölkə tərəfindən ratifikasiya olunmuşdur. Bu sənəd, inkişaf etmiş ölkələrin daha ağır məsuliyyət daşıdığını qəbul edərək, "ortaq amma fərqli məsuliyyət və müvafiq qabiliyyətlər" prinsipi əsasında hazırlanmışdır. Azərbaycan Respublikası 1995-ci ildən etibarən BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasına qoşulmuşdur. 2000-ci ildən isə Kioto Protokolunu ratifikasiya edərək, beynəlxalq müstəvidə iqlim dəyişikliyinə qarşı mübarizədə öz iştirakını təsdiq etmişdir. Ölkə bu konvensiya çərçivəsində milli və regional proqramların hazırlanması, həyata keçirilməsi və yayımlanması kimi öhdəliklər götürmüşdür.

Tərəflərin qərarına əsasən COP hər il toplanır. İlk COP toplantısı 1995-ci ilin mart ayında Almaniyanın Berlin şəhərində keçirilmişdir. Əgər hər hansı bir Tərəf sessiyaya ev sahibliyi etməyi təklif etməzsə, COP qərargahının yerləşdiyi Bonn şəhərində keçirilir. COP-un ev sahibliyi, adətən, Birləşmiş Millətlər Təşkilatının beş regional qrupundan birinin üzvləri arasında dövr edir (Afrika, Asiya-Sakit Okean, Şərqi Avropa, Latın Amerikası və Karib dənizi, Qərbi Avropa və digərləri) və regional qrup üzvləri öz regionlarından hansı ölkənin konfransa ev sahibliyi təklif edəcəyini müəyyənləşdirirlər.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci COP 2023-cü ilin sonunda Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilmişdir. Bu konfrans Paris Razılaşmasının məqsədlərinə çatmaq üzrə irəliləyişi qiymətləndirən ilk Qlobal Baxışa ev sahibliyi etmişdir. 29-cu sessiyası - COP29 isə bu il Azərbaycanda keçirildi. Bununla bağlı qərar COP28-in dekabrın 11–də keçirilən plenar iclasında verilib.

COP-un əsas vəzifələrindən biri Tərəflərin təqdim etdiyi milli kommunikasiya və emissiya inventarlarını nəzərdən keçirməkdir. Bu məlumatlara əsasən COP tərəfdaşları görülmüş tədbirlərin təsirlərini və Konvensiyanın əsas məqsədinə çatmaqda əldə edilmiş irəliləyişi qiymətləndirir.

Məlum olduğu kimi, Günəş radiasiyası atmosferdə baş verən proseslərin enerji mənbəyidir. Günəş istiliyinin 90%-i Yer səthindən əks olunur. Atmosferdə bəzi qazlar, o cümlədən su buxarı parnik effekti yaratmaqla fərqlənir, onlar yer səthinə yüksək dərəcədə Günəş radiyasiyası buraxmağa qabildirlər. Yer səthinin orta temperaturu +150 təşkil edir, parnik effekti olmasa idi o, (- 180 ) olardı. Odur ki, təbii parnik effekti Yerdə həyatın mövcudluğu üçün əsas mexanizmlərdən biri sayılır.

Lakin atmosferdə karbon, azot oksidləri, xüsusilə metan və troposfer ozonu (O3) və s. miqdarının antropogen təsirlər nəticəsində artması, havanın temperaturunun normadan çox olmasına qlobal istiləşmə və istilik effektinə səbəb olur. Nəticədə bəşəriyyət üçün quraqlıq, səhralaşma kimi ekoloji böhranlar yaranır. Parnik effekti yaratmaqda atmosferdə olan su buxarı aparıcı rol oynayır. Daş kömür, neft, qaz və s. yanacaqların yandırılması nəticəsində ildə atmosferə 20 milyard ton karbon qazı qarışır. Hər il atmosferə qarışan karbon qazının miqdarı 0,5 faiz, metan – 0,9 faiz, azot oksidləri 0,25 faiz, hallogenlərin karbon birləşmələri isə 4 faiz artır. Bu isə atmosferdə kəskin istilik effekti yaradır. İqlimin ekoloji xəritəsinin dəyişməsi XXI əsrin ən ciddi qlobal problemidir. Qlobal istiləşmə və istilik efekti XX əsrdə texniki tərəqqinin atmosferdə yaratdığı ən faciəli, dəhşətli hadisə kimi dəyərləndirməlidir.

Atmosferə əlavə olaraq qlobal ekosistemin təbii komponenti olmayan digər qazlar da daxil olur. Onlardan ən əsasları insan tərəfindən sintez edilən xlor – flüor üzvi birləşmələri, freonlar da bu kateqoriyaya aiddir. Son 200 ildə, xüsusilə 1950-ci ildən sonra, hazırda da davam edən insan fəaliyyəti atmosferdə parnik effektli qazların konsentrasiyasının artmasına səbəb olur. Bu qaz qarışıqları radiasiyanı udur və süni əks etdirir. Odur ki, Yerin iqliminə təsir etmək qabilliyyətinə malikdir.

Dünya alimləri iqlimin dəyişilməsinə təsir edən antropogen faktorları, o cümlədən insanın artan təsərrüfat fəaliyyətini, həmçinin müxtəlif miqyaslı hərbi münaqişələrin təsirini araşdırmış və yerin iqliminin dəyişməsi ehtimalı üzrə onlarla müxtəlif ssenarilər işlənib hazırlayıblar. Geoloji epoxalar boyunca Yerin iqlimi təbii səbəblərin təsiri altında dəfələrlə dəyişmişdir. Keçmiş epoxaların paleoiqlimini öyrənərkən, gələcəkdə müşahidə olunacaq iqlim şəraitinin, bəzi keçmiş dövrlərin iqliminə uyğun formalaşacağı ehtimalı irəli sürülmüşdür. Bu hipotezin əsasında, ayrı-ayrı geoloji epoxalarda atmosferin qaz tərkibinin qiymətləndirilməsi və yaxın 100 ildə karbon, metan və digər qazların konsentrasiyasının gözlənilən dəyişməsi dayanır.



Atmosferdə parnik qazlarının toplanması və onların parnik effektinin artması yerüstü hava və torpağın səthində temperaturun yüksəlməsinə səbəb olur. Son 100 ildə dünyada orta temperatur təxminən 0,3-0,6 dərəcə artmışdır, 1980-ci ildən etibarən temperaturun artması daha çox nəzərə çarpır. Havanın temperaturu üzrə qlobal məlumatların təhlili göstərir ki, temperaturun artması həm iqlimin təbii dəyişməsilə, həm də insan fəaliyyətilə bağlıdır.

Antropogen amillərin artması ilə atmosferdə parnik qazlarının miqdarı artır və bu qazların parnik effekti daha da güclənir. Gözləntilərə görə, 2100-cü ilə qədər yerüstü havanın temperaturu təxminən 2°C artacaq. Holosen dövründə, yəni son 1000 il ərzində belə bir iqlim dəyişikliyi müşahidə olunmamışdır. Bu, bəşəriyyət üçün ciddi bir problem yaradır.

Temperaturun artması, atmosferdə yağıntıların da artması ilə müşayiət olunacaq. İqlimin orta göstəricilərinin bu cür dəyişməsi, tropik siklonlar, fırtınalar, istilik quraqlıqları və ekstremal hava hadisələri kimi müxtəlif katastrofik təsirlərlə yanaşı olacaqdır. Bu dəyişikliklər, ekosistemlərin tarazlığını pozur, kənd təsərrüfatını, su resurslarını və insanların gündəlik həyatını mənfi şəkildə təsir edir. Nəticədə iqlim dəyişikliyi ilə mübarizədə qlobal səylərin artırılması və müvafiq strategiyaların tətbiqi zərurəti gündəmə gəlir.

İqlim dəyişmələrinin təsiri sadəcə yerüstü hava və torpaqda deyil, okean səthindədə çox hiss olunur. Belə ki, son 100 ildə dünya okeanının səviyyəsinin 10-25 sm qalxması müşahidə olunmuşdur. Bunun səbəbi iqlimin istiləşməsilə əlaqədar suyun termik genişlənməsi, həmçinin dağ və qütb buzlaqlarının azalmasilə izah edilir . Bu faktorlar davam etdikcə gələcəkdə Qrenlandiya və Antarktida buzlaq larının əriməsinə səbəb olacaqdır. Buna uyğun olaraq Dünya okeanının səviyyəsi 2100 ilə qədər 50 sm qalxması gözlənilir. Okeanın səviyyəsinin 2100-cü ildən sonrakı dövrdə qalxmaqda davam etməsi gözlənilir. Bu isə okean və dənizlər ətrafı zonada olduqca ciddi təbii və sosial-iqtisadi problemlərin yaranmasına səbəb olacaqdır.

İqlimin dəyişməsi həm təbii, həm də sosial-iqtisadi proseslərə böyük təsir göstərir. Bu temperaturun yaxın 100 illikdə 1-1,50 qalxması eninə və hündürlüyə doğru izotermin qarışmasına, quruda ən əsası landşaftların dəyişməsinə səbəb olur. Buna uyğun surətdə isə biomüxtəlifliyin dəyişməsi baş verəcəkdir. Flora və fauna inkişaf edib uyğunlaşdığı iqlimdən yeni bir iqlim rejiminə qədəm qoyacaqdır. İqlimin dəyişmə sürətindən asılı olaraq, bəzi növlər yeni şəraitə uyğunlaşaraq qalacaq, bəzi növlər isə sıradan çıxa bilər. Mülayim qurşağın meşələrində karbon qazının çoxalması ilə əlaqədar bəzi ağac cinsləri də sıradan çıxacaqdır. Ən çox dəyişiklik arktik və subarktik qurşaqlarda baş verəcəkdir: kriosferin komponentləri - dəniz buzlaqları, dağ və düzən buzlaqları, daimi və mövsümi donuşluqların sahəsi və dərinliyi, mövsümü qar örtüyünün sahəsi və müddəti dəyişəcəkdir. Landşaftlar dəyişkənliyə (transformasiyaya) uğrayaraq qütbə doğru hərəkət edəcəkdir. Səhralar temperaturun yüksəlməsilə əlaqədar daha da aridləşməyə doğru gedəcəkdir.

Qeyd etmək lazımdır ki, sahilyanı zonalarda bəşəriyyətin yarıdan çoxu yaşayır. Odur ki, iqlimin dəyişməsilə baş verən təzadlar, nəticələr bu zonada insanlar üçün faciəli problemlərlə qarşılaşa bilər. Dəniz və okeanların səviyyəsinin sonrakı qalxması hündür olmayan ərazidə suyun basmasına, orada olan qurğuların, yaşayış məntəqələrinin dağılması və bir sıra başqa təzadlı nəticələr baş verəcəkdir. Burada yaşayan əhalinin miqrasiyasına və onunla əlaqədar ciddi iqtisadi və siyasi nəticələrə gətirib çıxaracaqdır .

Tropik və subtropik zonaların meşələri ehtimal ki, temperaturun dəyişməsinə görə yağıntıların dəyişməsində daha çox həssaslıq göstərəcəkdir. Arid və semiarid rayonlarda rütubətin çatışmaması ilə əlaqədar iqlimin dəyişməsi mənfi təsir göstərəcəkdir. Havanın yüksək temperaturu torpağın üzvi maddələrinin təbii parçalanmasını gücləndirməklə torpağın münbitliyi aşağı düşəcək, ziyanvericilər və xəstəliklərin baş verme ehtimalı artacaqdır.

Qeyri-sabit hava şəraiti dünyanın bir sıra ölkələrində hiss olunmaqda və problemlər yaratmaqdadır. Bu problemlərə diqqətin artması özünü bir sıra beynəlxalq tədbirlərin, o cümlədən elmi və praktiki konfransların keçirilməsində göstərir. İqlimin dəyişməsi üzrə dövlətlərarası komitə XXI əsrdə temperaturun qlobal yüksəlməsi nəticəsində əhalinin həyat tərzinin, iqtisadiyyatın və energetikanın dəyişdirilməsi üzrə altı alternativ ssenarini təhlil etmişdir. Bu tədqiqatlar zamanı təbii və sosial-iqtisadi sistemin həssaslığı, uyğunlaşması və zəifləməsi (dağılması) əlaqələndirilmə məsələlərinə əsas diqqət ayırmışdır.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına özünün nəzərdə tutulan milli səviyyədə müəyyən edilmiş töhfələrində qlobal iqlim dəyişmələrinin qarşısının alınması təşəbbüslərinə töhfə olaraq 1990-cı baza ili ilə müqayisədə 2030-cu ilə istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35% azalmanı hədəf kimi götürmüşdür.

Həmçinin bu iqlim dəyişməsinin qarşısının alınması üçün qəbul olunmuş qərar və qətnamələrdə hərbi sahədə bəzi hədlərin qoyulması, sənaye sahələrində atmosferi çirkləndirən qazların azaldılması və energetika sahəsində alternativ və bərpa olunan enerjidən istifadə olunması əsas məsələ olaraq dünya dövlətlərinin qarşısında tələb kimi qoyulmuşdur.

Qlobal iqlim dəyişmələrinə qarşı mübarizə yerli dövlət tədbirləri beynəlxalq tədbirlərlə birgə həyata keçrilməlidir. Hər iki səviyyədə keçrilən tədbirlər sistemində mütərəqqi, qabaqcıl texnologiyadan istifadə; enerjiyə qənaət olunması; kompleks iqtisadi, hüquqi və tərbiyəvi tədbirlərin həyata keçirilməsi nəzərə alınmalıdır.

Bu tədbirlərin həyata keçrilməsində əsas məqsəd atmosferə buraxılan parnik qazlarının miqdarının, ilk növbədə karbon qazının azaldılması sayılır.

İqlim dəyişikliyinin qarşısının alınması üçün beynəlxalq əməkdaşlığın gücləndirilməsi, alternativ enerji mənbələrinə keçid, mütərəqqi texnologiyalardan istifadə və enerjiyə qənaət tədbirləri ön plana çıxır. Hər iki səviyyədə - yerli və beynəlxalq müstəvidə həyata keçirilən tədbirlər, atmosferə buraxılan parnik qazlarının miqdarını azaltmağı hədəfləyir.

Bu yalnız iqlim dəyişikliyinə qarşı mübarizə deyil, eyni zamanda bəşəriyyətin gələcəyi, sağlamlığı və rifahı üçün atılan vacib bir addımdır. İqlim dəyişiklikləri ilə mübarizədə hər kəsin aktiv rolu olmalıdır, çünki bu yalnız mütəxəssislərin deyil, bütün bəşəriyyətin məsuliyyətidir.

**Elnarə Seyidova**
**"Coğrafiya" kafedrasının müdiri,**
**pedaqogika üzrə fəlsəfə doktoru**

**Nailə Əliyeva**
**"Coğrafiya" kafedrasının müəllimi**

## YAŞIL İNNOVASİYALAR VƏ DAVAMLI GƏLƏCƏYİN İNKİŞAFINDA AĞILLI ŞƏHƏR VƏ ƏŞYALARIN İNTERNETİ İNTEQRASİYASI

Dünyadakı şəhərlər sürətli urbanizasiya və ətraf mühit problemləri ilə mübarizə apararkən, "Əşyaların İnterneti" (IoT) tərəfindən dəstəklənən ağıllı şəhər təşəbbüsləri davamlı inkişaf üçün əsas həllər kimi ortaya çıxdı. Ağıllı şəhərlər şəhər xidmətlərini təkmilləşdirmək, resurs istehlakını azaltmaq və daha yaşıl, daha yaşana bilən mühit yaratmaq üçün rəqəmsal texnologiya və məlumatlara əsaslanan sistemlərdən istifadə edir. IoT texnologiyasını daxil etməklə, bu şəhərlər ətraf mühitə təsirlərini minimuma endirməklə enerji istifadəsi və nəqliyyatdan tutmuş suyun idarə edilməsi və tullantıların toplanmasına kimi müxtəlif funksiyaları izləyə, təhlil edə və optimallaşdıra bilər.



Ağıllı şəhərlər nədir?

Ağıllı şəhər şəhər infrastrukturunu yaxşılaşdırmaq və həyat keyfiyyətini artırmaq üçün qabaqcıl rəqəmsal texnologiyadan istifadə edir. IoT-ni dəstəkləyən cihazlar və sensorlar şəbəkələri vasitəsilə bu şəhərlər gündəlik əməliyyatları optimallaşdırmaq üçün istifadə edilə bilən real vaxt məlumatları toplayır və təhlil edir. İstər nəqliyyat sıxlığının idarə olunması, enerji tullantılarının azaldılması, istərsə də havanın keyfiyyətinin monitorinqi olsun, IoT ilə işləyən ağıllı şəhərlər məlumatları səmərəliliyi və dayanıqlığı yüksəldən faydalı informasiyaya çevirir.

Ağıllı şəhər konsepsiyası müxtəlif sektorları, o cümlədən nəqliyyat, enerji, ictimai səhiyyə və ətraf mühitin idarə edilməsini əhatə edir və əsas məqsədi həm səmərəli, həm də insanların ehtiyaclarına daha çox cavab verən şəhərlər yaratmaqdır. IoT texnologiyasının bu sahələrdə tətbiqi ağıllı şəhərləri yaşıl innovasiyaların əsas hərəkətvericiləri kimi göstərir və bu mövzu davamlı inkişafa artan qlobal diqqətlə rezonans doğurur.

IoT ağıllı şəhərlərin funksionallığında mərkəzi rol oynayır, belə ki, o davamlı monitorinq və məlumatların toplanmasını təmin edir. IoT şəhər mühitində müxtəlif sahələr arasında davamlı innovasiyaları stimullaşdırır:

1. Enerji effektivliyi və ağıllı şəbəkələr

Ağıllı şəhərlərdə IoT-nin ən effektiv tətbiqlərindən biri enerji səmərəliliyi sahəsindədir.

IoT-ni dəstəkləyən ağıllı şəbəkələr şəhərlərə enerji istifadəsi modellərini izləməyə, tələbatı proqnozlaşdırmağa və müvafiq olaraq paylanmanı idarə etməyə imkan verir. Bu şəbəkələr enerji axınını dinamik şəkildə tənzimləyə bilər ki, bu da tullantıları azaldır, kəsilmələrin qarşısını alır və külək və günəş kimi bərpa olunan enerji mənbələrini inteqrasiya etməyə kömək edir. Binaları, cihazları və infrastrukturu ağıllı şəbəkəyə qoşmaqla şəhərlər enerji tələblərini daha yaxşı tarazlaya və karbon tullantılarını minimuma endirə bilər.

2. Tullantıların ağıllı idarə edilməsi

IoT şəhər davamlılığının kritik komponenti olan tullantıların idarə edilməsində inqilab edir. Sensorlarla təchiz edilmiş ağıllı qutular onların dolduğunu aşkar edə və tullantıların yığılması xidmətlərini xəbərdar edə bilər ki, bu da optimallaşdırılmış toplama cədvəllərinə imkan verir. Bu yanaşma lazımsız yığım səfərlərini azaldır, yanacağa qənaət edir və emissiyaları azaldır. Bundan əlavə, ağıllı qutulardan toplanan məlumatlar şəhərlərə tullantı nümunələrini təhlil etməyə, təkrar emal səylərini yaxşılaşdırmağa və tullantılarla dolu sahələrin azalmasına kömək edə bilər.

3. Təkmilləşdirilmiş ictimai nəqliyyat və azaldılmış tıxac

İctimai nəqliyyatda IoT tətbiqləri marşrutları optimallaşdırmaq və real vaxt rejimində nəqliyyat sıxlığını idarə etməklə şəhər hərəkətliliyini daha davamlı edə bilər. Birləşdirilmiş nəqliyyat vasitələri, ictimai tranzit sistemləri və ağıllı işıqforlar sıxlığı minimuma endirmək, səyahət vaxtlarını azaltmaq və emissiyaları azaltmaq üçün birlikdə işləyir. Nəqliyyat vasitələrinin hərəkəti haqqında məlumat toplamaqla, şəhərlər ictimai nəqliyyatdan istifadəni, velosiped sürməyi və şəxsi avtomobildən istifadə yerinə piyada getməyi təşviq edərək, yol nəqliyyat axınını daha effektiv idarə edə bilər.

4. Havanın keyfiyyətinin monitorinqi və çirklənməyə nəzarət

Havanın keyfiyyəti şəhər yerlərində sağlamlıq və ətraf mühitin əsas problemidir. IoT ilə işləyən hava keyfiyyəti sensorları şəhərlərə real vaxt rejimində çirkləndiricilərin səviyyəsini izləməyə imkan verir, havanın keyfiyyətini idarə etmək və yaxşılaşdırmaq üçün kritik məlumatları təqdim edir. Çirklənmənin qaynar nöqtələrinin xəritəsini tərtib etməklə, şəhərlər çirklənməni azaltmaq üçün nəqliyyat məhdudiyyətlərinin tətbiqi, yaşıl zonaların yaradılması və ya sənaye emissiyalarının tənzimlənməsi kimi məqsədyönlü tədbirlər görə bilər.

5. Suyun idarə edilməsi və mühafizəsi

Su qıtlığı bütün dünyada artan problemdir və IoT şəhərlərə su ehtiyatlarını daha effektiv şəkildə idarə etməyə və qorumağa kömək edir. IoT-u dəstəkləyən su sistemləri şəhərlərə sızmaları aşkar etməyə, suyun keyfiyyətinə nəzarət etməyə və real vaxt rejimində istehlakı izləməyə imkan verir. Problemləri erkən müəyyən etməklə, şəhərlər su itkisini azalda, təhlükəsiz içməli su təmin edə və suyun məsuliyyətli istifadəsini təşviq edə bilər.

Ağıllı şəhərlər üçün həllərin tətbiqi problemləri

Potensiallarına baxmayaraq, ağıllı şəhərlər bir sıra problemlərlə üzləşirlər. IoT infrastrukturunun tətbiqi əhəmiyyətli investisiya tələb edir və bir çox şəhərlər bu texnologiyalar üçün lazımi vəsait ayırmaqda çətinlik çəkə bilirlər. Bundan əlavə, IoT cihazları böyük həcmdə məlumat yaradır ki, bu da pozuntulardan və sui-istifadədən qorunmaq üçün etibarlı məlumatların saxlanması, emalı və kibertəhlükəsizlik tədbirlərinə ehtiyac



duyur. Məlumatların məxfiliyi ilə bağlı narahatlıqlar da həll edilməlidir, çünki ağıllı şəhər sistemlərindən toplanan çoxlu məlumat məsuliyyətlə idarə olunmalıdır.

Digər problem isə IoT cihazlarının ətraf mühitə təsiridir. Sensorların, serverlərin və digər IoT infrastrukturunun istehsalı və saxlanması enerji və materiallar tələb edir və ağıllı şəhərlər böyüdükcə bu resurslara tələbat da artır. Bunu həll etmək üçün şəhərlər IoT şəbəkələrini gücləndirmək və köhnəlmiş cihazlar üçün davamlı utilizasiya təcrübələrini tətbiq etmək üçün bərpa olunan enerji variantlarını araşdırırlar.

Şəhər əhalisi artdıqca, IoT tərəfindən dəstəklənən ağıllı şəhər həlləri davamlılığın təşviqində getdikcə daha mühüm rol oynayacaq. Resursları optimallaşdırmaq, enerji səmərəliliyini artırmaq və ictimai sağlamlığı yaxşılaşdırmaqla, ağıllı şəhərlər davamlı şəhər həyatı üçün plan təklif edir. Bununla belə, bu vizyonu həyata keçirmək üçün dövlət və özəl sektorlar infrastruktura sərmayə qoymaq, məsuliyyətli siyasətlər hazırlamaq və məlumatların təhlükəsizliyini təmin etmək üçün birlikdə çalışmalıdırlar.

İllik COP iqlim konfransları kimi beynəlxalq forumlar şəhərlərə bilikləri bölüşmək, standartlar yaratmaq, ağıllı şəhər təşəbbüslərini inkişaf etdirmək və tərəfdaşlıq qurmaq üçün dəyərli imkanlar təklif edir. Şəhərlər IoT bazasında olan bu həlləri qəbul etdikcə, onlar şəhər ərazilərini həm sakinlərin rifahını, həm də planetin sağlamlığını prioritetləşdirən ekoloji cəhətdən təmiz və davamlı cəmiyyətə çevirir.

Şəhərlərin həm ağıllı, həm də eko-şüurlu olduğu davamlı gələcək vizyonu sürətlə reallığa çevrilir. Ağıllı şəhər innovasiyaları və IoT vasitəsilə dünyanın şəhər mərkəzləri yaşıl həyat üçün yeni standartlar müəyyən edir və gələcək nəsillərə fayda verəcək müsbət dəyişikliklərə təkan verir.

**Səminə Rüstəmova**
**"Elektronika və informasiya texnologiyaları" kafedrasının müəllimi**

## COP29 MÜASİR ÇAĞIRIŞLAR VƏ TARİXİ HƏQİQƏTLƏR

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Azərbaycanda keçirilməsi böyük tarixi, siyasi, iqtisadi və beynəlxalq əhəmiyyət daşıyır.

COP29 konfransı zamanı, Azərbaycan öz zəngin mədəni irsini və təbii gözəlliklərini bütün dünyaya nümayiş etdirməklə yanaşı, həm də BMT kimi mötəbər təşkilatın tədbirinə ev sahibliyi etməsi bütün Azərbaycan vətəndaşları kimi, 1987-1991-ci illər ermənilərin apardığı etnik təmizləmə siyasəti zamanı Azərbaycanın Respublikasının ayrılmaz parçası olan tarixi Vətənimiz doğma Qərbi Azərbaycandan zorla deportasiya edilərək Naxçıvanda müvəqqəti məskunlaşmış bir ziyalı kimi məndə də dərin təəssürat və böyük qürur hissi yaratdı.

Xüsusilə qeyd etməliyəm ki, 1988-ci il deportasiyanın qurbanı, həm də Azərbaycan vətəndaşı kimi qürur hissi keçiririk ki, artıq Dağlıq Qarabağ münaqişəsi tarixə qovuşub. Vaxtilə BMT-nin Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı qəbul etdiyi qətnamələrinin icra edilməməsinə görə əziyyət çəkən, haqq səsi eşidilməyən, 20 faiz torpaqları işğal edilən ölkəmiz indi dünyaya od-ocağından, doğma yurd-yuvasından didərgin salınmış qaçqın və məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı çadır şəhərciklərini, humanitar yardıma ehtiyacı olan insanların ağrılı-acılı taleyini deyil, uğurlarını və təbii gözəlliklərini nümayiş etdirir. Bununla yanaşı, ölkəmiz qlobal problemlərin həlli üçün böyük təşəbbüskarlıq göstərdiyini, sabitlik adası, tolerant və multikultural dəyərlərə malik region olduğunu bütün dünyaya göstərdi. Eyni zamanda, bildirmək istəyirəm ki, bu mötəbər tədbirin Azərbaycanda keçirilməsi əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və Müzəffər Ali Baş Komandan İlham Əliyev və hörmətli Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilən daxili və xarici siyasətin təntənəsidir. İndi fəxrlə deyə bilərik ki, ulu əcdadlarımızın, xüsusilə Ulu Öndər Heydər Əliyevin müqəddəs ruhu şaddır. Ata vəsiyyətini reallığa çevirən Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyev diplomatiya tariximizdə hər gün şanlı bir tarix yazır. Vaxtilə ulu əcdadlarımızın arzuladığı, lakin nail ola bilmədikləri ideyalar indi tarixi gerçəkliyə çevrilib.

Doğrudan da, Azərbaycan bu gün təkcə BMT-nin deyil, bir sıra nüfuzlu təşkilatların üzvü olmaqla yanaşı, əməkdaşlıq və tərəfdaşlıq konsepsiyasını dərinləşdirərək öz milli dəyərlərini dünyaya nümayiş etdirir. COP29 sədrliyinin çoxşaxəli təşəbbüslər toplusunu özündə əks etdirən loqoda buta, yarpaq və su damlaları simvollarının sintezinə dayanaraq təbii resursların əhəmiyyəti kontekstində ekoloji həssaslığa və Azərbaycanın zəngin mədəni irsinə xitab edilib. Kökləri Azərbaycan tarixi-mədəni irsinə dayanan buta motivi özündə davamlılıq və innovasiyanı ehtiva etməklə yanaşı, həm də keçmişlə gələcək arasında körpü salır. Butaların birləşməsi birliyi, illüstrativ su damlaları şəklində olan butalar isə özü-özlüyündə beş fərqli elementi ifadə edir: flora və fauna, hava və külək, su, enerji və kainat. COP29-un loqosu iqlim çağırışlarının yüksəldiyi dövrdə bəşəriyyət və ətraf mühit arasında kəsintisiz əlaqənin, ekoloji cəhətdən həssas davranış və nəticəyönlü fəaliyyətin əhəmiyyətini əks etdirir.

COP29-un ölkəmizdə keçirilməsi həm yerli, həm də xarici müşahidəçilər tərəfindən mühüm bir hadisə kimi qiymətləndirildi. Bu mötəbər tədbirin ölkəmizdə keçirilməsi Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun daha da yüksəldiyinin göstəricisidir. Bunun həm siyasi, həm də iqtisadi əhəmiyyəti vardır.

Bu tədbirin ölkəmizdə keçirilməsinin mühüm tərəflərindən biri də odur ki, dünyanın müxtəlif yerlərindən gəlmiş 70 min qonaq işğaldan azad edilmiş rayon-




larımıza səfər edərək, bu ərazilərimizlə yaxından tanış oldular. Bu tədbir Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədə fəal iştirak etdiyini və qlobal problemlərin həllində töhfə verdiyini göstərir. COP29 Azərbaycan cəmiyyətində iqlim dəyişikliyi və ekoloji problemlər haqqında maarifləndirmə səviyyəsini artırmaqla yanaşı, vətəndaşların ekoloji problemlərə qarşı daha məsuliyyətli davranış sərgiləməsinə və ekoloji layihələrdə aktiv iştirak etməsinə səbəb olacaq. Bu faydalar Azərbaycanın həm ekoloji dayanıqlığını artıracaq, həm də iqtisadi inkişafına və beynəlxalq mövqeyinə əhəmiyyətli töhfələr verəcək. Arzu edirik ki, gələcəkdə belə mötəbər tədbirlər Vətənimiz Qərbi Azərbaycanda keçirilsin.

**Süsənbər Ağamalıyeva**
**"İngilis dili və tərcümə" kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru**

# Biomüxtəlifliyin qorunması problemləri

Biomüxtəlifliyin əsasını biosenozlar təşkil edir. Biosenoz biotop (canlı orqanizmlərlə məskunlaşmış az və ya çox dərəcədə bircins (oxşar) quru və ya su hövzəsi hissəsi) daxilində məskunlaşmış, bir-biri ilə və ətraf mühitlə qarşılıqlı əlaqələri ilə səciyyələnən bitki, heyvan və mikroorqanizmlərin məcmusudur. Bir-biri ilə sıx qarşılıqlı əlaqədə olan biosenoz və biotop bu və ya digər dərəcədə dayanıqlı bir təbii kompleks - biosferin elementar funksional vahidi olan ekosistem əmələ gətirir. Deməli, biomüxtəlifiik ekosistemlərin ən vacib elementlərindən biridir. Təbii-iqlim şəraitinin, geoloji-relyef quruluşunun müxtəlifliyi və mürəkkəbliyi ilə bağlı olaraq, Azərbaycanın biomüxtəlifliyi öz zənginliyinə görə bütün dünyada ən qabaqcıl yerlərdən birini tutur. Bura səhra, yarımsəhra və bozqır, dağ-kserofit, alp və subalp çəmənlikləri, düzən və dağ meşələri, sahil və su ekosistemləri ilə, subnival və nival yüksəklik qurşaqları, digər landşaft, torpaq, bitki və heyvan müxtəlifliyi ilə, qocaman palıdları və ucaboylu çinarları ilə, təkə və maralları, cəh-cəh vuran quşları ilə, rəngbərəng kəpənəkləri və saysız-hesabsız böcəkləri ilə başdan-başa təbiətin canlı və əsrarəngiz həyatının, gözəllik və biomüxtəliflik kateqoriyalarının ən yaxşı əyani nümayişidir.

Təbiət-cəmiyyət münasibətlərinin düzgün qurulmaması, təbiətin maraqlarının nəzərə alınmaması bəşər tarixində acı nəticələrlə müşahidə olunmuşdur. Yer kürəsində geniş ərazilərin qumlu və daşlı səhralara çevrilməsi buna əyani sübutdur (Mesopotamiya, Ön Asiya, Misir, Şimali Afrika, Priney yarımadası və s.). Yer üzərindən sivilizasiyaların silinməsinə müharibələr deyil, ekoloji fəlakətlər səbəb olmuşdur.

Son 100 il ərzində dünya əhalisinin sürətli artımı təbii sərvətlərin tükənməsi, havanın, suyun və atmosferin çirklənməsi, təbii məskunlaşma yerlərinin məhv olunması ilə müşayiət olunur. Yolların salınması, boru kəmərlərinin, suvarma kanallarının çəkilişi və ərazi mənimsənilməsinin digər formaları yaşayış yerlərinin dağıdılmasına, fraqmentləşməsinə və ekoloji sistemlərin təbii xüsusiyyətlərini itirməsinə gətirib çıxarır. Torpağın eroziya və yerdəyişmə sürəti artır, bu da yarğanların çoxalmasına, əkinə yararlı sahələrin itirilməsinə səbəb olur.

Meşə və kolluqların məhv edilməsi, bir vaxtlar yaşıl örtüyü ilə göz oxşayan bozqırların, savannaların və digər ərazilərin səhralaşması fəlakətli dərəcədə sürətlə baş verir. Biz çayların axnını tənzimləyirik, yeni-yeni faydalı qazıntı yataqlarını istifadəyə veririk, təbii əraziləri kənd təsərrüfatı əkinləri və sənaye müəssisələri üçün təmizləyirik. Təbii sistemlərlə birgə bitki və heyvan orqanizmləri kütləvi surətdə məhv olur. Növlərin azalması dəyişən mühitə qarşı uyğunlaşmaqda mühüm rol oynayan genetik müxtəlifliyi (buraya ev heyvanları və mədəni bitkilər də aiddir) kasadlaşdırır. Təbiətə antropogen təsirin mənfi nəticələrinin qarşısının alınması üçün atılan addımlara və sərf edilən çox böyük vəsaitə baxmayaraq, xoşagəlməz dəyişikliklərin ümumi tendensiyası qalmaqdadır. Təbii ehtiyatlardan hədsiz istifadənin stimullaşdırılması halları bu tendensiyanı bir az da gücləndirir. İnsan fəaliyyəti nəticəsində növlərin itməsi onların bu səbəblərlə bağlı yox olmasından 10000 dəfə sürətlə baş verir. Ərazilərin mənimsənilməsi və meşələrin plansız qırılaraq məhv edilməsi nəticəsində fotosintezin ümumi məhsuldarlığı azalır. İnsan bu azalmanın və deməli, atmosferin oksigenlə təmin olunmasında yaranan problemlərin qarşısını heç cür ala bilmir.

Araşdırmalar göstərir ki, növlər müəyyən mühitdə təbii seçmə prosesi nəticəsində yaranır, sonra Yer kürəsinin müəyyən ərazilərində yayılaraq, yeni növlərə başlanğıc verir, amma əksər hallarda özləri məhv olur. Alimlərin hesablamalarına görə, Yer üzündə mürəkkəb üzvi həyatın yaranmasından bu günlərə kimi növlərin beş kütləvi məhv olma hadisəsi baş vermiş, onların hər biri böyük təbii qəzanın nəticəsində meydana çıxmışdır. Məsələn, antropoloq və geoloqların mülahizələrinə görə, 63-65 mln. il bundan əvvəl Yer kürəsinin nəhəng meteoritlə toqquşması bioloji növlərin yarıdan çoxunun, dinozavrların və digər nəhəng heyvanların dominant qruplarının tamamilə qırılması ilə nəticələnmişdir.

Hazırda mövcud olan heyvan və bitki növlərinin yarısının praktiki məskunlaşma yerləri olan rütubətli tropik meşələr indi fəlakətli sürətlə məhv olur. Bütün dünyada olduğu kimi, burada da meşələr oduncaq əldə edilməsi məqsədilə qırılır, sonra onların qalıqları orada məskunlaşan insanlar tərəfindən məhv edilir. Bundan sonra isə bitki örtüyündən məhrum olub yoxsullaşmış torpaq intensiv eroziyaya məruz qalır və son nəticədə məhsuldarlığını tamam itirir. Dünyada baş vermiş qlobal ekoloji dəyişikliklər insanların sağlamlığına və ətraf mühitə öz mənfi təsirini göstərmişdir. Müasir qlobal problemlərin meydana gəlməsinin əsas səbəbi cəmiyyət, insan və təbiət arasındakı ziddiyyətlərdir. Bu ziddiyyətlərə ekoloji problemləri də aid etmək olar. Təbiət və cəmiyyətin qarşılıqlı münasibətləri və bu münasibətlərin təsiri nəticəsində meydana çıxan qlobal ekoloji problemlərin səbəblərinin öyrənilməsi günümüzün ən aktual məsələlərindən biridir. Odur ki, biz ətraf mühitin biomüxtəlifliyin qorunmasında rolu, müasir dünyanın ekoloji problemləri, onların öyrənilməsi, tədqiq olunması, tənzimlənməsi yollarını araşdırmağı qarşımıza məqsəd qoyuruq.

İnsan məskənləri və məskunlaşma mühiti – şəhərlərin inkişaf perspektivləri, onların kənd əhalisi ilə optimal nisbəti insanların məskunlaşma mühitinin keyfiyyətinin yaxşılaşdırılması, şəhər və təbii mühit arasında qarşılıqlı əlaqənin olması, bu məsələlər üzrə məlumatın toplanılması və bu istiqamətdə elmi tədqiqatların daha da inkişaf etdirilməsi – BMT-nin ətraf mühiti üzrə proqramının öz fəaliyyətinin bu önəmli istiqaməti çərçivəsində qarşısına qoyduğu başlıca ideyalardır.

Təbiət-cəmiyyət münasibətlərinin təməl daşını ekoloji istifadə təşkil edir. Ekoloji istifadədə əsas iki aspekti nəzərdə tutur - cəmiyyətin iqtisadi maraqlarının ödənilməsini və cəmiyyətin yaşaması üçün labüd olan sağlam ətraf mühitlə təmin olunmasını.

***Hilal Qasımov***
***Biologiya üzrə fəlsəfə doktoru, dosent***

***Mürsəl Seyidov***
***Biologiya üzrə fəlsəfə doktoru***

# Yaşıl iqtisadiyyat və COP: Davamlı gələcəyə doğru addımlar

İqlim dəyişikliyi ilə mübarizə və daha davamlı bir dünya qurmaq üçün son onilliklərdə qlobal miqyasda müxtəlif tədbirlər görülməkdədir. Bu səylərin önündə Yaşıl iqtisadiyyat və COP (Tərəflər Konfransı) dayanır. COP, qlobal iqlim siyasətinin müəyyən edildiyi və iştirakçı ölkələrin öhdəliklər götürdüyü beynəlxalq toplantıdır. Yaşıl iqtisadiyyat isə bu siyasətləri həyata keçirmək üçün zəruri olan iqtisadi modeli təmin edir.

İqlim dəyişikliyi, qlobal cəmiyyətlərin və ekosistemlərin üzləşdiyi ən böyük problemlərdən biridir. COP konfransları qlobal iqlim hədəflərini müəyyən edərkən, yaşıl iqtisadiyyat bu hədəflərə çatmaq üçün iqtisadi bir çərçivə təqdim edir. Birlikdə, bu iki güc iqlim dəyişikliyi ilə mübarizə və davamlı bir gələcəyin qurulması üçün möhkəm bir təməl yaradır. Yaşıl iqtisadiyyatın COP qərarları ilə uyğunlaşması və dəstəklənməsi, planetimizi qorumaq və gələcək nəsillərə daha yaşıl, daha sağlam bir dünya miras qoymaq üçün ən vacib addımlardandır.

Yaşıl iqtisadiyyat, iqtisadi rifahın artırılması ilə yanaşı, sosial ədalətin təşviqi və ətraf mühitin qorunması ilə də bağlıdır. Hər kəs üçün yaşıl iş yerlərinin yaradılması, ətraf mühitin qorunması və davamlı təbii resurs istifadəsi yaşıl iqtisadiyyatın əsas məqsədlərindəndir. Yaşıl iqtisadiyyat, iqtisadi inkişafın ətraf mühitə zərər vermədən və təbii sərvətləri qoruyaraq davam etməsini təmin edir. Bu məqsədlərə nail olmaq üçün bərpa olunan enerji mənbələrindən istifadənin artırılması, enerji səmərəliliyi, təmiz texnologiyaların tətbiqi və yaşıl nəqliyyat sistemlərinin inkişafı kimi strategiyaların həyata keçirilməsi vacibdir. Bu yanaşmalar, həmçinin iqlim dəyişikliklərinin mənfi təsirlərinin azaldılmasına kömək edir.

Ekosistemlərin və biomüxtəlifliyin qorunması, sağlam və dayanıqlı bir planetin təmin edilməsi üçün həyati əhəmiyyət daşıyır. Bu, təbii mühitin, flora və fauna növlərinin, həmçinin onların qarşılıqlı əlaqələrinin qorunmasını əhatə edir. Ekosistemlərin mühafizəsi, ekoloji tarazlığın saxlanılmasına, təbii resursların davamlı istifadəsinə və iqlim dəyişikliyinin təsirlərinin azaldılmasına kömək edir. Biomüxtəlifliyin artırılması ekosistemlərin dözümlülüyünü gücləndirir, müxtəlif bioloji növlərin yaşaması üçün uyğun mühit yaradır və ekosistem xidmətlərinin (su təchizatı, torpaq məhsuldarlığı, havanın təmizlənməsi) davamlılığını təmin edir, həmçinin insanların qida, dərman və digər ehtiyaclarını qarşılamaq üçün zəruri olan resursların mövcudluğunu təmin edir. Ekosistemlərin və biomüxtəlifliyin qorunması, gələcək nəsillər üçün də faydalıdır.

Davranış dəyişiklikləri və yaşıl istehlak vərdişlərinin formalaşdırılması, davamlı inkişafın təmin edilməsi və ətraf mühitin qorunması üçün vacibdir. Yaşıl istehlak, enerji səmərəli məhsulların, bərpa olunan resurslardan istehsal olunan malların və



ekoloji təmiz xidmətlərin seçilməsini təşviq edir. İstehlakçıların bu vərdişləri mənimsəməsi, ətraf mühitə olan təsiri azaltmağa, karbon izini minimuma endirməyə və təbii resursların daha davamlı istifadəsinə kömək edir. Davranış dəyişiklikləri, eyni zamanda insanları daha məsuliyyətli istehlakçı olmaya və ekosistemlərin qorunmasına aktiv şəkildə dəstək olmağa təşviq edir.

COP tədbirlərinin mühüm qərarlarından biri Paris Sazişidir. Bu sazişin əsas



məqsədi qlobal karbon emissiyalarının azaldılmasını, təmiz texnologiyaların tətbiqini və adaptasiya tədbirlərinin gücləndirilməsini zəruri edir.

COP tədbirlərində iştirak edən ölkələr, yaşıl iqtisadiyyatın tətbiqi ilə aşağıdakı istiqamətlərdə irəliləyiş əldə edirlər:

COP tərəfindən qəbul edilən karbon emissiyasını azaltma öhdəlikləri, yaşıl iqtisadiyyatın əsas məqsədlərindən biridir. Bərpa olunan enerji mənbələrinə keçid, sənayedə və nəqliyyatda karbon izinin azaldılması yaşıl iqtisadiyyatın tərkib hissəsidir.

COP tədbirlərində dövlətlər, enerji sektorunda təmiz texnologiyaların tətbiqinə dair razılaşmalara gəlir. Günəş, külək və su kimi bərpa olunan enerji mənbələrinin iqtisadiyyatın əsas enerji mənbələri olaraq möhkəmlənməsi yaşıl iqtisadiyyatın vacib tərkib hissəsidir.

COP tədbirlərində inkişaf etməkdə olan ölkələrə yaşıl iqtisadiyyata keçidi dəstəkləmək üçün fondlar və texnologiya transferi məsələləri müzakirə edilir. Bu dəstək yaşıl iqtisadiyyatın inkişaf etməsinə və karbon emissiyalarının azaldılmasına şərait yaradır.

COP toplantıları iqlim dəyişikliyinin təsirlərinə uyğunlaşma tədbirlərinin gücləndirilməsini də dəstəkləyir. Yaşıl iqtisadiyyat isə ekosistemlərin və təbii resursların davamlı şəkildə idarə edilməsini təmin edərək, cəmiyyətlərin və iqtisadiyyatların iqlim dəyişikliklərinə uyğunlaşmasına kömək edir.

Yaşıl iqtisadiyyat və COP-un məqsədləri bir-birini tamamlayır və iqlim dəyişikliyi ilə mübarizədə ortaq hədəflərə xidmət edir. Bu iki yanaşmanın birləşməsi qlobal səviyyədə ətraf mühitin qorunması və sosial-iqtisadi rifahın artırılması üçün vacibdir. COP tərəfindən qoyulan iqlim hədəflərinə çatmaq üçün yaşıl iqtisadiyyatın sürətlə tətbiqi və geniş yayılması zəruridir.

**Məhsəti Əsgərova**
**"İqtisadiyyat və marketinq" kafedrasının müəllimi**

# QLOBAL İQLİM BÖHRANINA QARŞI MÜBARİZƏNİN MAKROİQTİSADİ ÜZÜ



İqlim böhranı ilə mübarizə indiyə qədər, əsasən, qlobal və milli siyasətlərdə və fəaliyyət planlarında, səbəb olduğu ekoloji zərər fonunda icraedici qüvvə kimi həyata keçirilib. Bununla belə, illər ərzində hazırlanmış kompleks iqtisadi modellər göstərmişdir ki, iqlim dəyişikliyi müxtəlif sektorlarda yaratdığı stres və səbəb olduğu fəlakətlərin dağıdıcı təsirləri ilə dövrün qlobal iqtisadiyyatı üçün ən böyük təhdidlərindən biridir. İş o yerə çatıb ki, elmi araşdırmalar qlobal temperaturun artması nəticəsində 2030-cu ildə Şimal Buzlu Okeanının tamamilə əriməsi nəticəsində dünya üzrə ticarət yollarının əhəmiyyətli dərəcədə dəyişə biləcəyini proqnozlaşdırır.

İqlim böhranının iqtisadi ölçüləri ilk dəfə 1995-ci ildə nəşr olunan İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panelin (IPCC) İkinci Qiymətləndirmə Hesabatında hərtərəfli müzakirə edilmişdir. Lakin zaman keçdikcə istənilən qlobal və milli iqlim siyasətinin həyata keçirilməməsi iqlim böhranının iqtisadi zərərini və bu zərərin aradan qaldırılması üçün tələb olunan istixana qazı emissiyalarının azaldılması xərclərini əhəmiyyətli dərəcədə artırmışdır. Məsələn, 2018-ci il İqtisadiyyat üzrə Nobel Mükafatı laureatı William Nordhaus qlobal temperaturun 4 dərəcə selsinin artmasının qlobal Ümumi Daxili Məhsulun (ÜDM) təxminən 4% itkisinə və 6 dərəcə selsinin təxminən 11% itkiyə səbəb olacağını bildirmişdir. Nordhaus əsərini dərc etməzdən bir müddət əvvəl, İngilis iqtisadçısı Nikolas Stern 2007-ci ildə nəşr olunan "İqlim Dəyişikliklərinin İqtisadiyyatı" kitabında iqlim dəyişikliyinə qarşı hərəkətsizlik ssenarisində iqlim böhranının ən pis təsirlərinin qarşısının alınmasının illik xərcinin olduğuna diqqət çəkdi. Qlobal iqtisadiyyat üzrə qlobal ÜDM-in 1%-ni təşkil edir ki, bu da qlobal temperatur artımının qlobal iqtisadiyyat üçün nə qədər böyük təhlükə olduğunu sübut edir.

İqlim böhranının mənfi təsirlərinin azaldılması və faydaya çevrilməsinin yolu qlobal iqtisadiyyatın daha davamlı yanaşma və təcrübələrlə yenilənməsindən asılıdır. Bu kontekstdə həyata keçirilmiş və hələ də həyata keçirilməkdə olan bir sıra iqtisadi modellər mövcuddur. Bu modellər, əsasən, "yaşıl iqtisadiyyat", "az karbonlu iqtisadiyyatı", "bərpa olunan enerji iqtisadiyyatı" və "dairəvi iqtisadiyyat" kimi başlıqlar altında təsnif edilir və onların nəzəriyyə, tətbiq və mərhələlərində bəzi ortaq nöqtələri olduğu bilinir.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair müəyyənləşdirilən beş Milli Prioritetdən biri Azərbaycanın təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi olmasıdır. Ölkənin perspektiv iqtisadi inkişafı ilə bərabər, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin edilməlidir. Bu prioritet daxilində strateji dövrdə iki məqsədin - yüksək keyfiyyətli ekoloji mühit və "yaşıl enerji" məkanı - effektiv reallaşdırılmasına nail olunmaq hədəflənir.

Yaşıl iqtisadiyyat, gələcək nəsilləri əhəmiyyətli ekoloji risklərə və ya ekoloji çatışmazlıqlara məruz qoymadan uzunmüddətli perspektivdə insan rifahının yaxşılaşdırılması ilə nəticələnən malların və xidmətlərin istehsalı, paylanması və istehlakı ilə əlaqəli iqtisadi fəaliyyətlər sistemi kimi müəyyən edilə bilər. Yaşıl iqtisadiyyat, davamlı iqtisadiyyat modelində sistematik iqtisadi artımın ənənəvi anlayışı bir kənara qoyulur və aşağı karbonlu, resursdan səmərəli istifadə edən və sosial baxımdan inklüziv iqtisadi inkişaf nəzərdə tutur. Yaşıl iqtisadiyyat iqtisadiyyatın ətraf mühitdən (resurslar və təsir baxımından) asılılığını azaltmaq və istehsalla-istehlakın planet daşıma qabiliyyəti daxilində həyata keçirilməsini təmin etmək məqsədi daşıyır.

Paylaşma iqtisadiyyatı fərdi malları (maşınlar, mənzillər, iş maşınları kimi) çoxlu sayda insan üçün əlçatan edən istehlak və mülkiyyət tərzinə aiddir. Paylaşma iqtisadiyyatı dövlət və ya özəl operatorlar (məsələn, ictimai nəqliyyat, yerli taksi xidmətləri, ev kirayəsi xidmətləri) tərəfindən təmin edilən paylaşılan xidmətlər ənənəsinə əsaslanır. Bu yanaşma ilə tətbiq edilən əsas yenilik bu cür məhsulların daha çox insan tərəfindən istehlakını asanlaşdırmaq üçün onlayn platformalardan istifadə edilməsidir. Məsələn, iqlim böhranı ilə mübarizə kontekstində bərpa olunan enerji kooperativləri paylaşma iqtisadiyyatının ən yaxşı tətbiqlərindən biridir. Bərpa olunan enerji kooperativləri müəyyən bir cəmiyyətin ənənəvi enerji mənbələrindən (təbii faza, neft, kömür kimi) və ənənəvi enerji təminatçısı təşkilatlardan (məsələn, enerji istehsalı və paylanmasına cavabdeh olan dövlət və özəl şirkətlər) asılılığını azaltmaq üçün yaradılmış kollektiv və yerli enerji istehsalı mərkəzləridir. Enerji kimi müxtəlif inkişaf sahələrində istehlak və istehsal ehtiyaclarının davamlı şəkildə qarşılanması əhəmiyyətli iqtisadi transformasiya tələb edir və paylaşma iqtisadiyyatı bu kontekstdə yaradıcı və həll yönümlü təcrübələr təklif edir.

"Az karbonlu iqtisadiyyat" üçün indiyədək müxtəlif təriflər verilmişdir. Bu təriflər nəticəsində aşağı karbonlu enerji, aşağı karbonlu həyat, aşağı karbonlu cəmiyyət, aşağı karbonlu şəhər, aşağı karbon turizmi kimi yeni anlayışlar "Az Karbonlu İqtisadiyyatın" alt başlıqları olaraq ortaya çıxır. Bir-biri ilə əlaqəli olan, lakin bəzi fundamental fərqlərə malik olan bu anlayışlar bütövlükdə "Az Karbonlu İqtisadiyyatı" müəyyən etsə də, digər davamlı iqtisadiyyat modellərindən fərqləndirən aspektləri müzakirə edilmir. "Az Karbonlu İqtisadiyyat" istixana qazı emissiyalarını minimuma endirməyə yönəlmiş inkişaf modelidir. Bu baxımdan, vurğulanan ən əsas iki anlayış 1-resurs səmərəliliyi və 2-enerji səmərəliliyidir. 2012-ci ildə Avropa Komissiyası tərəfindən dərc edilmiş direktivdə, AB sərhədləri daxilində qurulacaq az karbonlu Avropa iqtisadiyyatının qurulacaq ağıllı (aşağı enerji / enerjiyə qənaət edən) isitmə və soyutma sistemləri və istifadə ediləcək elektrik / hibrid avtomobillərlə sürətləndiriləcəyi vurğulanır.

Dairəvi iqtisadiyyata keçid iqlim dəyişikliyinə qarşı əsas fəaliyyət istiqamətlərindən biri hesab olunur. Dairəvi iqtisadiyyat modeli resursdan daha səmərəli və ekoloji cəhətdən təmiz bir cəmiyyət yaratmağa kömək edə bilər. Dünya elmi ədəbiyyatlarında Dairəvi iqtisadiyyat mövzusunun öyrənilməsi hələ tam nəzərdən keçirilməyib və iqtisadçılar, ekoloqlar üçün yeni tədqiqat sahəsidir.

Dairəvi iqtisadiyyat istehsal prosesinə diqqət yetirir və iqtisadiyyatın bütün komponentlərinə tətbiq edilən "yaşıl-təkrar emal" prinsipindən ibarətdir. Dairəvi model təbii sərvətlərin həyat dövrü boyu səmərəli və davamlı idarə olunmasını təşviq etməklə materialların təkmilləşdirilməsini, yenilənməsini və təkrar istifadəsini təşviq edir. Dairəvi iqtisadiyyat məhsul istehlakında və xammal istifadəsində ənənəvi prinsipləri geridə qoyur. O, yeni resurslara və enerji girişlərinə tələbi azaldan və hasilat, karbon emissiyaları və tullantıların istehsalı baxımından ətraf mühitə təzyiqi minimuma endirilməsi yanaşmasını tətbiq edir. Beləliklə, dairəvi iqtisadiyyat mahiyyət etibarı ilə məhsul dizaynından asılıdır, hansı ki, xarab olan və ya köhnəlmiş məhsulun hər bir hissəsini əvəz etməklə həmin məhsulun ömrünü demək olar ki, qeyri-müəyyən müddətə uzatmaq məqsədi daşıyır. Dairəvi iqtisadiyyat anlayışı akademik ədəbiyyatda yeni yaranmışdır və indi getdikcə daha çox ölkə onu dövlət səviyyəsində tanıyır, çünki müasir dünyada ekoloji problemlər həlli ən çətin məsələdir. Buna görə də idarəetmənin aktual vəzifələri ətraf mühitə vurulan ziyanların minimizə edilməsi və istehlak olunan tullantıların təkrar emalıdır.

**Təhmasib Quluzadə**
**"İqtisadiyyat və marketinq" kafedrasının müəllimi**

# COP29-a ev sahibliyi və ya ölkəmizin dünya arenasındakı nüfuzu




BMT İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Burada tərəflər Konvensiyaya üzv olan 198 ölkədir. Bu konfrans zamanı dünya liderləri Tərəflərin öhdəlikləri üzrə irəliləyişlərini qiymətləndirmək və iqlim dəyişmələri ilə mübarizədə ən yaxşı həll yolları barədə müzakirələr aparmaq məqsədilə bir araya gəlirlər.

Dövlət başçısı cənab İlham Əliyevin apardığı uğurlu siyasətin nəticəsi olaraq bu il (COP29) noyabr ayında Bakıda keçirildi. Məhz bu uğurlu siyasət nəticəsində regional və qlobal enerji və nəqliyyat layihələrində iştirak sayəsində Azərbaycanın beynəlxalq səviyyədə nüfuzu xeyli artıb və apardığı siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Ölkəmizin müstəqil siyasəti, prinsipial mövqeyi, beynəlxalq hüquqa bağlılığı və eyni zamanda ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı.

COP29 konfransının ölkəmizdə keçirilməsinin əsas əhəmiyyəti ondadır ki, antiterror əməliyyatından iki ay yarım sonra COP29 konfransının ölkəmizdə keçirilməsi ideyası dünya ölkələri tərəfindən qəbul olundu və beləliklə, bütün dünya ictimaiyyəti bir daha Azərbaycana öz dəstəyini ifadə etdi. Bakıda COP29 konfransının keçirilməsi beynəlxalq aləmin hər bir üzvünün razılığı ilə mümkün olmuşdur. Yəni burada yekdil mövqe bir daha özünü göstərdi.

Düzdür, antiterror əməliyyatından sonra bəzi Qərb ölkələri Azərbaycana əsassız ittihamlar irəli sürdü. Bizə qarşı irəli sürülmüş bu ittihamların heç bir əsası yoxdur. Çünki Azərbaycan öz suveren ərazisində separatçılığa qarşı, işğalçılara qarşı antiterror əməliyyatı keçirərək beynəlxalq hüququn aliliyini özü bir daha təmin etdi və eyni zamanda bütün humanitar normalara riayət edərək suverenliyinin bərpasına nail oldu. Bu gün bütün dünyada hamı ölkəmizi və onun paytaxtı Bakını tanıyır.

İqlim dəyişikliyi ilə mübarizədə qlobal səyləri birləşdirən bu konfrans ölkələrin karbon emissiyalarını azaltmaq, davamlı inkişafı təşviq etmək və iqlim dəyişikliyinə adaptasiya olmaq üçün konkret tədbirlər görməsini təmin edir. COP29 Paris Sazişi kimi qlobal razılaşmaların icrasını təmin etmək və iqlim dəyişikliyi ilə mübarizədə daha irəli addımlar atmaq üçün mühüm bir platformadır. Bu konfransda iqlim dəyişməsi daha sağlam, daha yaxşı təhsil almış və adekvat bacarıqlı şəxslər, xüsusən də gənclər tərəfindən dəstəklənən bütün cəmiyyət yanaşmasını tələb etdi.

**Valeh Əlixanov**
**"Çağırışaqədərki hazırlıq və mülki müdafiə" kafedrasının dosenti**

# COP 29: İqlim dəyişikliyi ilə mübarizədə Azərbaycanın rolu

COP29 iqlim dəyişikliyi ilə mübarizənin qlobal səviyyədə müzakirə edildiyi əhəmiyyətli tədbirdir. Hər il keçirilən bu konfrans, dünya ölkələrinin iqlim siyasətini formalaşdırmaq, karbon emissiyasını azaltmaq və davamlı inkişaf məqsədlərinə nail olmaq üçün bir araya gəlməsini təmin edir.

COP29-un qarşıya qoyduğu məqsədlərdən biri karbon emissiyasının azaldılmasıdır. İqlim dəyişikliyi XXI əsrin ən böyük problemlərindən biridir. İstixana qazlarının atmosferdəki konsentrasiyasının artması nəticəsində meydana gələn istixana (parnik) effekti, yeni günəşin istilik enerjisinin xeyli hissəsinin yer üzərində tutulması, qlobal istiləşmə ekosistemlərdə, insan sağlamlığında və iqtisadiyyatlarda ciddi fəsadlar yaratmaqdadır. Bəşəriyyətin ən əsas məqsədi həmin böhranla mübarizə aparmaq və onun dağıdıcı təsirlərinin qarşısını almaq üçün 2100-cü ilədək qlobal temperatur artımını 2ºC altında saxlamaqır. Bu məqsədə çatmaq üçün Paris İqlim Sazişi qlobal istiləşməni sənayedən əvvəlki səviyyədən maksimum 1,5°C-yə qədər məhdudlaşdırmağı nəzərdə tutur.

Azərbaycan da bərpa olunan enerji sahəsində qabaqcıl ölkələr sırasına yüksəlmək əzmindədir və bu məqsədlə zəngin külək və günəş potensialından istifadə edir. Bu, həmçinin ölkənin 2050-ci ilə qədər istixana qazı emissiyalarını 40% azaltmaq planının mühüm tərkib hissəsidir. Ölkə 2030-cu ilə qədər elektrik enerjisində bərpa olunan enerjinin qoyuluş gücü üzrə payını 30%-ə çatdırmaq və yaşıl enerji sahəsində lider olmaq üçün mövcud enerji sistemini şaxələndirir. Azərbaycan bu sahədə nümunəvi ölkə olaraq 1.5°C hədəfinə uyğun olaraq növbəti Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr sənədi çərçivəsində öz milli hədəflərini yeniləyəcək.

Burada ikinci əsas məsələ isə maliyyə dəstəyidir. İnkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyi ilə mübarizəsi üçün maliyyə resurslarına ehtiyacı var. COP 29-da inkişaf etmiş ölkələrin, bu ölkələrə dəstək verməsi və maliyyə mexanizmlərinin gücləndirilməsi əsas məsələlədən biri idi.

Texnoloji innovasiyalar vasitəsi ilə iqlim dəyişikliklərinin təsirlərini azaltmaq və uyğunlaşma üçün yeni texnologiyaların inkişafı və tətbiqi önəmlidir. Konfransın bu sahədəki yenilikləri paylaşması və genişləndirilməsi məsələsi günümüz üçün əsas məsələlərdən biridir.

COP 29-da əsas müzakirə edilən məsələ, Azərbaycan üçün də önəmli olan enerji keçidi məsələsidir. Fosil yanacaqlardan bərpa olunan enerji mənbələrinə keçid, qlobal istiləşmənin qarşısını almaq üçün vacib olması ilə bərabər, həm də enerji təhlükəsizliyini artıracaqdır.

COP29 iqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi, ölkələrin daha irəliləyişli hədəflər müəyyən etməsi və innovativ hədəflərin tapılması üçün əhəmiyyətli platformadır. İqlim dəyişikliyinin təsirlərini azaltmaq və davamlı bir gələcək qurmaq üçün bu konfransın nəticələri nəinki Azərbaycan Respublikası, eləcə də dünya üçün əhəmiyyət daşıyır.

COP29-un nəticələri, iqlim siyasətinin gələcəyini müəyyən edəcəkdir. Hər bir ölkənin öz müvafiq strategiyalarını inkişaf etdirməsi, qlobal iqlim hədəflərinə uyğun olaraq fəaliyyət göstərməsi zəruridir. Bu proses yalnız iqtisadiyyat və ekoloji tarazlıq baxımından deyil, eyni zamanda sosial ədalət və insan hüquqları baxımından da əhəmiyyətlidir.

**Validə Hacıyeva**
**"Elektroenergetika mühəndisliyi" kafedrasının dosenti**

# YAŞIL DÜNYA NAMİNƏ – EKOLOJİ PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ YOLLARI

Bəşəriyyətin gəlişi və inkişafı ilə təkamül prosesi nəzərəçarpacaq dərəcədə dəyişdi. Sivilizasiyanın ilkin mərhələlərində kənd təsərrüfatı üçün meşələrin kəsilməsi və yandırılması, heyvanların otarılması və vəhşi heyvanların ovlanması, müharibələr bütün bölgələri viran qoydu, bəzi bitki və heyvan növlərinin məhvinə səbəb oldu. Nəhəng kütlələr artan maddi ehtiyaclarını ödəmək üçün ehtiyatlardan istifadə etmək qabiliyyətini (həm üzvi, həm də canlı və mineral maddələr) artırdı.

Genişmiqyaslı xarakter alan atmosferin çirklənməsi çaylara, göllərə, su anbarlarına, torpaqlara ziyan vurub. Çirkləndiricilər və onların çevrilmə məhsulları atmosferdən gec-tez Yerin səthinə keçir. Bu vəziyyət həm su obyektlərində, həm də yerdə birbaşa tullantı axınının olması ilə əhəmiyyətli dərəcədə ağırlaşır. Kənd təsərrüfatı torpaqlarının böyük sahələri müxtəlif pestisidlərin və gübrələrin təsirinə məruz qalır, zibilxanaların miqyası böyüyür. Sənaye müəssisələri tullantı sularını birbaşa çaylara tökürlər. Yataqlardan gələn tullantı suları da çaylara və göllərə axır. Qrunt suları da çirklənir – hansı ki, şirin suyun əsas anbarıdır. Şirin suların və torpaqların insan tərəfindən çirklənməsi bumeranq kimi yenidən insanlara qida və içməli su ilə qayıdır. Əhalinin artması və kənd təsərrüfatının,



sənayenin, tikintinin və nəqliyyatın genişlənməsi Avropa və Şimali Amerikada ("özlərini mədəni hesab edən vəhşilər") meşələrin kütləvi qırılmasına səbəb oldu.

Çirklənmənin - neft və neft məhsulları ilə çirklənmə, sənaye istehsalının çirkab suları, kənd təsərrüfatı istehsalının mineral və üzvi gübrələri, habelə məişət çirkab suları ilə çirklənmə, ağır metalların ionları ilə çirklənmə, turş yağışlarla çirklənmə, radioaktiv çirklənmə, istilik çirklənməsi, mexaniki çirklənmə, bakterial və bioloji çirklənmə kimi növləri var.

Dünya iqtisadiyyatı ildə 1500 km3 tullantı su buraxır. Müxtəlif dərəcədə təmizlənməli olan çirkab sularına təbii xassələr vermək və biosferdə təmizlənmək üçün 50-100 qat artlq təmiz su qatmaq tələb olunur. Beləliklə, sənaye fəaliyyəti nəticəsində şirin su bərpa olunan resurs olmaqdan çıxarıldı. Qlobal miqyasda, həmçinin Azərbaycan Respublikasında, eyni zamanda Naxçıvan Muxtar Respublikasında yerləşən su hövzələrinin və ərazidən axan çayların tullantılarla çirklənməsinin qarşısını almaq, təbiətimizi qorumaq, praktiki təklif və tövsiyələrlə mübarizə aparmaq günümüzün ən aktual məsələsidir.

Peyk təsvirləri və kosmik müşahidələrdən istifadə etməklə ölkənin aktiv kənd təsərrüfatı ərazilərində əkin növlərinin xəritəsi, o cümlədən pivot suvarma sistemlərinin coğrafi məlumat bazasının yenilənməsi üzrə rəqəmsal xəritənin hazırlanması böyük əhəmiyyətə malikdir. Əsas məqsəd iqlim dəyişikliyi ilə mübarizə çərçivəsində peyk təsvirləri əsasında iqlimin kənd təsərrüfatına təsirlərinin qiymətləndirilməsi işlərinin aparılmasıdır.

Məlumdur ki, kənd təsərrüfatı hava və iqlimə çox həssas olan sahədir. İqlim dəyişiklikləri (temperatur, yağıntı və şaxta vaxtı kimi) bitkilərin vegetasiya dövrünü uzadır və ya bəzi bölgələrdə yetişdirilən kənd təsərrüfatı məhsullarının əkinçilik imkanlarını çətinləşdirir, aqroekosistemə mənfi təsir göstərir. Hazırda qlobal miqyasda kənd təsərrüfatı əməliyyatlarının təxminən 30-40%-də məhsuldarlığı və əkin sahələrinin davamlılığını artırmaq üçün peyk məlumatlarından istifadə olunur. Bu peyklər vasitəsilə məhsulun sağlamlığının monitorinqi, məhsuldarlığın proqnozlaşdırılması, su ehtiyatlarının idarə edilməsi və zərərvericilərin aşkarlanması daxil olmaqla, dəqiq əkinçilik üçün mühüm məlumatlar əldə edilir.

Qalıq yanacaq istifadəsinin yayılması və bunun nəticəsində atmosferə atılan istixana qazlarının artması dünya üzrə orta temperaturun 0.6-1.50 dərəcə yüksəlməsinə səbəb olub. Qlobal temperaturun artması üzündən hava şəraiti dəyişib - ekstremal hava hadisələri və təbii fəlakətlər daha tez-tez baş verir. Meşə yanğınları, sel, tufan, torpaq sürüşməsi, quraqlıq kimi hadisələr çoxalıb.

Qlobal istiləşmə və iqlim dəyişikliyi nəticəsində qasırğalar, quraqlıqlar və daşqınlar kimi ekstremal hava hadisələri daha tez-tez baş verir. Bu hadisələr qida və su təhlükəsizliyinə, quraqlıq və ekstremal hava hadisələri olan regionlarda mənimsəmə münaqişələrinin artmasına səbəb olur. İqlim dəyişikliyi insan sağlamlığına təsir edərək xəstəliklərin artmasına, başlıca olaraq, qan-damar, tənəffüs problemlərinin yaranmasına, onkoloji xəstəliklərin, anadangəlmə patologiyaların artmasına, infeksion və sahib orqanizmlər vasitəsilə xəstəliklərin yayılmasına səbəb olur. Bundan əlavə, temperaturun yüksəlməsi və yaşayış yerlərinin dəyişməsi, bir çox bitki və heyvan növlərini təhdid altında saxlayır. Bu, biomüxtəlifliyin itirilməsinə və ekosistemlərin tarazlığının pozulmasına səbəb olur.

Hazırda bu qəbildən olan problemlərdə Azərbaycan xüsusi diqqət cəlb edir. Qlobal iqlim dəyişikliyi ilə bağlı müzakirələrin ən yüksək platforması olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına ev sahibliyinin ölkəmizə həvalə olunması da bu mənada təsadüfi deyil. Məsələn, "yaşıl enerji"nin inkişafı və onun dünya bazarlarına çıxışı hazırda Azərbaycanın enerji siyasətinin prioritetidir. Ölkəmizdə energetika sahəsində bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi Prezident cənab İlham Əliyev tərəfindən prioritet vəzifə olaraq irəli sürülüb və 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bərpa olunan enerjinin payının 30 faizə çatdırılması hədəf kimi müəyyənləşdirilib. Həmçinin ölkəmizdə keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası iqlim dəyişikliyinə yeni yanaşmalar yaradaraq müxtəlif maraqlı tərəflər arasında əməkdaşlığa təşviq etdi. Dünyada hər kəs gündəliyimizin yaşıl enerji ilə bağlı olmasını bir daha gördü.



Azərbaycanın böyük "yaşıl enerji" potensialı var. Bunun üçün ilkin şərtlər ölkədə bərpa olunan təbii mənbələrdən elektrik enerjisi istehsalı üçün böyük potensialın olması kimi amillər idi. Günəş enerjisini, demək olar ki, bütün ölkə ərazisində əldə etmək olar və külək enerjisindən istifadə baxımından ən perspektivli sahələr Xızı, Xəzər, Abşeron, Qobustan rayonları, eləcə də Bakı sayılır. Xəzər dənizində dəniz və külək stansiyalarının yaradılması ehtimalı var. Külək və günəş elektrik stansiyaları, emissiyaların azaldılması, meşələrin bərpası, elektrik və hidrogen nəqliyyatının inkişafı - bütün bunlar böyük əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, bu məsələdə elektrik enerjisi istehsalının ənənəvi üsullarından ekoloji cəhətdən təmiz üsullara sürətli keçid mümkün deyil. Hesab edirik ki, enerji mənbəyi kimi neft, qaz və kömürdən istifadədən bir gündə imtina edilməyəcək. Onlara hələ ehtiyac olacaq. Ona görə də Azərbaycan ağlabatan proporsiya və real tempi saxlamaqla ənənəvi üsullardan yeni üsullara rəvan keçid strategiyasını qəbul edib. Belə ki, əvvəllər işğal olunmuş və hazırda işğaldan azad edilmiş ərazilərdə bütün infrastrukturu sıfırdan bərpa etmək, faktiki olaraq yaratmaq lazımdır və bu bərpa artıq ən müasir, "ağıllı" texnologiyalar əsasında aparılır.

Məhz bu bölgələr təmiz enerji zonası elan edilib. Beləliklə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa olunan təbii mənbələrdən elektrik enerjisi istehsalı üçün böyük potensial mövcuddur. Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli günəş enerjisi ilə zəngindir; Kəlbəcər və Laçın güclü küləkləri ilə tanınır. Təbii, dağ çaylarının - Tərtərçay, Bazarçay, Həkərinin enerji yaradan potensialını xüsusi qeyd etmək yerinə düşər ki, bu da atmosferə zərər vermədən elektrik enerjisi istehsalına öz töhfəsini verəcək.

Yaşıl dünya naminə atılan addımlar, yalnız ətraf mühitin qorunması ilə məhdudlaşmamalıdır. Həm də sosial ədalət, iqtisadi inkişaf və mədəni dəyərlərin qorunmasını da əhatə etməlidir.

***UNUTMAYAQ - TƏBİƏTƏ NƏ VERİRİKSƏ, ONU DA BİZƏ QAYTARIR!***
***YER KÜRƏSİ HAMININ EVİDİR, ONU ÖZ EVİMİZİ QORUDUĞUMUZ KİMİ QORUMALIYIQ!!!***

**Cabbar Nəcəfov**
**"Meliorasiya və ekologiya" mühəndisliyi kafedrasının dosenti,**
**aqrar elmlər üzrə fəlsəfə doktoru**

# YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK

30 illik müstəqillik tariximizə nəzər salsaq, əminliklə demək mümkündür ki, ölkəmiz iqlim dəyişmələrinin fəsadları ilə mübarizəyə öz töhfəsini verir. COP-29 konfransına ev sahibliyini Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirmək olar. Bəli, ölkəmizin bu istiqamətdəki addımları sözdə deyil, əməldə özünü göstərir. Azərbaycan karbon izinin azaldılması məqsədilə önəmli işlər görüb. Ölkəmiz Bakının neft hasilatı nəticəsində çirkləndirilmiş Qara şəhərin bütöv bir hissəsini hazırda təxminən 200 min nəfərin yaşadığı Ağ şəhərə çevirib. Bununla paralel olaraq Azərbaycan öz üzərinə iddialı öhdəliklər götürüb. Azərbaycan iqlim dəyişmələri istiqamətində kifayət qədər əsaslı təşəbbüslərə və praktiki addımlarla çıxış edən ölkədir.

BMT - nin genişmiqyaslı tədbiri olan COP29-a ev sahibliyi olaraq ölkəmizin seçilməsi Azərbaycanın bu günə qədər həyata keçirdiyi yaşıl enerjiyə keçid layihələrinə verilən qiymətdir. Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikasının yaşıl enerji zonası elan olunması da bu qlobal problemlə mübarizədə səmimi niyyətimizi göstərir.

XX və XXI əsrlərdə iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafı, gələcəkdə bərpası mümkün olmayacaq təbii sərvətlərin həddindən artıq istismarı ətraf mühitə mənfi təsirini qaçılmaz edib. Qlobal ekoloji böhran, ətraf mühitlə bağlı problemlər bu gün bəşəriyyətin inkişafının ən vacib tələblərindən birinə çevrilib. Son illər sosial və iqtisadi inkişaf sahələrində kifayət qədər nailiyyətlər əldə edən ölkəmizdə ətraf mühit problemlərinin həlli istiqamətində genişmiqyaslı işlərin görülməsi, ekoloji vəziyyətin yaxşılaşdırılması dövlət siyasətinin dayanıqlı inkişaf strategiyasının mühüm tərkib hissələrindən biridir.

Qloballaşan dünyamızda təbiətin mühafizə olunması bütün dünya xalqlarını narahat edir. Avropa ölkələrinin çoxunda təbiəti korlayanlara sərt münasibət bəslənilir, yaşıllıq zolaqlarının ildən-ilə genişləndirilməsinə diqqət artırılır. Ekoloji təhlükəsizliyin təmin olunması üçün ətraf mühitin çirklənməsinin minimuma endirilməsi, təbii sərvətlərdən səmərəli istifadə, alternativ enerji mənbələrindən yararlanmaq ölkəmizin ekoloji siyasətinin əsas istiqamətləridir. Unutmayaq ki, iqlim dəyişmələrinin təsirindən inkişaf səviyyəsindən asılı olmayaraq, heç bir ölkə sığortalanmayıb. Təbiətdə baş verən ekstremal təbii fəlakətlərdən bunu əyani şəkildə müşahidə edirik. Bəşəriyyətin üzləşdiyi ən çətin problemlərdən biri olan qlobal iqlim dəyişmələrinin yaratdığı problemin qarşısının alınmasına yönəldilən birgə səylər hər zaman ölkəmiz tərəfindən dəstəklənib, vətəndaşlarımız bu sahədə öz fəallıqlarını nümayiş etdiriblər.

"Hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü-özünə xəyanət edir. Təbiətin ölkəmizə bəxş etdiyi zəngin sərvətlərə xüsusi qayğı ilə yanaşmaq, belə misilsiz xəzinələri bəşəriyyətin gələcəyi naminə qorumaq üzərimizə düşən başlıca vəzifələrdəndir". Xalqımızın Ulu Öndəri Heydər Əliyevin zamanında söylədiyi bu sözlər bu gün də öz aktuallığını qoruyub saxlayır. Dövlətimizin ekoloji siyasətinin, təbiətə dəyər verməsinin və ona qayğı ilə yanaşmasının bəhrəsidir ki, insanlar təbiətlə bir vəhdət şəklində yaşayır, təbiətimizi, zəngin flora və faunamızı qoruyur, ölkəmizin yaşıllıqlar diyarına çevrilməsi üçün əllərindən gələni edirlər.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrlərdə Azərbaycan təbiətinin qorunması üçün bütün imkanlardan istifadə etmiş, vətənimizin yaşıllıqlara bürünməsi istiqamətində xeyli iş görmüşdür. Ulu Öndər tərəfindən müəyyənləşdirilən ekoloji siyasət bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da ölkəmizdə yeni yaşıllıqların salınmasına və mövcud yaşıllıq sahələrinin qorunmasına xüsusi diqqət yetirir. Bu məsələdə Heydər Əliyev Fondunun vitse-prezidenti, "İDEA İctimai Birliyi" nin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən layihələrində mühüm rolu var. Müxtəlif vaxtlarda icra olunan ekoloji layihələr Azərbaycanın bütün regionlarını əhatə etməklə, ümumilikdə ölkəmizin ekoloji vəziyyətinin sağlamlaşdırılmasına böyük töhfələr verir.

Bu gün Azərbaycanın hər yerində vətəndaşların iştirakı ilə ağacəkmə aksiyaları keçirilir, flora və faunanın genefondunun mühafizəsi üçün "Qırmızı Kitab" yaradılıb, nadir və nəsli kəsilməkdə olan növlərin tədqiqi üzrə mütəxəssislər mütəmadi monitorinqlər keçirirlər. Ölkəmizin hər yerində yaşıllıqların salınmasında, təmizlik işlərində vətəndaşlarımız fəallıq göstərirlər. Onların əkdikləri ağaclar təbiətə rəngarənglik, gözəllik, eyni zamanda təmiz hava bəxş edir. Ətraf mühitdən, təbiətdən yararlanmaq hər bir vətəndaşın hüququ olduğu kimi, onu qorumaq, qayğısına qalmaq da hər birimizin vətəndaşlıq borcudur. Vətənimizin zəngin təbiəti xalqımızın sərvətidir. Ona görə də Vətənin təbiətini qorumaq, mühafizə etmək, onun flora və faunasına can yandırmaq hər bir Azərbaycan vətəndaşının övladlıq borcudur. Bu gün hər bir Azərbaycan övladı ətraf mühitə ağıllı nəzərlərlə baxmalı, təbiətdən zövq almalı, ana yurdun təbiətinin keşiyində dayanmalıdır. Ana yurdumuzun təbiəti Ulu Tanrının bizə bəxş etdiyi elə gözəl sənət əsəridir ki, bu əsəri korlamaq, ona laqeyd münasibət bəsləmək ən azı insafsızlıqdır.

**Şəbnəm Əliyeva**
**"Azərbaycan dilçiliyi"**

# Yaşıl gələcək naminə texnologiyanın səmərəli istifadəsi

Yaşadığımız Yer kürəsi iqlim dəyişikliyi də daxil olmaqla, dəniz səviyyəsinin qalxmasına qədər ekoloji problemlərin getdikcə görünən təsirləri ilə üzləşdiyi bir vaxtda innovativ həllərə ehtiyacı heç vaxt bu qədər böyük olmamışdır. Texnoloji emissiyaları azaltmaq, resurslara qənaət etmək və sənayeləri daha davamlı təcrübələrə çevirmək üçün bu böhranla mübarizə səylərin ön sıralarında dayanır. COP29 kimi böyük beynəlxalq sammit keçirilməmişdən əvvəl siyasətçilər və maraqlı tərəflər təsirli həllər üçün iqlim yönümlü, daha yaşıl, daha davamlı gələcək yaratmaq üçün texnologiyaya diqqəti artırdılar. Texnologiya daha davamlı təcrübələrə imkan vermək, emissiyaları azaltmaq və ekoloji çağırışlara nəzarət etmək və onlara cavab vermək qabiliyyətimizi artırmaqla iqlim dəyişikliyi və ətraf mühit problemlərinin həllində mühüm rol oynayır. Müasir dövrdə texnologiya ilə ətraf mühit elminin yaxınlaşması iqlim dəyişikliyi və ekologiyanın qorunması üçün təsirli həllər təklif edir. Bərpa olunan enerjidən tutmuş süni intellektə əsaslanan layihələrə qədər bu yeniliklər davamlı gələcəyə keçid üçün vacibdir. Xüsusilə xərclər və ədalətli çıxışla bağlı problemlər qalmasına baxmayaraq, bu texnologiyaların davamlı inkişafı və qəbulu ətraf mühitin deqradasiyasını, həmçinin emissiyaları azalda və iqlim təsirlərinə qarşı davamlılıq yarada bilər. Bu texnologiyaların siyasətə və gündəlik həyata inteqrasiyası ilə cəmiyyətlər iqlim məqsədlərinə nail olmağa və planeti gələcək nəsillər üçün qorumağa yaxınlaşa bilər.

Bərpa olunan enerji mənbələri, xüsusilə günəş, külək və su enerjisi indi həmişəkindən daha sərfəli və səmərəlidir. Bərpa olunan enerjinin tutulması, saxlanılması və paylanılması texnologiyası hazırda sürətlə inkişaf edir, üzən günəş panelləri və külək stansiyaları kimi yeniliklər təmiz enerji istehsalı üçün imkanları genişləndirir. Günəş enerjisi elektrik enerjisi yaratmaq üçün fotovoltaik elementlər və ya günəş istilik sistemləri vasitəsilə günəş işığından istifadə edir. Günəşin potensialı böyükdür və Yerə cəmi bir saat ərzində düşən günəş işığı bütün il ərzində dünyanın enerji ehtiyacını ödəyə bilər. Böyük miqyaslı günəş fermaları və daha kiçik panel sistemləri getdikcə daha da mükəmməlləşdi və bir çox şəhər və ölkələr günəş enerjisini öz şəbəkələrinə inteqrasiya etmək üçün iddialı hədəflər qoyur. Fotovoltaik panellər günəş işığını birbaşa elektrik enerjisinə çevirərək təbii yanacaqlardan asılılığı azaldır. Perovskit günəş batareyaları və konsentratlaşdırılmış günəş enerjisi kimi qabaqcıl günəş texnologiyaları səmərəliliyi artırır və günəş enerjisini daha əlçatan edir. Külək turbinləri təmiz enerji yaradır, dəniz küləkli ərazilərdə hərəkət gücünü artırır və torpaqdan istifadəyə təsirləri azaldır. Hidroenergetika uzun müddət davam edən texnologiya olsa da, kiçikmiqyaslı su sistemlərindəki yeniliklər və dalğa enerjisi təmiz enerji təmin edərkən ekoloji pozulmaları azaldır. Geotermal stansiyalar Yerin istiliyindən elektrik enerjisi istehsalı və birbaşa isitmə üçün istifadə edərək etibarlı, aşağı emissiyalı enerji mənbəyi təklif edir. Ağıllı şəbəkələr sensorlar, məlumat analitikası və avtomatlaşdırmadan istifadə etməklə elektrik enerjisinin paylanmasını optimallaşdırır. Onlar bərpa olunan enerjini daha effektiv şəkildə inteqrasiya edir və enerji israfını azaldır. Şəbəkə operatorları günəş və ya külək fermalarının batareyalarla birləşdirildiyi hibrid bərpa olunan enerji saxlama sistemlərini getdikcə daha çox tətbiq edirlər. Bu hibrid sistemlər, hətta bərpa olunan nəsil dəyişkən olduqda belə, sabit enerji təmin edə və şəbəkə operatorlarına tələb və təklifin idarə edilməsində daha çox çeviklik göstərə bilər. Ekstremal hava və ya təbii fəlakətlərə meylli bölgələrdə saxlama sistemləri həm də kəsintilər zamanı kritik xidmətləri saxlayaraq ehtiyat enerji kimi çıxış etmə imkanına malik olacaq.

Laboratoriyada yetişdirilmiş süni ət və bitki əsaslı protein alternativləri heyvandarlığın ətraf mühitə təsirini, həmçinin istixana qazlarını, sudan istifadəni və torpağın deqradasiyasını azaldır. Kənd təsərrüfatı iqlim dəyişikliyinin həm qurbanı, həm də töhfəçisidir və qlobal istixana qazı emissiyalarının təxminən dörddə birinin səbəbkarı hesab olunur. Peyk təsvirləri, dronlar və torpaq sensorları kimi dəqiq kənd təsərrüfatı texnologiyaları fermerlərə resurslardan istifadəni optimallaşdırmağa, su istehlakını və kimyəvi gübrələri azaltmağa imkan verir. GPS, IoT sensorları və məlumat analitikası kimi texnologiyalar fermerlərə su, gübrə və pestisidlərdən istifadəni asanlaşdırmağa kömək edir, tullantıları və ətraf mühitə təsirləri azaldır. Şaquli əkinçilik və hidroponika ənənəvi kənd təsərrüfatına nisbətən daha az torpaq və su istifadə edir və qida istehsalını şəhər ərazilərinə yaxınlaşdıraraq nəqliyyat emissiyalarını azaldır. Bundan başqa, bu texnologiyalar məhsulun sağlamlığı, torpağın rütubəti və hava şəraiti haqqında məlumat verməklə fermerlərə dəyişən iqlimlərə uyğunlaşmağa kömək edir. Səmərəliliyi maksimuma çatdırmaq və tullantıları minimuma endirməklə, dəqiq kənd təsərrüfatı daha davamlı qida sisteminə töhfə verir və ərzaq təhlükəsizliyini artırır.

Nəqliyyat sektoru qlobal emissiyaların əhəmiyyətli bir hissəsini təşkil edir. Elektrikli avtomobillər inkişafa doğru böyük bir addımdır, lakin onlar güclü infrastruktur və akkumulyator texnologiyasında irəliləyişlər tələb edir. Elektrikli avtomobillər benzin əvəzinə akkumulyator gücündən istifadə edərək istixana qazı emissiyalarını azaldır. Bərpa olunan enerji doldurma infrastrukturu ilə birlikdə onlar nəqliyyat emissiyalarını əhəmiyyətli dərəcədə azaldır. Elektrikli avtomobillərdən başqa, hidrogenlə işləyən nəqliyyat vasitələrinə, xüsusən də yük maşınları və avtobuslar kimi ağır yük daşıyan nəqliyyat vasitələrinə artan maraq var. Təbii yanacaq vasitəsi kimi hidrogeni əlavə məhsul olaraq yalnız su buxarı ilə elektrik enerjisinə çevirərək ağır yük maşınları və uzun məsafəli səyahətlər üçün alternativ təklif edir. Hidrogen həm enerjinin saxlanılması, həm də yanacaq üçün unikal həll təklif edir. Həddindən artıq bərpa olunan enerji, su molekullarını hidrogen və oksigenə ayıran elektroliz vasitəsilə "yaşıl hidrogen" istehsal etmək üçün istifadə edilə bilər. Bu hidrogen daha sonra saxlanıla və elektrik stansiyalarında və ya yanacaq hüceyrələrində yanacaq kimi istifadə oluna və ya yenidən elektrik enerjisinə çevrilə bilər. Yaşıl hidrogen müxtəlif sektorlarda, o cümlədən nəqliyyat və ağır sənayedə potensial tətbiqlərə malikdir və onu çoxyönlü saxlama və enerji həllinə çevirir.

Elektrikləşdirilmiş və avtonom ictimai nəqliyyat sistemləri səmərəliliyi artıra və fərdi avtomobil istifadəsini azalda bilər, beləliklə, emissiyaları azaltmaq şansı yaranır. Avtonom elektrik servisləri, ortaq mobillik platformaları və yüksək sürətli dəmiryolu da şəhər nəqliyyatını dəyişdirir, tıxacları və havaya zərərli tüstünün buraxılmasını azaldır. Bu texnologiyalar daha əlçatan və münasib qiymətə çevrildikcə havada artan zərərli karbon qazının əhəmiyyətli dərəcədə azalması müşahidə olunur.

COP29 və analoji iqlim sammitləri qlobal səyləri uyğunlaşdırmaq və iqlim yönümlü texnologiyaların tətbiqini sürətləndirmək üçün resursları səfərbər etmək üçün mühüm platforma təmin etdi. Bu yeniliklərdən istifadə etməklə biz iqtisadi inkişafın ətraf mühitə nəzarətlə birgə getdiyi davamlı gələcək yarada bilərik. Texnologiya təkbaşına iqlim böhranını həll edə bilməz, lakin güclü siyasətlər, ictimaiyyətin iştirakı və ədalətə sadiqlik ilə birləşdirildikdə, dalğanı daha yaşıl, daha möhkəm dünyaya çevirmək potensialına malikdir. Bərpa olunan enerjiyə keçid və effektiv saxlama həllərinin inkişafı qlobal enerji sisteminin əsaslı transformasiyasını təmsil edir. Texnologiya irəliləməyə davam etdikcə, bərpa olunan mənbələr təmiz, etibarlı və sərfəli enerjinin təmin edilməsində daha da böyük rol oynayacaq. Bərpa olunan enerji və saxlama həlləri birlikdə emissiyaların minimuma endirildiyi, enerjiyə çıxışın genişləndirildiyi və davamlılığın müasir cəmiyyətin təməlində qurulduğu davamlı gələcəyə aparan yol təklif edir. Bu texnologiyalara sərmayə qoymaq və dəstəkləyici siyasət mühitini inkişaf etdirməklə biz həm insanlara, həm də planetə fayda verən təmiz enerji ilə işləyən dünyaya yaxınlaşa bilərik. Bərpa olunan enerjiyə keçid iqlim dəyişikliyi ilə mübarizənin prioritet istiqamətlərindən biridir, çünki bütün dünyada hökumətlər və sənayelər daimi yanacaqlara davamlı alternativlər axtarır. Günəş, külək və hidroenergetika bu hərəkətin ön sıralarındadır və havaya az karbon buraxmaqla daha təmiz enerji istehsalına imkan verir. Texnologiyada əhəmiyyətli irəliləyişlər və aşağı qiymətlər sayəsində günəş və külək enerjisi indi əvvəlkindən daha əlçatan və əlverişlidir. Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) məlumatına görə, günəş fotovoltaik (PV) elektrik enerjisinin qiyməti 2010-cu ildən bəri 80%-dən çox, quruda külək xərcləri isə təxminən 40% azalıb. Xərclərin bu sürətlə azalması bərpa olunan enerji mənbələrini həm hökumətlər, həm də bizneslər üçün rəqabətli və cəlbedici seçimə çevirdi.

**Aygün Əsgərova**
**Naxçıvan Müəllimlər İnstitutu**
**"Xarici dillər və tədrisi metodikası"**
**kafedrasının baş müəllimi**

# COP29 - Gənclərin ekoloji məsuliyyətini gücləndirmək üçün bir imkandır

İqlim dəyişikliyi, müasir dövrün ən ciddi ekoloji problemlərindən biri olaraq dünya miqyasında geniş əhatə dairəsinə malikdir. İqlim dəyişikliyinin nəticələri, resursların tükənməsi, ekosistemlərin məhvi, təbii fəlakətlərin artması və insan sağlamlığına təsir edən ciddi problemləri əhatə edir. BMT-nin İqlim Dəyişməsi üzrə Konfransı (COP) çərçivəsində keçirilən COP29-u gənclərin ekoloji məsələlərə yanaşmasını formalaşdırmaq və onların bu sahədəki məsuliyyətlərini artırmaq üçün mühüm platformalardan biri kimi qeyd etmək olar. COP29-un gənclərə ekoloji məsələlərdəki rolu və onların bu sahədə məsuliyyətli yanaşmasını necə gücləndirə biləcəyi üzərində geniş müzakirələr aparsaq, bu konfransın gənclər üçün yaratdığı imkanlar və onun təsirləri ilə yanaşı, gənclərin ekoloji aktivizminin vacibliyini də vurğulaya bilərik.

İqlim dəyişikliyi gənc nəsil üçün birbaşa təsir edən bir məsələdir. Çünki gənclər daha uzun bir gələcək ilə qarşılaşacaqları üçün bu məsələlərə diqqət yetirmələri zəruridir. Beynəlxalq təşkilatların 2023-cü ildə apardığı tədqiqatlara görə, gənclərin 75 faizi iqlim dəyişikliyi ilə bağlı narahatlıq hissi keçirir. Bu narahatlığın səbəbləri arasında hava dəyişiklikləri, resursların azalması, ekosistemlərin məhvi, sosial ədalət və bərabərlik qeyd edilir.

COP29 gənclərə bu problemləri anlamaq və onlara qarşı mübarizə aparmaq üçün imkanlar təqdim etdi. Bu tədbir, gənclərin ekoloji biliyini artırmağın, onların aktiv iştirakını təmin etmənin və gələcəkdə iqlim dəyişikliyinə qarşı daha təsirli tədbirlər görmələrinin yolunu açdı. Bu konfrans bir sıra dövlət qurumlarının, müxtəlif gənclər təşkilatlarının, ekoloji aktivistlərin və mütəxəssislərin bir araya gəlməsini təmin edərək gənclərin iqlim dəyişikliyi ilə mübarizə məqsədilə




öz ideyalarını və layihələrini təqdim edə biləcəyi bir mühit yaratdı.

Bu tədbirin gənclərə olan təsiri bir neçə istiqamətdə özünü göstərdi. Təşkil olunan forumlar və müzakirələr, gənclərə öz fikirlərini sərbəst ifadə etməyə imkan tanıyır. Bu, onların öz güclü və zəif tərəflərini anlamağa kömək etdi.

Gənclərin müxtəlif bölgələrdən olan aktivistlərlə tanış olmalarını və təcrübə mübadiləsi aparmalarını təmin edərək ekoloji məsələlərdə daha təsirli olmalarına imkan tanıdı.

Gənclərin ekoloji problemlər üzərində müzakirələri onların düşüncə tərzini genişləndirdi və yeni yanaşmaların ortaya çıxmasına səbəb oldu.

Gənclərin ekoloji məsələlərə məsuliyyətli yanaşmasını artırmaq üçün bir neçə tədbir görülə bilər. Misal, ekoloji problemlər barədə geniş maarifləndirmə kampaniyaları gənclərin məlumatlılığını artırır. Bu kampaniyalar gənclərə ətraf mühitin qorunması və ekoloji aktivizm haqqında tam ətraflı məlumat qazandıra bilər. Ekoloji məsələlər haqqında biliklərin artırılması üçün məktəblərdə və universitetlərdə təhsil proqramlarının keçirilməsi vacibdir. Bu proqramlar gənclərin ekoloji problemləri anlamaq və onlara qarşı mübarizə aparmaq üçün lazım olan bilikləri əldə etmələrini təmin edər. Eyni zamanda gənclərin ekoloji layihələrdə iştirak etmələri, onların məsuliyyətli yanaşmalarını gücləndirir. Bu layihələr gənclərin ekoloji problemlərlə mübarizəyə daha aktiv qatılmalarını təşviq edir. Məsələn, gənclərin təbiəti qorumaq üçün həyata keçirdikləri təmizlik aksiyaları və ya ağac əkilməsi kampaniyaları bu yanaşmaya misal ola bilər.

Nəticə olaraq gənclərin ekoloji məsələlərə məsuliyyətli yanaşmasını formalaşdırmaq, yalnız ekoloji bilincin artırılması ilə deyil, eyni zamanda gənclərin aktiv iştirakını təşviq etməklə mümkündür. COP29 bu istiqamətdə gənclərə geniş imkanlar təqdim etdi.

Bununla yanaşı, gənclərin ekoloji məsələlərdə aktiv olmasını təmin etmək üçün maarifləndirmə, təhsil və sosial mühitin yaradılması mütləqdir. COP29 gənclərin bu məqsədə çatmasına kömək edəcək bir platforma olaraq onların ekoloji məsuliyyətlərini artırmağa və gələcəkdə daha sağlam bir planet üçün mübarizəyə qoşulmalarına dəstək verir. Gənclərin bu sahədəki rolu yalnız özləri üçün deyil, bütün cəmiyyət üçün müsbət təsir yaradır.

**Hüseyn İmanov**
**"Meliorasiya və ekologiya mühəndisliyi" kafedrasının müəllimi**

# COP29-un AZƏRBAYCAN ÜÇÜN ƏHƏMİYYƏTİ

Qlobal birlik iqlim dəyişikliyinin aktual çağırışları ilə mübarizəni davam etdirdiyi bir vaxtda, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Tərəflərin 29-cu Konfransı (COP29) dünya ölkələri, o cümlədən Azərbaycan üçün böyük əhəmiyyət kəsb etdi.

Azərbaycan bir çox dövlətlər kimi, iqlim dəyişikliyinin təsirlərini yaşayır: dəyişkən hava şəraitindən tutmuş kənd təsərrüfatı, su ehtiyatları və biomüxtəliflik üçün təhlükələrə qədər. COP29 Azərbaycana beynəlxalq ictimaiyyətlə əlaqə yaratmaq, təcrübələrini bölüşmək və ölkənin unikal çağırışlarına cavab verən iddialı iqlim siyasətini müdafiə etmək üçün mühüm platforma təqdim etdi.



COP29-da Azərbaycanın diqqət mərkəzində olan əsas istiqamətlərdən biri onun Paris Sazişinə milli olaraq müəyyən edilmiş töhfələrinin (MDM) həyata keçirilməsi oldu. Azərbaycan istixana qazları emissiyalarını azaltmaq və iqlim dəyişikliyinin təsirlərinə qarşı dayanıqlığını artırmaq öhdəliyini götürüb, lakin bu hədəflərə nail olmaq üçün möhkəm siyasətlər, investisiyalar və tərəfdaşlıqlar tələb olunur. Əhəmiyyətli neft və qaz istehsalçısı kimi Azərbaycan enerji portfelinin şaxələndirilməsinin və bərpa olunan mənbələrdən asılılığının artırılmasının vacibliyini dərk edir. Konfrans Azərbaycana bərpa olunan enerjinin inkişafı sahəsində səylərini bölüşməyə, enerji keçidində çağırışları və imkanları müzakirə etməyə və davamlı inkişaf üçün yeni yolları araşdırmağa imkan verdi.

Azərbaycanın zəngin biomüxtəlifliyi və ekosistemləri ölkə üçün COP29-da biomüxtəlifliyin qorunması və ekosistemin bərpası ilə bağlı müzakirələrdə iştirak etməyi vacib etdi. Biomüxtəlifliyin qorunması təkcə ölkənin təbii irsinin qorunması üçün deyil, həm də əhalisinin rifahının təmin edilməsi və davamlı inkişafın təşviqi üçün vacibdir. Bu müzakirələrdə iştirak etməklə Azərbaycan biomüxtəlifliyin qorunması və insanlarla ətraf mühit arasında ahəngdar münasibətlərin möhkəmləndirilməsi üzrə qlobal səylərə töhfə verə biləcəyini sübut etdi.

Milli maraqları ilə yanaşı, Azərbaycanın COP29-da iştirakı qlobal iqlim fəaliyyətinə və davamlı inkişafa sadiqliyini nümayiş etdirmək üçün çox vacib idi. Konfransda əldə olunan qərarlar və razılaşmalar iqlim dəyişikliyinin həlli üzrə beynəlxalq səylərin gələcək trayektoriyasının formalaşmasında mühüm rol oynadı.

COP29 çərçivəsində iqlim dəyişikliyi ilə mübarizə tədbirləri enerji sektorunu innovasiyalara yönəldərək iqlim dəyişikliyi ilə bağlı çağırışlar, ölkəni enerji müstəqilliyini artırmağa, bərpa olunan enerji mənbələrini inkişaf etdirməyə təşviq etdi.

Bərpa olunan enerji mənbələrinin istifadə olunmasının stimullaşdırılmağı vacib məsələlərdən biri kimi önə çıxır. Azərbaycanın günəş və külək enerjisi potensialını inkişaf etdirmək, yalnız ekoloji tarazlığı qorumaqla qalmayacaq, eyni zamanda yeni iş yerləri yaradacaq, iqtisadi diversifikasiyanı təmin edəcək. Bu sahəyə yönəlmiş investisiyalar Azərbaycanın iqtisadiyyatını daha sabit və davamlı hala gətirəcək.




COP29-un müzakirələri çərçivəsində qarşıya qoyulan məqsədlər, Azərbaycanın iqtisadiyyatın diversifikasiya etməyə istiqamətlənməklə təkcə enerji sektoruna deyil, kənd təsərrüfatı, turizm və qeyri-neft sektoru kimi sahələrə də sərmayə qoyuluşunun artırılmasını zəruri etdi.

COP29 çərçivəsində beynəlxalq müstəvidə görüşlər, Azərbaycanın dünyaya özünü tanıdaraq yeni beynəlxalq iqtisadi münasibətlər qurmasına imkan yaratdı.

COP29-un nəticələri Azərbaycanın gələcəyi, ekoloji durumu, iqtisadi inkişafı və beynəlxalq əlaqələrini müsbət istiqamətdə formalaşdıracaqdır. Bu tədbir iqlim dəyişikliyi ilə mübarizə, ekoloji tarazlıq, iqtisadi tərəqqi, sosial ədalət və beynəlxalq əməkdaşlıq kimi sahələrdəki strateji yanaşmaların təkmilləşdirilməsinə də töhfə verəcəkdir. İqlim dəyişikliyi ilə mübarizədə daha effektiv qərarların qəbul edilməsi və tədbirlərin planlaşdırılması üçün COP29 kimi konfranslar böyük əhəmiyyət daşıyır. Eyni zamanda ölkəmizdə iqlim siyasətinin gücləndirilməsi üçün müxtəlif addımların atılması vacibdir.

İqlim dəyişikliyi ilə mübarizə sahəsində yeni texnologiyaların tətbiqi, Azərbaycanda elmi tədqiqatların daha da inkişaf etdirilməsinə səbəb olacaq. Bu proses ekoloji problemləri anlamağa, yeni ətraf mühit tədqiqatları həyata keçirməyə və davamlı inkişaf istiqamətində strategiyalar hazırlamağa imkan verəcək.

COP29-un nəticələrinin ölkəmizdə tətbiqi təkcə milli maraqlara deyil, həm də qlobal iqlim siyasətinə müsbət təsir göstərəcəkdir. İqlim dəyişikliyi ilə mübarizədə daha səmərəli qərarların qəbul edilməsi və tədbirlərin planlaşdırılması üçün bu cür konfransların əhəmiyyəti danılmazdır. Həmçinin ölkəmizin iqlim siyasətinin daha da gücləndirilməsi məqsədilə müxtəlif addımların atılması zəruridir.

Yekun olaraq, COP29 Azərbaycana öz iqlim məqsədlərinə nail olmaq, iqlim dəyişikliyinin təsirlərinə qarşı dayanıqlığını gücləndirmək və davamlı inkişafı təşviq etmək üçün dəyərli fürsət təqdim etdi. Konfransda fəal iştirak etməklə, digər ölkələrlə əməkdaşlıq etməklə və iddialı iqlim siyasətini müdafiə etməklə Azərbaycan özü və gələcək nəsillər üçün daha davamlı və möhkəm gələcəyin formalaşdırılmasında mühüm rol oynadı.

**Nərmin Məmmədova**
**"İngilis dili və tərcümə" kafedrasının müəllimi**

**Baş redaktor:**
**ŞƏHLA ŞİRƏLİYEVA**
**shshahla36@gmail.com**

*Ünvan: AZ 7012, Naxçıvan şəhəri, Universitet şəhərciyi*
*Telefonlar: 544-08-61 (13-60)*
*yenifikir.ndu@gmail.com*

NAKHCHIVAN STATE UNIVERSITY

*Qeydiyyat №330*
*sifariş №368*
*Tiraj 300*

**DİZAYNER:**
**SAHİLƏ ABBASOVA**
*"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur*